Xalqın qəzeti!

# Xalq qəzeti

№ 173 (30289) 16 avqust 2023-cü il, çərşənbə

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | veb-sayt: www.xalqqazeti.az


**Günün sözü**

**Prezident İlham Əliyev:**

**Laçın dəhlizi adlandırılan yol II Qarabağ müharibəsi bitəndən sonra fəaliyyətini 2 il davam etdirib. Aprelin 23-dən–sərhəd-keçid məntəqəsini qurduğumuz vaxtdan Qarabağın 2 mindən artıq sakini Ermənistana gedib-gəlib. Amma iyunun 15-də Ermənistan növbəti hərbi təxribata əl atdı. Araşdırma aparıldığı üçün yol müvəqqəti bağlansa da, sonra açıldı.**

# Xalqın sağlamlığı sosial prioritetdir

## Prezident İlham Əliyev Bakıda "Diamed" dərman istehsalı zavodunun açılışında iştirak edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakının Pirallahı rayonunda "Diamed" dərman istehsalı zavodunun açılışında iştirak edib.**

İqtisadiyyat naziri Mikayıl Cabbarov və "Diamed Development Group" MMC-nin təsisçisi Aytən Quliyeva dövlətimizin başçısına görülən işlər barədə məlumat verdilər.

Layihənin əhəmiyyəti barədə videoçarx nümayiş olundu.

*(ardı 2-ci səhifədə)*

## Rusiya Federasiyasının Prezidenti Zati-aliləri cənab Vladimir Putinə

**Hörmətli Vladimir Vladimiroviç,**

Mahaçqalada yanacaqdoldurma stansiyasında baş vermiş partlayış nəticəsində çoxsaylı insan tələfatı barədə xəbərdən çox kədərləndim.

Sizə, həlak olanların doğmalarına və yaxınlarına Azərbaycan xalqı adından və şəxsən öz adımdan dərin hüznlə başsağlığı verir, bütün xəsarət alanlara şəfa diləyirəm.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı, 15 avqust 2023-cü il**

# BMT üçün ədalət sınağı

**BMT-nin Təhlükəsizlik Şurası bu gün Qarabağdakı humanitar vəziyyəti müzakirə edəcək. O da məlumdur ki, müzakirə Ermənistanın avqustun 12-dəki müraciəti əsasındadır. Əslində, ilk baxışdan nəzərdən keçiriləcək heç nə olmamalıdır. Yəni, İrəvanın irəli sürdüyü cəfəngiyyatdır və ona görə ayrıca iclas çağırmağa, özü də onu fövqəladə qismində təqdim etməyə ehtiyac əsla yoxdur. Çünki Qarabağ ölkəmizin ərazisidir və hazırkı durumda haqqı pozulan tərəf varsa, o da Azərbaycandır…**



Onu da deməliyik ki, belə bir müzakirənin olacağı proqnozlaşdırılan idi. Çünki bir neçə gün əvvəl BMT-nin İnsan Hüquqları Şurasının bəzi xüsusi məruzəçilərinin və müstəqil ekspertlərin ermənipərəst fəallıqlarını görmüşdük. Onlar, guya, Azərbaycan tərəfindən Laçın yolunun blokadada saxlandığını və Qarabağda "gərgin humanitar vəziyyət" yarandığını car çəkmişdilər. Necə deyərlər, ardı gəlməli idi və gəldi də. Görünür, Ermənistan hakimiyyətinin həmin ekspert və məruzəçilərlə "işbirliyi" nəticəsini verdi.

**(ardı 3-cü səhifədə)**

## "The National Interest": "Ermənistan Cənubi Qafqazda sülhü pozmaq istəyir?"

**Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin "The National Interest" qəzetində "Ermənistan Cənubi Qafqazda sülhü pozmaq istəyir?" sərlövhəli məqaləsi dərc olunub. Məqaləni təqdim edirik.**




Ermənistan diplomatik oyunlar və kampaniyalar yürütmək əvəzinə sülh danışıqlarına və Azərbaycan ilə münasibətlərin normallaşdırılmasına fokuslanmalıdır.

Ermənistan Azərbaycanın beynəlxalq şəkildə tanınan ərazilərinin 20 faizini otuz ildən artıq idi işğal etmişdi. Orada yaşayan bir milyona yaxın azərbaycanlı doğma evlərini tərk etməyə və öz ölkələrində məcburi köçkün kimi yaşamağa məcbur olmuşdu.

İşğal dövründə ictimai, şəxsi, mədəni və dini irsin misli görünməmiş şəkildə dağıdıldığı ərazilər 2020-ci ildə 44 günlük müharibədən sonra azad edildi. Bir zamanlar regionun ən böyük şəhəri olan Ağdam yer üzündən elə silinib ki, artıq "Qafqazın Hiroşiması" olaraq tanınır. Sanki işğalçılar Azərbaycanın bütün izlərini silmək istəyirdilər.

Beynəlxalq hüquq, dünya dövlətləri və BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi Qarabağı Azərbaycanın suveren ərazisi kimi tanımasına baxmayaraq, otuz ildir erməni siyasətçilər müstəqil etnik erməni ərazisinin yaradılmasını və işğal olunan torpaqların anneksiya yolu ilə Ermənistana birləşdirilməsini xəyal edirlər.

*(ardı 6-cı səhifədə)*

## 7 ayda kənddə istehsal 7 milyard 262 milyon manata çatıb



Səhifə ⇨ 9

## Şuşa həbsxanasında kütləvi məzarlıq



Səhifə ⇨ 4

# Hayların "yeraltı müharibəsi" davam edir

**44 günlük müharibədə biabırcasına məğlub olmuş Ermənistan bu gün regionda sabitliyi və təhlükəsizliyi təhdid edən terrorçu ölkə olaraq qalmaqdadır. Şovinizm mərəzinə yoluxmuş haylar 30 ilə yaxın işğal altında saxladıqları Azərbaycan torpaqlarında misli görünməmiş vandalizm aktları törədiblər. Onların saysız-hesabsız cinayətləri sırasında Qarabağ və ətraf rayonlarımızdakı ərazilərimizin minalanması birinci yerdə gəlir.**




Bu torpaqları yağı düşməndən azad etsək də, hərbi işğal dövründə Qarabağın hər qarışının dağıntıya məruz qalması, minaların basdırılması məcburi köçkünlərin doğma yurdlarına təhlükəsiz qayıtmasına böyük əngəllər yaradır. Bakının çoxsaylı tələb və təkidlərindən, beynəlxalq təşkilatların müraciətlərindən sonra İrəvanın təqdim etdiyi minalanmış ərazilərin xəritələrinin dəqiqliyi cəmi 25 faizə bərabərdir.

Hətta, bu məsələdə də ermənilər məkrli niyyətlərindən əl çəkməyiblər. Yəni onların məqsədlərindən biri işğaldan azad olunmuş ərazilərimizdə dinc həyatın, bərpa-quruculuq işlərinin başlanmasına, soydaşlarımızın öz yurdlarına qayıtmasına mane olmaqdır. Onlar bu yolla həm də bölgədə gərginliyin aradan qalxmasına imkan verməməyə çalışırlar.

**(ardı 8-ci səhifədə)**

## Azərbaycan komandası II MDB Oyunlarında uğurla çıxış etdi




**Azərbaycan komandasının fəal iştirak etdiyi daha bir multiidman tədbiri tarixin yaddaşına köçdü. Belarusun 10 şəhərində keçirilən yarışda, 23 ölkədən 20 idman növü üzrə 246 mükafat dəsti uğrunda 2 minə yaxın atlet mübarizə aparırdı.**

Komandamız Oyunlarda 16 idman növündə 177 atletlə təmsil olundu. Yığmamızın üzvləri ölkəmizi layiqincə təmsil etmək üçün ciddi idman mübarizəsi apardılar. Komandamız əldə etdiyi 62 medalla iştirakçı ölkələr sırasında 4-cü oldu.

**(ardı 10-cu səhifədə)**

## Aİ missiyasının "ermənniləşmə" prosesi yekunlaşıb

**Azərbaycan Xarici İşlər Nazirliyi avqustun 14-də bəyanat yayıb. Bölgəmizdəki cari vəziyyətin aydın əks olunduğu bəyanatda bir məqam xüsusilə diqqəti cəlb edib.**

Bildirilib ki, son həftələrdə Azərbaycan ərazisində qanunsuz yerləşdirilən Ermənistan silahlı qüvvələri hərbi-mühəndislik işlərini və digər hərbi quruculuq fəaliyyətini intensivləşdirib. XİN qeyd edib ki, bu fəaliyyət beynəlxalq hüququn, habelə rəsmi İrəvanın Azərbaycan, Rusiya və Ermənistan liderlərinin 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatının 4-cü bəndində təsbit olunmuş öhdəliklərinin ciddi pozuntusudur.

Qeyd olunub ki, Azərbaycanın suveren ərazilərində qanunsuz yerləşdirilmiş radioelektron mübarizə vasitələrinin istifadəsi xüsusi narahatlıq doğurur. Son həftələrdə "Azərbaycan Hava Yolları"nın mülki təyyarələri ilə yanaşı, xarici ölkələrin təyyarələri də onların təhlükəsizliyi üçün ciddi təhlükə yaradan radioelektron müdaxilələrə məruz qalıb. XİN bildirib ki, Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycanın suveren ərazilərində hərbi quruculuq işləri və fəaliyyətin qeyri-qanuni şəkildə artırılması ilə paralel olaraq, son günlərdə Ermənistan tərəfindən delimitasiya olunmamış dövlət sərhədi boyunca növbəti hərbi avantüra məqsədli irimiqyaslı silah, digər hərbi texnika və şəxsi heyətin toplanması da müşahidə olunub.

**(ardı 6-cı səhifədə)**

# Rublun "çöküşü" davam edir




Səhifə ⇨ 11

# Xalqın sağlamlığı sosial prioritetdir

(əvvəli 1-ci səhifədə)






Qeyd edək ki, qeyri-neft iqtisadiyyatının inkişafı və sənayeləşmə Prezident İlham Əliyevin iqtisadiyyatın şaxələndirilməsi siyasətinin əsas istiqamətlərindəndir. Bu baxımdan iqtisadiyyatın digər sahələri ilə yanaşı, sənayenin inkişafına xüsusi əhəmiyyət verilir, mövcud təbii və iqtisadi resursların istehsala cəlb edilməsi, qabaqcıl texnologiyaların daha geniş tətbiqi istiqamətində sistemli tədbirlər həyata keçirilir.

Ölkəmizdə sənayeləşmə siyasətinə uyğun olaraq ixtisaslaşmış sənaye parkları və sənaye məhəllələri yaradılır. Hazırda ölkəmizdə 7 sənaye parkı (Sumqayıt Kimya, Qaradağ, Pirallahı, Mingəçevir, Balaxanı, Ağdam və Cəbrayıl rayonunda yerləşən "Araz Vadisi İqtisadi Zonası" sənaye parkları) və 5 sənaye məhəlləsi (Hacıqabul, Masallı, Neftçala, Sabirabad və Şərur sənaye məhəllələri) mövcuddur. Sənaye parkları və məhəllələrdə sahibkarlıq fəaliyyətinin inkişafı üçün əlverişli investisiya mühiti yaradılıb.

Sənaye parklarının rezidentləri qeydiyyata alındıqları tarixdən etibarən 10 il müddətinə əmlak, torpaq, gəlir və ya mənfəət vergisindən, istehsal məqsədilə idxal etdikləri texnika, texnoloji avadanlıq və qurğular isə ƏDV-dən və gömrük rüsumlarından azad olunurlar. İndiyədək sənaye zonalarında 134 sahibkarlıq subyektinə rezidentlik statusu verilib və bunlardan artıq 68-i fəaliyyətə başlayıb. Sahibkarlar tərəfindən bu günədək sənaye zonalarına 6,56 milyard manatdan çox investisiya yatırılıb və 10 min 600-dən çox daimi iş yeri yaradılıb.

Dövlətimizin başçısının müvafiq Sərəncamı ilə əczaçılıq məhsullarının istehsalı sahəsində ixtisaslaşmış Pirallahı Sənaye Parkı da yaradılıb. Bu günədək parkda 6 müəssisə rezident kimi qeydiyyatdan keçib. Onlardan "R-Pharm" MMC və "Diamed Co" MMC artıq fəaliyyətə başlayıb. Rezidentlər tərəfindən 36,6 milyon manatdan çox investisiya yatırılıb, 130-dan çox iş yeri yaradılıb. Növbəti mərhələdə 30 milyon manat investisiyanın qoyulması və daha 250-dən artıq iş yerinin yaradılması nəzərdə tutulur. Bu sənaye parkının rezidentləri tərəfindən indiyədək 37 milyon manatlıq məhsul istehsal olunub.

Ölkəmizdə müasir sənaye müəssisələrinin, yeni istehsal sahələrinin yaradılması nəticəsində daxili tələbatın ödənilməsində yerli məhsulların payı əhəmiyyətli dərəcədə artır, ixrac imkanları genişlənir. Belə müəssisələrdən biri də "Diamed Development Group" MMC-nin Pirallahı rayonunda yaradılan dərman zavodudur. Bir hektar ərazisi olan zavod 3 min kvadratmetr qapalı sahədən ibarətdir.



Qeyd edək ki, Prezident İlham Əliyevin Sərəncamı ilə 2006-cı ildə fəaliyyətə başlayan "Azərbaycan İnvestisiya Şirkəti" Açıq Səhmdar Cəmiyyətinin yaradılmasının əsas məqsədi mövcud və yeni kommersiya müəssisələrinə yerli və xarici investorlar cəlb etməklə və öz vəsaiti hesabına müddətli investisiya qoyuluşları vasitəsilə ölkəmizdə iqtisadiyyatın qeyri-neft sektorunun inkişaf etdirilməsidir. Şirkətin fəaliyyətinin əsas prioritetləri birbaşa investisiyalar və yeni texnologiyaların Azərbaycana cəlb edilməsi üzrə katalizator olmaq, ölkəmizdə qeyri-neft sektorunun inkişafına töhfə vermək, habelə iqtisadiyyatın şaxələndirilməsi və idxalı əvəzləyən proseslərə dəstək verməkdir. Şirkət fəaliyyəti dövründə 27 layihəyə 224 milyon dollar investisiya yatırıb. Bu layihələrin 11-i xarici tərəfdaşlarla birgə icra olunub.

"Azərbaycan İnvestisiya Şirkəti" ASC bu dərman zavodunun tikintisinin maliyyələşdirilməsində də iştirak edib. Ümumi dəyəri 15,6 milyon manatdan çox olan "Diamed" dərman zavodunda "Azərbaycan İnvestisiya Şirkəti"nin payı 20 faizdir.

Bu müəssisəyə dövlət tərəfindən digər dəstək tədbirləri də göstərilib. Belə ki, layihənin reallaşması üçün İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondu tərəfindən 6 milyon manat güzəştli kredit verilib. Sahibkarlığın inkişafına digər bir dövlət dəstəyi çərçivəsində İqtisadiyyat Nazirliyi tərəfindən verilmiş investisiya təşviqi sənədi sayəsində müəssisə idxal etdiyi avadanlıqlara görə 1,3 milyon manat güzəşt əldə edib.

Prezident İlham Əliyev zavodu işə saldı.

İstehsal prosesi ilə yaxından tanış olan dövlətimizin başçısına məlumat verildi ki, zavodda müxtəlif adlarda, geniş çeşiddə (NaCl 0,9 faiz; Ringer; Ringer laktat; Qlükoza və s.) və müxtəlif həcmlərdə (100 ml, 200 ml, 250 ml, 400 ml, 500 ml) həyati vacib və zəruri venadaxili dərman məhlulları istehsal olunacaq. Müəssisənin illik istehsal gücü 20 milyon litrdir. Qeyd olundu ki, ölkəmizin bu dərmanlara olan illik tələbatı isə təxminən, 15 milyon litrdir. Beləliklə, müəssisədə istehsal edilən məhsulların yerli bazarın tələbatını ödəməsi ilə yanaşı, Rusiya, Gürcüstan və Orta Asiya ölkələrinə ixracı da nəzərdə tutulur.

"Diamed" dərman zavodunda 100 iş yeri yaradılıb. Müəssisənin layihəsi İsveçrə şirkəti tərəfindən Qabaqcıl İstehsal Təcrübəsinə (GMP), istehsal xətti isə Avropa Farmakopeyasına uyğun olaraq hazırlanıb. Yüksək texnologiya və tam qapalı sistemlə təchiz edilmiş zavodun istehsal avadanlıqları İtaliya, ABŞ, Almaniya, İsrail kimi ölkələrdən alınıb. İstehsal olunan məhsullar zavoda məxsus müasir laboratoriyada Avropa Farmakopeyasının tələblərinə uyğun mütəmadi olaraq yoxlanılır.

***AZƏRTAC***

# Regiondakı vəziyyət müzakirə edilib

**Dünən Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov və Rusiya Federasiyasının xarici işlər naziri Sergey Lavrov arasında telefon danışığı olub.**




Telefon danışığı zamanı, Azərbaycan və Rusiya arasında mövcud əməkdaşlıq gündəliyi, Azərbaycan və Ermənistan arasında normallaşma prosesi, habelə regionda cari vəziyyət müzakirə edilib.

Nazir Ceyhun Bayramov Ermənistanın beynəlxalq hüquq normaları və prinsiplərinə zidd olaraq, Azərbaycana qarşı hərbi-siyasi təxribatlarını intensivləşdirməsinin iki ölkə arasında mövcud normallaşma prosesinə ciddi zərbə vurduğunu diqqətə çatdırıb. Bölgədə guya "gərgin humanitar vəziyyət", "blokada"nın mövcudluğu ilə bağlı manipulyasiyalarını davam etdirən Ermənistanın, erməni sakinlərin tələbatlarının ödənməsi üçün Laçın yolu və digər alternativ yollardan istifadə ilə bağlı məsələlərin həll olunması üçün əldə olunmuş razılaşmalara əməl etmək əvəzinə, sülh prosesinə maneçilik törətdiyi bildirilib.

Nazir Sergey Lavrov Azərbaycan, Rusiya və Ermənistan liderləri tərəfindən imzalanmış 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatla təsbit olunmuş öhdəliklərə sadiqliyin vacibliyini qeyd edib.

***Qəzənfər QASIMOV,***
***"Xalq qəzeti"***

# Dağıstan Respublikasının rəhbəri cənab Sergey Məlikova

**Hörmətli Sergey Alimoviç,**

Mahaçqalada yanacaqdoldurma stansiyasında baş vermiş partlayış nəticəsində həlak olanlar və yaralananlar barədə xəbər məni son dərəcədə kədərləndirdi.

Ağır itki ilə əlaqədar dərdinizi bölüşür, Sizə, həlak olanların doğmalarına və yaxınlarına, bütün Dağıstan xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm. Xəsarət alanlara şəfa diləyirəm.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı, 15 avqust 2023-cü il**

# Baş nazir Dağıstan Respublikasının rəhbərinə başsağlığı verib

**Avqustun 15-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Rusiya Federasiyasının Dağıstan Respublikasının rəhbəri Sergey Məlikova Mahaçqalada yanacaqdoldurma stansiyasında baş vermiş partlayış nəticəsində çoxsaylı insan tələfatı ilə əlaqədar başsağlığı verib.**

Bu barədə AZƏRTAC-a Nazirlər Kabinetinin mətbuat xidmətindən məlumat verilib.

Əli Əsədov Dağıstan Respublikasının rəhbərinə, həlak olanların doğmalarına və yaxınlarına dərin hüznlə başsağlığı verib, xəsarət alanlara şəfa diləyib.

# Milli Məclisin Sədrindən rusiyalı həmkarlarına başsağlığı

**Milli Məclisin Sədri Sahibə Qafarova Rusiya Federasiyasının Dağıstan Respublikasının Mahaçqala şəhərində yanacaqdoldurma məntəqəsində baş vermiş partlayış nəticəsində baş vermiş insan tələfatı ilə bağlı rusiyalı həmkarlarına başsağlığı verib.**

Milli Məclisin Sədri bununla bağlı Rusiya Federal Məclisinin Dövlət Dumasının sədri Vyaçeslav Volodinə, Federasiya Şurasının sədri Valentina Matviyenkoya və Dağıstan Xalq Məclisinin sədri Zaur Askenderova başsağlığı məktubu göndərib.

# MN: Avropa İttifaqının müşahidəçilərinə və avtomobilinə atəş açılmayıb

**Avqustun 15-də saat 12:20 radələrində Basarkeçər rayonunun Yuxarı Şorca yaşayış məntəqəsi ərazisində guya Avropa İttifaqının müşahidəçiləri və onların avtomobili istiqamətində Azərbaycan Ordusunun bölmələri tərəfindən atəş açılması barədə erməni informasiya resurslarında yayılan məlumat həqiqətə uyğun deyil, qarşı tərəfin növbəti dezinformasiyasıdır.**



Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, Avropa İttifaqının müşahidəçilərinin Ermənistanda şərti sərhəd istiqamətində səfərlərinin vaxtı, onların hərəkət marşrutu, ərazidəki koordinatları, eləcə də avtomobillərin markası və nömrə nişanları Azərbaycan tərəfinə əvvəlcədən təqdim edilir. Azərbaycan Ordusunun bölmələri missiyanın səfərləri barədə məlumatlıdır.

Bu səbəbdən də Ermənistan müdafiə nazirliyinin iddia etdiyi belə halın baş verməsi nəzəri və praktiki baxımdan qeyri-mümkündür.

# İspaniyanın Azərbaycandakı müvəqqəti işlər vəkili XİN-ə çağırıldı



**İspaniya Krallığının Xarici İşlər, Avropa İttifaqı və Əməkdaşlıq Nazirliyinin "X" sosial media platformasında Azərbaycan ərazilərində Ermənistanın işğalı nəticəsində yaradılmış qondarma separatçı rejimi dəstəkləyən təxribat xarakterli paylaşımı ilə əlaqədar, İspaniyanın Azərbaycandakı müvəqqəti işlər vəkili Patrisia Serrano Sançez Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə çağırılıb.**

Görüşdə Ermənistanın Azərbaycanın suveren ərazisində qurduğu qanunsuz separatçı rejimi təbliğ edən paylaşımının qəbuledilməz olduğu və öz ərazisində separatizmlə mübarizə aparan İspaniya kimi ölkə tərəfindən belə bir addımın atılmasının anlaşılmaz olduğu vurğulanıb. Bu qeyri-konstruktiv yanaşmanın Azərbaycan–İspaniya münasibətlərinin ruhuna uyğun gəlmədiyi və Azərbaycan tərəfindən qətiyyətlə pislənildiyi diqqətə çatdırılıb.

İspaniyanın müvəqqəti işlər vəkili ölkəsinin davamlı olaraq Azərbaycan Respublikasının suverenliyini və ərazi bütövlüyünü dəstəklədiyini və bu mövqedə heç bir dəyişikliyin baş vermədiyini bildirib. Sözügedən paylaşımın texniki nöqsan olduğunu deyən ispan diplomat bu səbəbdən də Azərbaycan tərəfinin narahatlığını ifadə etməsindən dərhal sonra həmin paylaşımın silindiyini diqqətə çatdırıb.

Azərbaycan tərəfi belə halların bir daha təkrarlanmaması üçün müvafiq tədbirlərin görülməsinin vacib olduğunu bildirib.

***"Xalq qəzeti"***

# BMT üçün ədalət sınağı

## Təhlükəsizlik Şurası erməni avantürizminə “yox!” deməlidir

**(əvvəli 1-ci səhifədə)**

44 günlük müharibədən sonra həm ölkəmizin dövlət qurumlarının nümayəndələrinin bölgədəki ekoloji durumu qiymətləndirmək istəklərinin qarşısının alınması, həm də digər çoxsaylı maneələr, indi isə Ağdam–Xankəndi yolunun kəsilməsi onu deməyə əsas verir ki, erməni separatizmi suveren haqlarımızın gerçəkləşməsinə maneçilik törədir. Bunu görməmək üçün yalnız kor olmaq lazımdır.

Təəssüf ki, dünyanın bəzi qütbləri, sözün əsl mənasında, kordurlar. Nəinki kordurlar, eyni zamanda, ikili standartlardan çıxış edərək, aşkar ermənipərəstliyə yuvarlanır, bununla da İrəvana ümid verirlər. Əslində, buna ümid demək doğru olmaz. Ermənistan illüziya bataqlığında boğulur, reallıq hissini itirir. Nəticədə, Cənubi Qafqazda sülhün yaranması uzanır.

Bəli, BMT Təhlükəsizlik Şurasında bu gün keçiriləcək müzakirə də mahiyyətcə erməni illüziyasını daha da dərinləşdirən addımdır. Ola bilər, hansısa qüvvələr elə məhz bunu hesablayırlar. Düşünürlər ki, İrəvan, məşhur Azərbaycan filmində deyildiyi kimi, barıtı çox eləsin və özünü yandırsın. Hər bir halda bildirməliyik ki, cəfəngiyyatın BMT kimi qurumun ali orqanına – Təhlükəsizlik Şurasına daşınması təşkilatın nüfuzu baxımından müsbət heç nə vəd etmir.

***

Ancaq bunu deməkdən keçib. Çünki BMT müasir dövrdə ən böyük rüsvayçılığını qurumun Təhlükəsizlik Şurasının 30 aprel 1993-cü il tarixli 822, 29 iyul 1993-cü il tarixli 853, 14 oktyabr 1993-cü il tarixli 874 və 12 noyabr 1993-cü il tarixli 884 saylı qətnamələri otuz ilə yaxın müddətdə icra olunmayanda yaşayıb. Yəni, erməni məsələsi ona bu qədər ağır zərbə vurub. İndi BMT-nin rəhbər şəxsləri yaxın tarixi yaddan çıxarırlarsa, deyiləcək heç nə yoxdur. Buyurub erməni avantürizminə istədikləri qədər qol-qanad verə bilərlər.

Fakt budur ki, hazırda Azərbaycan özünün Qarabağ üzərindəki suveren hüquqlarına sahib çıxa bilmir. Buna səbəb Ermənistan rəhbərliyinin qeyri-konstruktivliyi, reallıqları qəbul etməməsi, sülhdən yayınmasıdır. Bu yerdə Qarabağ ermənilərinin, guya, humanitar fəlakətlə üzləşmələri kimi siyasi motivlər uydurmadır. Əgər hansısa qurum, o cümlədən BMT-nin Təhlükəsizlik Şurası bununla bağlı fərqli mövqe tutacaqsa, ilk növbədə, beynəlxalq hüquq normalarına aşkar sayğısızlıq edəcək. Əlbəttə, güman edirik ki, bugünkü iclasda belə bir hal qeydə alınmayacaqdır.

***

Digər məqama diqqət yetirək. Məlum olduğu kimi, Ermənistan istər 44 günlük müharibə dönəmində, istərsə də ondan sonra özünün məkrli siyasətini beynəlxalq tribunlara daşımaq yolu tutmaqdadır. Ancaq heç vaxt istədiyi nəticəni əldə edə bilmir. Əlbəttə, bu, asan başa gələn proses deyil. Azərbaycan diplomatiyası mövcud istiqamətdə böyük əmək sərf edir. O da nəzərə alınmalıdır ki, yalnız haqlı olduğunu bilmək kifayət etmir, əsas məsələ haqqı müdafiə etməkdir.

***

Bilavasitə Ermənistanın iddialarının BMT-nin Təhlükəsizlik Şurasının müzakirəsinə çıxarılmasına gəlincə isə, onu deməliyik ki, İrəvan ötən il quruma iki dəfə üz tutmuşdu. Bunlardan biri sentyabrda, digəri isə dekabrda qeydə alınmışdı. Birincini fərqli edən ona “patronajlığın” Fransa tərəfindən gerçəkləşdirilməsi idi.

Beləliklə, sentyabrın 16-da baş tutmuş toplantıdakı mövzu Azərbaycan və Ermənistan sərhədində yaranan gərgin vəziyyət olmuşdu. İclasda müzakirələr açıq rejimdə aparılmış, Azərbaycanın BMT yanında daimi nümayəndəsi Yaşar Əliyevin və Ermənistanın BMT-dəki daimi nümayəndəsi Mher Marqaryanın çıxışları dinlənilmişdi. Daha sonra ayrı-ayrı ölkələrin təmsilçiləri öz fikirlərini diqqətə çatdırmış, mövqelərini açıqlamışdılar.

Həmin vaxt Fransanın və Hindistanın nümayəndəsi Ermənistana dəstək ifadə etmişdi. Çin, ABŞ, Rusiya, İrlandiya və sair ölkələri təmsilçiləri isə ümumi ifadələrlə kifayətlənmiş, Azərbaycanı və Ermənistanı gərginlik yaratmamağa, dialoqa səsləmişdilər. Müzakirələrdən sonra iclas başa çatmış, qətnamə qəbul olunmamış, sadəcə təklif və tövsiyə xarakterli mesajlar ön planda olmuşdu.

***

Ermənistanın iddiası ilə BMT-nin Təhlükəsizlik Şurasında ötən ilin dekabrın 20-də keçirilmiş Laçın yolundakı vəziyyətə dair müzakirə də sentyabrın 16-da gerçəkləşmiş müzakirənin təkrarı olmuşdu. Orada da ümumi fikirlər səslənmiş, Ermənistan gözlədiyi nəticəni əldə edə bilməmişdi.

Müzakirələr zamanı Azərbaycanın BMT-dəki daimi nümayəndəsi Yaşar Əliyev Laçın yolunun ölkəmiz tərəfindən bağlanması, erməni sakinlərinə qarşı "blokada" və "humanitar fəlakət" ilə bağlı Ermənistan tərəfinin iddialarını rədd etmişdi. İrəvanın mövcud müstəvidəki fiaskosunu şərtləndirən amillərdən biri də onun BMT strukturlarının Qarabağdakı vəziyyətlə yerində tanış olmaq üçün xüsusi missiya göndərməklə əlaqədar çağırışına əhəmiyyətsiz yanaşılması idi.

Bu yerdə həmin vaxt Azərbaycanın Xarici İşlər Nazirliyinin Mətbuat xidmətinin BMT Təhlükəsizlik Şurasında Laçın yolunda vəziyyətlə bağlı müzakirələrə dair şərhindən kiçik bir hissəni diqqətə çatdıraq: "Ermənistanın bu qurumdan Azərbaycana qarşı manipulyasiya kampaniyası məqsədilə istifadə etmək cəhdlərinə baxmayaraq, BMT Təhlükəsizlik Şurasındakı müzakirələr Azərbaycanın haqlı narahatlıqlarını, o cümlədən Ermənistanın 10 noyabr 2020-ci il tarixli Üçtərəfli Bəyanat çərçivəsində üzərinə götürdüyü öhdəliklərlə bağlı qəsdən, davamlı və düzəldilməyən pozuntularla əlaqədar məsələləri qaldırması, habelə bununla əlaqədar beynəlxalq ictimaiyyətin daha geniş məlumatlandırılması üçün növbəti platforma olub".

***

Bəli, ötənilki təcrübəni nəzərə alsaq, deyə bilərik ki, BMT-nin Təhlükəsizlik Şurasının Azərbaycan həqiqətlərinin bəyan edildiyi, Ermənistanın sülhdən yayınan, qeyri-konstruktuv mövqeyinin bir daha nümayiş olunacağı platforma kimi yadda qalacağına ümidlər böyükdür. Bu öz yerində.

Ümumən əsas olan isə BMT-nin ədalət sınağından necə çıxmasıdır. Nəzərə alsaq ki, qurum otuz ilə yaxın müddətdə özünün qətnamələrinin icrasına əhəmiyyətsiz yanaşaraq, faktiki olaraq ədalətsizliyə biganə qalıb, onun bundan sonrakı müddətdə Azərbaycan-Ermənistan münasibətlərinə prinsipial yanaşması, həqiqətləri və reallıqları əsas tutması şərtdir. BMT bu sayaq müzakirələrlə, necə deyərlər, erməni xəmirinin çox su aparmasına yol verməməlidir.

*Ə.CAHANGİROĞLU, “Xalq qəzeti”*



# İrəvanın heç bir şansı yoxdur

## Bu məsələdə yerli və xarici ekspertlərin fikirləri üst-üstə düşür

**Bu gün BMT Təhlükəsizlik Şurasında müzakirəyə çıxarılacaq məsələnin hansı sonluqla bitəcəyi, nə kimi qərarın veriləcəyi əvvəlcədən bəlli olmasa da, hadisələrin gedişi və xarakteri müəyyən qənaətlərə gəlməyə imkan verir. Deməli, Ermənistanın Azərbaycanın Qarabağ iqtisadi rayonunda yaşayan erməni azlığının, guya, “blokada” vəziyyətində qalması, rəsmi Bakının onları ətraf mühitdən təcrid etməsi, “humanitar böhran”la üz-üzə qoyması iddiasına BMT Təhlükəsizlik Şurasında baxılır.**

İrəvanın bu uğursuz cəhdi uzun müddətdir beynəlxalq ictimaiyyətə ötürdüyü dezinformasiyaya “söykənən” ideoloji təxribat mexanizminin tərkib hissəsidir. Nikol Paşinyan iqtidarının bu feyk-təbliğatı beynəlxalq hüquqi müstəviyə çıxarmaqda məqsədi Azərbaycanın Qarabağ iqtisadi rayonunda yaşayan ermənilərin cəmiyyətimizə reinteqrasiyasına mane olmaq, Xankəndidəki separatçı-xunta rejimini dəstəkləməklə “ömrünü uzatmaq”, onların bu prosesdən “qalib” tərəf kimi çıxmasını təmin etməkdir. Təbii ki, bu məqsədin altında İrəvanın Qarabağda girov saxladığı erməni azlığa özünün təsir və təzyiq inkanlarını artırmaq niyyəti də gizlənir.

Bəs, BMT TŞ-də qeyd etdiyimiz debat nə ilə nəticələnə bilər? Bu beynəlxalq tribunada ermənilərin uduşa nailolma ehtimalı nə qədərdir? Bununla bağlı həm yerli, həm də xarici siyasi ekspertlərin proqnoz-fikirlərini oxucularımızla bölüşürük.

* * *



**Azərbaycanın keçmiş Xarici işlər naziri Tofiq Zülfüqarovun** sözlərinə görə, Azərbaycanın əlində BMT TŞ-dakı diskussiyalarda istifadə edəcəyi dəmir-beton kimi möhkəm arqumenti var. Bu, humanitar yüklərin daşınması üçün Ağdam yolunun açıq olmasıdır: “Buna görə hesab edirəm ki, bu, bir növ ermənilərin açdığı boş atəşdir və müzakirələrdən sonra BMT TŞ sadəcə hər iki yoldan istifadə olunmasını tövsiyə edəcək… Ermənistan tərəfinin 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanata istinadən irəli sürdüyü “yoldan sərbəst və maneəsiz istifadə” arqumenti olduqca zəifdir. Onu da unutmayaq ki, həmin üçtərəfli sənəddə Laçın yoluna münasibətdə “yoldan sərbəst və maneəsiz istifadə” öhdəliyi nəzərdə tutulmayıb. Orada maneəsiz əlaqə yaratmaq öhdəliyi kimi yalnız Azərbaycanın qərb rayonlarını Naxşıvanla birləşdirən yol, yəni Zəngəzur dəhlizi göstərilir”. T.Zülfüqarov hesab edir ki, müzakirələrin sonunda BMT TŞ-nın sədrinin bəyanatından başqa heç nə qəbul edilməyəcək: “Burada isə tərəflərə mövqelərini yenidən korrektə etmək tapşırığı öz əksini tapa bilər”.

* * *

**Azərbaycanın Avropa Şurası Parlament Assambleyasında nümayəndə heyətinin başçısı, Milli Məclisin beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri, Azərbaycan–ABŞ parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Səməd Seyidov** qeyd edir ki, Ermə-



nistanın bu addımı onu təxribatçı siyasətinin növbəti elementidir və o, son vaxtlar bununla hədsiz dərəcədə qeyri-konstruktiv mövqe nümayiş etdirməkdədir: “Ağdam–Xankəndi yolu ilə bağlı əldə edilmiş qarşılıqlı razılaşmadan 24 saat sonra boyun qaçırması, ardınca BMT-yə müraciət etməsi bir daha onu göstərir ki, Ermənistandakı mövcud hakimiyyət Qarabağdakı yerli erməni əhalisini çoxdan girova çevirmiş separatçıların ideyalarından asılı vəziyyətə düşüb. Təəssüf ki, burada İrəvan iqtidarının revanşizmə meyillənməsi də öz rolunu oynayır və indiki mərhələdə bu “səddi” aşmaq onun üçün çətindir.

BMT TŞ-da nə baş verəcəyindən asılı olmayaraq, aşağıdakıları qeyd etmək istərdim: Birincisi, Azərbaycanın yaratdığı reallığı dəyişmək mümkün deyil; ikincisi, qəbul ediləcək istənilən sənəd – qətnamə, müraciət, qərardad, əgər bu gün regiondakı mövcud gerçəkliyə cavab verməyəcəksə, onu təsdiqləyəcək təşkilatın beynəlxalq qanun və prinsiplərinə zidd olacaq. Buna görə belə bir sənədin qəbulolunma perspektivinə heç inanmıram”.

* * *

**Beynəlxalq münasibətlər üzrə pakistanlı analitik Xalid Taymur Əkrəm** Laçın



yolundakı sərhəd-buraxılış məntəqəsi ətrafında yaranmış mövcud vəziyyəti şərh edərkən deyib ki, Azərbaycanın Laçın sərhəd nəzarət-buraxılış məntəqəsi vasitəsilə əvvəlcədən razılaşdırılmamış yüklərin, maşın karvanının keçməsinə icazə verməməsi bu ölkənin suveren hüququdur: “Azərbaycan Qarabağın erməni sakinlərinin humanitar yüklərlə təmin edilməsi üçün Ağdam-Xankəndi yolundan istifadə olunmasını təklif edib”.

“Azərbaycan dəfələrlə humanitar yüklərin daşınması üçün alternativ yoldan istifadə variantını təklif etsə də, Qarabağdakı separatçılar nümayişkaranə şəkildə bu yolu beton bloklarla bağlayıblar. Ermənistandan gələn istənilən yükün onun ərazisinə buraxılıb-buraxılmaması ilə bağlı qərarın verilməsi məhz Azərbaycanın suveren hüququdur. Yəni, başqa heç bir ölkənin onun daxili işlərinə qarışmaq hüququ yoxdur”.

* * *

**Müasir Dövlət İnkişafı İnstitutunun direktoru, politoloq Dmitri Solonnikov**



hesab edir ki, Qarabağdakı “humanitar böhran”la bağlı Ermənistanın müraciətinə baxacaq BMT Təhlükəsizlik Şurası ABŞ-ın sifarişini yerinə yetirir. Onun sözlərinə görə, bölgədə sülhün bərqərar olması Ermənistan baş naziri Nikol Paşinyanın maraqlarına uyğun deyil: “Paşinyan və BMT daxil olmaqla, dünyanın aparıcı siyasi təşkilatlarının əksəriyyəti ABŞ-ın siyasi xəttini dəstəkləyir. Azərbaycanla sərhədlərin müəyyən edilməsi ilə bağlı razılaşmanın əldə olunmasına dair cəhdlər Ermənistanın maraqlarına xidmət etsə də, Paşinyanın mövqeyi erməni sakinlərinin maraqları ilə üst-üstə düşmür. İkinci Qarabağ müharibəsindən sonra Ermənistan üçün imkanlar yaranmışdı. Buraya sülh sazişini imzalamaq, təcriddən çıxmaq və iqtisadiyyatı inkişaf etdirmək daxil idi. Bütün bunlar erməni xalqının maraqlarına cavab verirdi. Amma bunlar Ermənistan rəhbərliyinin maraqlarına uyğun deyil”.

Rusiyalı siyasi ekspert bu qənaətdədir ki, BMT Ermənistanın müraciətinə lazımi diqqət yetirməyəcək, amma qalmaqal yaradılacaq: “Təhlükəsizlik Şurasının azı iki daimi üzvü – ABŞ və Fransa bu məsələni fəal şəkildə modelləşdirəcək. Əlbəttə ki, Fransa müstəmləkəçi kimi qəbul olunduğu Şimali Afrikadakı problemlərini nəzərdən keçirməkdə maraqlı deyil. Buna görə də onlara “sülhməramlı” rolunu oynadıqları başqa bir vəziyyətə nəzər yetirmək daha çox sərf edir”.

* * *

**“Gənc Diplomatlar” Təşkilatının prezidenti, Meksika Konqresinin keçmiş texniki katibi, politoloq Maurisio Tafoya:**



– Erməni separatçıların məqsədi Bakı və İrəvan arasında danışıqları pozmaq və sülh sazişinin imzalanmasına əngəl törətməkdir. Onlar heç vaxt Azərbaycanla sülh sazişi əldə etməkdə maraqlı olmayıblar. Erməni separatçılar hər zaman danışıqlarda irəliləyiş olmamasının yolunu axtarır və elə buna görə də işləri Laçın sərhəd postunda olduğu kimi, təxribat törətməkdir. Bununla da ərzaq, təcili yardım xidmətlərinin əraziyə keçidini əngəlləmək istəyirlər. Bu isə açıq şəkildə onların beynəlxalq sərhəd qanunlarını pozduğunu göstərir. Azərbaycanın isə onların qanunsuz əməllərinin qarşısını almaq üçün Laçın yolunda post qurmağa tam haqqı çatır. Çünki Qarabağ Azərbaycanın suveren ərazisidir.

Bu gün İrəvanın niyyətinin media və bəzi insanları satın almaqla uydurduqları yalanı yaymaq və nəticədə Azərbaycanın real düşmən kimi davrandığını göstərmək olduğunu deyən meksikalı politoloq fikrini belə yekunlaşdırır: “Ermənistan Laçın yolu məsələsini BMT Təhlükəsizlik Şurasına çıxara bilər, lakin reallıq odur ki, əsassız versiyalar irəli sürürlər. Bu gün Azərbaycan sülh sazişi ilə bağlı danışıqlarda nəticə əldə etməkdə çox maraqlıdır, çünki Qafqaz regionunda sabitlik istəyir. Ancaq fikrimcə, erməni separatçı qruplar mövcud olduğu müddətdə sülh sazişinə nail olmaq mümkün deyil”.

***Hazırladı:* *İmran BƏDİRXANLI, “Xalq qəzeti”***

# “Humanitar karvan” təşkil olunmuş təxribatdır

**Laçın yoluna dirənmiş “humanitar yük”ün daşıyıcısı “Spayka” şirkətinin həqiqi sahibi Ermənistanın ən ruspərəst prezidenti Robert Köçəryanın oğlu Sedrak Köçəryan imiş.**

Dövlətin icazəsi olmadan onun ərazisinə humanitar yardım adı altında konvoy yeritmək cəhdi çağdaş tarixdə ilk hadisə deyil. 9 il qabaq – 2014-cü ildə eyni hoqqanı Rusiya Ukrayna sərhədində çıxarıb. O vaxt Kiyev Rusiyanın Ukraynaya silah-sursat və terrorçu keçirəcəyindən ehtiyatlandığına görə Moskvanın “humanitar yardım” adı verdiyi təşəbbüsü rədd edib.




Bəs onda Qərbin məsələyə münasibəti necə olub? ABŞ və Avropa İttifaqı birmənalı şəkildə Rusiyanın əməllərini qınayıb, Ukraynanın müdafiəsinə qalxıb.

Bolqarıstanın ingilisdilli “Sofia Globe” nəşri hazırda Ermənistanın humanitar yardım adı ilə bir yığın yük avtomobilini Azərbaycanın sərhədinə dirəməsinin də mahiyyətcə eyni hadisə olduğunu yazır. Əvvəla, nəşr bu hoqqanın da arxasında Rusiyanın dayandığına dair ehtimallar irəli sürür. Xatırladır ki, Ermənistanın Azərbaycanla sərhədə yığdığı yük avtomobilləri Rusiya ilə sıx əlaqələrə malik “Spayka” şirkətinə məxsusdur: “Bu şirkətin həqiqi sahibinin isə Ermənistanın ən ruspərəst prezidenti Robert Köçəryanın oğlu Sedrak Köçəryan olduğunu əminliklə deyənlər var.

…Köçəryanın “Spayka”sı qaçaqmalçılığı ilə məşhurdur. 2020-ci ilin Qarabağ müharibəsi zamanı “Spayka” Rusiyadan Ermənistana qanunsuz silah daşımaqla məşğul olub. 2020-ci il oktyabrın 10-da Gürcüstan–Ermənistan sərhədində “Spayka”nın silah dolu yük avtomobilləri saxlanmışdı”.

Rusiya sülhməramlı kontingentinin Qarabağdakı erməni quldur dəstələrini silahlandırdığı haqda məlumatları misal çəkən “Sofia Globe” nəşri bir daha vurğulayır ki, Ukraynanın şərqindəki separatizm nədirsə, Azərbaycanın Qarabağ bölgəsindəki separatizm də odur. Hər ikisi Rusiyanın xalqları əsarətdə saxlamaq cəhdinin nəticəsidir: “Yük avtomobilləri qalmaqalı da rus imperializminin bir təzahürüdür”.

Ancaq “Sofia Globe” bütün bunlara baxmayaraq, Qərbin Qarabağ ətrafındakı “humanitar yardım” oyununa fərqli münasibət sərgilədiyini, bəzi Qərb dövlətlərinin, xüsusilə Fransa və ABŞ-ın erməni diasporunun təsiri altında ruspərəst separatçıların tələblərini dəstəklədiyini qeyd edir.

“Sofia Globe” hesab edir ki, 2014-cü ildə Rusiya humanitar yardım bəhanəsi ilə Ukraynaya yük avtomobilləri göndərəndə Qərb məsələyə necə reaksiya vermişdisə, indi də elə reaksiya verməlidir: “2014-cü ilin avqustunda NATO-nun baş katibi Anders Foq Rasmussen belə demişdi: “Rusiya konvoyunun humanitar yardım adı altında Ukraynaya girməsini qınayıram. Bu, Rusiyanın beynəlxalq öhdəlikləri kobud surətdə pozmasıdır”.

“Rusiya hara, Ukraynaya yardım göstərmək hara?.. Bu səbəbdən gələcəkdə Rusiyanın Ukrayna ərazisinə birtərəfli qaydada istənilən müdaxiləsi, o cümlədən humanitar yardım adı altında müdaxiləsi yolverilməzdir” – bu da 2014-cü ilin avqustunda deyilmiş fikirdir. Müəllifi o vaxt ABŞ-ın BMT-də daimi nümayəndəsi olmuş Samanta Pauerdir.

“Rusiyadan Ukraynaya yük avtomobillərinin göndərilməsi açıq-aşkar Ukrayna sərhədlərinin pozulmasıdır”. Avropa Komissiyasının rəsmisi Sebastyan Brabantın sözüdür.

“Sofia Globe” o vaxt ABŞ Prezidenti Barak Obama ilə Almaniya Kansleri Angela Merkel arasında telefon danışığına dair press-relizdən də iqtibas gətirir: “İki lider razılığa gəldi ki, Ukrayna icazə vermədiyi halda Rusiyanın bu ölkəyə konvoy göndərməsi növbəti təxribat, suverenliyə və ərazi bötövlüyünə qəsddir”.

*“Xalq qəzeti”*

# “Dərman vasitələri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 979-VIQD nömrəli Qanununun tətbiqi və “Dərman vasitələri haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 fevral tarixli 528 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Dərman vasitələri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 979-VIQD nömrəli Qanununun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Müəyyən edilsin ki:

1.1. “Dərman vasitələri haqqında” Azərbaycan Respublikası Qanununun 1.0.8-ci, 1.0.23-cü, 1.0.33-cü, 1.0.37-ci, 1.0.42-ci, 4.3-1-ci maddələrində, 6.1-ci maddəsinin ikinci abzasının birinci və ikinci (hər iki halda) cümlələrində, 6.8-ci maddəsinin birinci və ikinci cümlələrində, 7.2-ci maddəsində, 9.6-cı maddəsinin birinci cümləsində, 9-1.3-cü, 9-1.15-ci, 9-1.18-ci, 12-1.2-ci maddələrində, 12-1.5-ci maddəsinin ikinci cümləsində, 12-1.6-cı, 12-1.7-ci maddələrində, 13.2-1-ci maddəsinin birinci cümləsində, 16.4-cü və 16.6-cı (hər iki halda) maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 1.0.33-cü maddəsində və 6.8-ci maddəsinin birinci cümləsində nəzərdə tutulmuş orqanın (qurumun) səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

1.3. həmin Qanunun 16.6-cı maddəsində (birinci halda) “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

1.4. həmin Qanunun 1.0.8-ci, 1.0.23-cü, 1.0.37-ci, 1.0.42-ci, 4.3-1-ci maddələrində, 6.1-ci maddəsinin ikinci abzasının birinci və ikinci (hər iki halda) cümlələrində, 6.8-ci maddəsinin ikinci cümləsində, 7.2-ci, 9-1.3-cü, 9-1.15-ci, 12-1.2-ci maddələrində, 12-1.5-ci maddəsinin ikinci cümləsində, 12-1.6-cı, 12-1.7-ci maddələrində, 13.2-1-ci maddəsinin birinci cümləsində və 16.6-cı maddəsində (ikinci halda) “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi nəzərdə tutulur;

1.5. həmin Qanunun 9.6-cı maddəsinin birinci cümləsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi və Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi nəzərdə tutulur;

1.6. həmin Qanunun 9-1.18-ci maddəsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi nəzərdə tutulur;

1.7. həmin Qanunun 16.4-cü maddəsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası nəzərdə tutulur.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Dərman vasitələri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 979-VIQD nömrəli Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. dörd ay müddətində:

2.2.1. həmin Qanunun 1.0.33-cü maddəsinə uyğun olaraq, dərman vasitəsinin xarici (beynəlxalq) qeydiyyatının tanınması şamil olunan ölkələrin və xarici (beynəlxalq) təşkilatların siyahısını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

2.2.2. həmin Qanunun 1.0.35-ci maddəsinə uyğun olaraq, “Dərman vasitələrinin təqib və izləmə sistemi”nin Əsasnaməsini Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

2.2.3. həmin Qanunun 6.8-ci maddəsinin birinci cümləsinə uyğun olaraq, bu Qanunun 1.0.8-ci maddəsi, 6.1-ci maddəsinin ikinci abzası, 6.13-cü, 6-1.2-ci, 6-2.15-ci, 6-2.17-ci və 6-2.19-cu maddələri nəzərə alınmaqla dərman vasitələrinin, dərman maddələrinin və tibb vasitələrinin dövlət qeydiyyatına alınması, dövlət reyestrinə daxil edilməsi və dövlət reyestrinin aparılması qaydalarını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

2.2.4. həmin Qanunun 16.6-cı maddəsinə uyğun olaraq, Azərbaycan Respublikasında istehsal olunan dərman vasitələrinin istehsalçıları tərəfindən təqdim edilən məlumatların dairəsini müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. bu Fərmanın 3.2-ci bəndinə əsasən yaradılacaq “Dərman vasitələrinin təqib və izləmə sistemi”nin formalaşdırılması, aparılması və saxlanılması ilə əlaqədar xərclərin cari ildə dövlət büdcəsində nəzərdə tutulmuş vəsait çərçivəsində maliyyələşdirilməsi üçün, növbəti illərdə isə dövlət büdcəsi layihələrində müvafiq vəsaitin nəzərdə tutulması üçün tədbirlər görsün;

2.4. “Dərman vasitələri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 979-VIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

**3.** Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi:

3.1. aşağıdakı normativ hüquqi aktları üç ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.1.1. “Dərman vasitələri haqqında” Azərbaycan Respublikası Qanununun 1.0.8-ci maddəsinə uyğun olaraq, risk dərəcəsi daha yüksək, yüksək və (və ya) orta olan tibb vasitələrinin siyahısını;

3.1.2. həmin Qanunun 4.2.16-cı maddəsinə uyğun olaraq, Etibarlı İstehsalat Təcrübəsinə dair tələbləri;

3.1.3. həmin Qanunun 6.8-ci maddəsinin ikinci cümləsinə uyğun olaraq, tibb vasitələrinin risk dərəcəsindən asılı olaraq təsnifatını;

3.1.4. həmin Qanunun 9-1.15-ci maddəsinə uyğun olaraq, dərman vasitələrinin və dərman maddələrinin idxalına icazənin formasını;

3.1.5. həmin Qanunun 13.2-1-ci maddəsinin birinci cümləsinə uyğun olaraq, Azərbaycan Respublikasında istehsal olunan dərman vasitələrinin siyahısını;

3.2. həmin Qanunun 1.0.35-ci maddəsinə uyğun olaraq, Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları” nəzərə alınmaqla, “Dərman vasitələrinin təqib və izləmə sistemi”nin yaradılmasını 2024-cü il yanvarın 1-dək təmin etsin və həmin informasiya sisteminin Elektron Hökumət İnformasiya Sisteminə inteqrasiyası üçün Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə birlikdə zəruri tədbirlər görsün;

3.3. həmin Qanunun 1.0.42-ci və 4.2.15-ci maddələrinə uyğun olaraq, klinik protokolların hazırlanmasını, onların elektron bazasının yaradılmasını və özünün rəsmi internet səhifəsində yerləşdirilməsini, habelə təşkilati-hüquqi və mülkiyyət formasından asılı olmayaraq bütün tibb müəssisələrinin, həmçinin özəl tibb fəaliyyəti ilə məşğul olan resept yazmaq hüququna malik tibb işçilərinin (həkim və tibb məntəqələrinin feldşerləri) həmin elektron bazaya çıxışını dörd ay müddətində təmin etsin;

3.4. həmin Qanunun 12-1-ci maddəsində nəzərdə tutulmuş reseptin formasını, habelə dərman vasitələrinə reseptlərin elektron formada yazılmasına imkan verən sistemin tətbiqini, təşkilati-hüquqi və mülkiyyət formasından asılı olmayaraq bütün tibb müəssisələrinin, həmçinin özəl tibb fəaliyyəti ilə məşğul olan resept yazmaq hüququna malik tibb işçilərinin (həkim və tibb məntəqələrinin feldşerləri) həmin sistemə qoşulmasını 2024-cü il yanvarın 1-dən təmin etsin;

3.5. “Dərman vasitələri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 979-VIQD nömrəli Qanunundan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

**4.** Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası “Dərman vasitələri haqqında” Azərbaycan Respublikası Qanununun 4.5-ci maddəsində nəzərdə tutulmuş dərman vasitələrinin sadələşdirilmiş ekspertizası xidmətlərinin tariflərini, o cümlədən dərman vasitələrinin topdan və pərakəndə satış qiymətlərinin yuxarı həddini bir ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

**5.** “Dərman vasitələri haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 fevral tarixli 528 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 2, maddə 94, № 11, maddə 1111; 2009, № 4, maddə 226, № 6, maddə 417; 2014, № 10, maddə 1199; 2015, № 3, maddə 273, № 9, maddə 991; 2016, № 12, maddə 2065; 2017, № 5, maddə 830; 2018, № 10, maddə 2016; 2019, № 5, maddə 840; 2022, № 12, maddə 1437) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

5.1. 2.1-ci bənd 2.1-2-ci bənd hesab edilsin, həmin bənddə “Dərman vasitələri haqqında” Azərbaycan Respublikası Qanununun” sözləri “həmin Qanunun” sözləri ilə, üçüncü halda “ikinci” sözü “üçüncü” sözü ilə əvəz olunsun və həmin bənddən “6.1-ci maddəsinin ikinci abzasında (birinci halda), 6.1-2-ci, 6.8-ci” sözləri çıxarılsın;

5.2. aşağıdakı məzmunda 2.1-ci, 2.1-1-ci, 2.1-3-cü və 2.1-4-cü bəndlər əlavə edilsin:

“2.1. “Dərman vasitələri haqqında” Azərbaycan Respublikası Qanununun 1.0.8-ci, 1.0.23-cü, 1.0.33-cü, 1.0.37-ci, 1.0.42-ci, 4.3-1-ci maddələrində, 6.1-ci maddəsinin ikinci abzasının birinci və ikinci (hər iki halda) cümlələrində, 6.8-ci maddəsinin birinci və ikinci cümlələrində, 7.2-ci maddəsində, 9.6-cı maddəsinin birinci cümləsində, 9-1.3-cü, 9-1.15-ci, 9-1.18-ci, 12-1.2-ci maddələrində, 12-1.5-ci maddəsinin ikinci cümləsində, 12-1.6-cı, 12-1.7-ci maddələrində, 13.2-1-ci maddəsinin birinci cümləsində, 16.4-cü və 16.6-cı (hər iki halda) maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

2.1-1. həmin Qanunun 6-1.2-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;”;

“2.1-3. həmin Qanunun 1.0.33-cü maddəsində və 6.8-ci maddəsinin birinci cümləsində nəzərdə tutulmuş orqanın (qurumun) səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

2.1-4. həmin Qanunun 16.6-cı maddəsində (birinci halda) “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;”;

5.3. 2.2-ci bənddən “6.1-ci,” sözləri çıxarılsın;

5.4. 2.3-1-ci bənddə “4.3-1-ci maddələrində, 6.1-ci maddəsinin ikinci abzasında (ikinci halda), 6.1-1-ci, 6.1-3-cü” sözləri “6-1.1-ci maddəsinin birinci cümləsində, 6-1.3-cü” sözləri ilə əvəz olunsun və həmin bəndə “14-1.6-cı” sözlərindən sonra “maddəsinin birinci cümləsində,” sözləri əlavə edilsin;

5.5. aşağıdakı məzmunda 2.3-2-ci və 2.3-3-cü bəndlər əlavə edilsin:

“2.3-2. həmin Qanunun 1.0.8-ci, 1.0.23-cü, 1.0.37-ci, 1.0.42-ci, 4.3-1-ci maddələrində, 6.1-ci maddəsinin ikinci abzasının birinci və ikinci (hər iki halda) cümlələrində, 6.8-ci maddəsinin ikinci cümləsində, 7.2-ci, 9-1.3-cü, 9-1.15-ci, 12-1.2-ci maddələrində,12-1.5-ci maddəsinin ikinci cümləsində,12-1.6-cı, 12-1.7-ci maddələrində, 13.2-1-ci maddəsinin birinci cümləsində və 16.6-cı maddəsində (ikinci halda) “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi nəzərdə tutulur;

2.3-3. həmin Qanunun 9.6-cı maddəsinin birinci cümləsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi və Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi nəzərdə tutulur;”;

5.6. 2.4-cü bənddə “və 16.4-cü maddələrində” sözləri “maddəsində” sözü ilə əvəz edilsin;

5.7. aşağıdakı məzmunda 2.4-1-ci bənd əlavə edilsin:

“2.4-1. həmin Qanunun 16.4-cü maddəsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası nəzərdə tutulur;”;

5.8. 2.5-ci bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 2.5-1-ci bənd əlavə edilsin:

“2.5-1. həmin Qanunun 9-1.18-ci maddəsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi nəzərdə tutulur.”.

**6.** Bu Fərmanın 1.4-cü və 2.3-2-ci bəndləri (“Dərman vasitələri haqqında” Azərbaycan Respublikası Qanununun 12-1.2-ci maddəsinə, 12-1.5-ci maddəsinin ikinci cümləsinə, 12-1.6-cı və 12-1.7-ci maddələrinə münasibətdə) 2024-cü il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 15 avqust 2023-cü il**

ERMƏNİ CİNAYƏTLƏRİ

# Şuşa həbsxanasında kütləvi məzarlıq



**Şuşa şəhərində növbəti kütləvi məzarlıq aşkarlanıb. Müvafiq qurumların, o cümlədən Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının əməkdaşları həmin ərazidə zəruri təhqiqat aparıblar.**

Son 2 həftədə aparılan qazıntı işləri nəticəsində Şuşa həbsxanası ərazisində 17 şəxsə aid ehtimal edilən insan qalıqları aşkar olunub. 1993–1995-ci illərdə Şuşa həbsxanasında ermənilərin işgəncələrinə məruz qalmış Həbib Kazımov bildirib ki, Şuşa şəhərindəki həbsxanada aşkar edilən kütləvi məzarlıqdakı skeletlər işgəncələrlə öldürülən əsirlərə aiddir:

– O zaman əsirləri aparır və geri gətirmirdilər. İndi bilirik ki, həmin əsirləri öldürüb buradakı məzarlıqda basdırıblar. Əsirlərə çox əzablar verirdilər. Bizi dəmirlə, odunla döyürdülər. Şəxsən məni də dəfələrlə döyərək koma vəziyyətinə salıblar. Öldürdükləri əsirləri donuzlara yedirdirdilər. Bir dəfə əsirlərdən birini asmışdılar. Donuzlar onun cəsədini ağızları çatan yerə qədər yemişdilər. Əsirlərin üzərinə it salırdılar.

Başı müsibətlər çəkmiş soydaşımız 1993-cü il avqustun 31-də Qubadlı rayonu Ermənistan silahlı bölmələri tərəfindən işğal olunan zaman başından yaralanaraq huşsuz halda əsir düşüb. Şuşa həbsxanasına gətirilən Həbib burada olmazın işgəncələrin, qeyri-insani davranışların şahidi olub: “Əsirlikdə olduğum müddətdə olmazın işgəncələr görmüşəm. Hər bir vəhşiliyin şahidi olmuşam. 30 il keçməsinə baxmayaraq, əsirlikdəki əzabları, işgəncələri unuda bilmirəm”.

Türkiyə Respublikasından gəlmiş bir qrup media nümayəndəsi Şuşa şəhərində olublar. Onlar erməni hərbçilərinin Birinci Qarabağ müharibəsində Şuşa şəhərindəki həbsxanada azərbaycanlıları kütləvi basdırdıqları məzarlığa baş çəkiblər.

Xatırladaq ki, bu ilin iyununda da Şuşa həbsxanasının ərazisində kütləvi məzarlıq aşkarlanmışdı. İşğaldan azad edilən ərazilərdə indiyədək Ağdam rayonunun Sarıcalı, Şuşa rayonunun Daşaltı, Xocavənd rayonunun Edilli, Xocalı rayonunun Fərrux, Füzuli rayonunun Yuxarı Seyidəhmədli, Kəlbəcərin Başlıbel kəndlərində və digər yaşayış məntəqələrində kütləvi məzarlıqlar aşkar edilib.

***“Xalq qəzeti”***

# Ombudsmanın Şuşada növbəti kütləvi məzarlıqla bağlı açıqlaması

**Azərbaycanın İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyeva Şuşada növbəti kütləvi məzarlığın aşkarlanması ilə bağlı açıqlamasında bildirib:**

– Azərbaycanın işğaldan azad edilmiş Şuşa şəhərində bu gün növbəti dəfə kütləvi məzarlıq aşkarlanıb. Aparılan qazıntı işləri nəticəsində 17 şəxsə aid edilən sümüklər üzə çıxıb, onlardan 11-i bütöv, 6-sı isə skeletin hissələri şəklində tapılıb.

Şuşa həbsxanası ərazisindəki çirkab quyusunda aşkarlanmış kütləvi məzarlıqla bağlı dəhşətli faktlardan biri də 6 nəfərin qalıqlarının qarın nahiyəsində mismarların aşkarlanmasıdır ki, bu da həmin şəxslərə bu üsulla işgəncə verildiyini göstərir. Eyni zamanda, qalıqlara keçirilən ilkin baxış zamanı həmin şəxslərin bədənləri üzərində güllələnmə izlərinin olduğu, müxtəlif küt zərbələr endirildiyi, kəsici-deşici alətlərdən istifadə edildiyi, habelə başlarının bədəndən ayrı olaraq dəfn edildiyi məlum olub.

Açıqlamanın davamında bildirilir ki, Ermənistan tərəfindən işğal dövründə Şuşa həbsxanası ərazisində azərbaycanlı əsir və girovların saxlanılması, onlara işgəncələr verilməsi, qeyri-insani rəftara məruz qalmaları müxtəlif şahid ifadələri ilə də təsdiqlənib: “Ümumilikdə, azad edilmiş ərazilərimizdə bu günədək çoxsaylı kütləvi məzarlıqlar üzə çıxıb, 500-ə yaxın insan qalıqları tapılıb. Ermənistan tərəfi isə kütləvi dəfn yerləri barədə məlumatları təqdim etməkdən boyun qaçırır. Buna baxmayaraq, hazırda aidiyyəti qurumlar tərəfindən Birinci Qarabağ müharibəsi zamanı itkin düşmüş 4 minə yaxın azərbaycanlının taleyinə aydınlıq gətirilməsi məqsədilə növbəti kütləvi dəfn yerlərinin aşkarlanması və müvafiq ekspertizaların aparılması istiqamətində işlər davam etdirilir”.

***“Xalq qəzeti”***

# IV Yay Düşərgəsində diplomatiya mövzusunda panellər



**Naxçıvanda keçirilən “Heydər Əliyev – 100” Diaspor Gənclərinin IV Yay Düşərgəsində müzakirələr dünən “Xalq diplomatiyası” mövzusunda panellə davam edib.**

ADA Universitetinin kommunikasiya və rəqəmsal media proqramının rəhbəri Şəfəq Mehrəliyeva düşərgə iştirakçılarına dövlətlərarası münasibətlərin inkişafında və münaqişələrin həllində xalq diplomatiyasının rolundan danışıb. Sonda iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

Düşərgədə növbəti panel “Müstəqillik dövründə Azərbaycanın xarici siyasət prioritetləri” mövzusuna həsr olunub.

Diasporla İş üzrə Dövlət Komitəsinin sədr müavini Elşad Əliyevin moderatorluğu ilə keçirilən müzakirədə Azərbaycanın sabiq xarici işlər naziri, ölkəmizin Bosniya və Herseqovinadakı səfiri Vilayət Quliyev “Heydər Əliyevin mədəniyyət diplomatiyası”, Azərbaycanın Avropa Şurası yanında daimi nümayəndəsi Fəxrəddin İsmayılov “Azərbaycanın Avropa Şurasına üzvlüyü ulu öndər Heydər Əliyevin siyasi mirasıdır” və Xarici İşlər Nazirliyinin linqvistik təminat idarəsinin rəisi Rizvan Nəbiyev “Postmünaqişə dövründə yeni geosiyasi reallıqlar” mövzularında çıxış ediblər.

Debat şəklində davam edən panel zamanı düşərgə iştirakçıları xarici siyasət və geopolitika ilə bağlı onları maraqlandıran məsələlərə peşəkar diplomatların münasibətini öyrəniblər.

***

Diaspor gəncləri Ermənistanın mina xəritələrini və Birinci Qarabağ müharibəsi zamanı itkin düşmüş azərbaycanlılar haqqında informasiyaları Azərbaycana təqdim etməməsinə, 30 il ərzində işğal altında saxladığı Azərbaycan torpaqlarında törətdiyi ekoloji terrora etirazlarını bildiriblər.

Düşərgə iştirakçıları bununla bağlı BMT-yə, Avropa Şurasına, Avropa İttifaqına, beynəlxalq təşkilatlara, xarici ölkələrin parlamentlərinə, dövlət və hökumət başçılarına yüzlərlə məktub göndəriblər.

***S.HƏSƏNOV,***
***“Xalq qəzeti”***

***Naxçıvan***

# Azərbaycan və Gürcüstan strateji tərəfdaşdır

## Heydər Əliyev iki xalqın dostluğuna böyük əhəmiyyət verirdi

**Azərbaycan 1991-ci ilin oktyabr ayında dövlət müstəqilliyini bərpa etsə də, bu, əslində, 1993-cü ilin ortalarına qədər formal xarakter daşıyıb. Çünki həmin dövrdəki Azərbaycan rəhbərliklərinin xarici siyasət, müdafiə qabiliyyəti və iqtisadi islahatlar kimi sahələrdə diletant idarəçiliyi və bacarıqsızlığı cəmiyyətdə siyasi qarşıdurmanın kəskinləşməsini son həddə çatdırdı, daxili çəkişmələr və separatçı meyillərin güclənməsi üçün zəmin yaratdı. Ölkəmiz xarici aləmdən tədric olunmuş, beynəlxalq mövqeyi zəif olan dövlətə çevrildi. Belə bir şəraitdə hər hansı uzunmüddətli məqsədlərə nail olmaq naminə millətin sıx birləşməsindən söhbət gedə bilməzdi. Ölkə rəhbərliyinin özü də həmin məqsədlərin nədən ibarət olduğunu aydın dərk edə bilmirdi. Uğursuz siyasət nəticəsində iqtisadiyyat çökmüş, dövlət qurumları, ictimai təsisatlar tənəzzülə uğramış, respublika idarəetmə qabiliyyətini itirmişdi.**



Azərbaycanı bu çətin vəziyyətdən ümummilli lider Heydər Əliyev xilas etdi. O, 1993-cü ilin ortalarında hakimiyyətə qayıtdıqdan sonra müstəqil Azərbaycan Respublikasının hüquqi və siyasi-iqtisadi suverenliyinin təmin olunması prosesi sürətləndi, beynəlxalq normalara və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı. Mənəvi dəyərlərimizin qorunmasına, cəmiyyətin bütün potensialının milli maraqlar kontekstində səfərbər edilməsinə, ictimai-siyasi sabitlik faktoruna istinad edən yeni iqtisadi inkişaf strategiyası hazırlandı. Azərbaycanın dövlət siyasəti güclü iqtisadiyyata söykənən müstəqil və qüdrətli dövlətçiliyin təmin edilməsinə, geniş sosial zəminə arxalanan, fəal və aydın sosial siyasət yeridən unitar, demokratik dövlət qurulmasına, onun xarici siyasi aləmdə təcrid olunmuş vəziyyətdən çıxarılmasına, mövqeyinin möhkəmləndirilməsinə yönəldildi.

Xarici siyasətinin əsasında, ilk növbədə, milli müstəqilliyin möhkəmləndirilməsi, dövlətlərin ərazi bütövlüyünə hörmət, qarşılıqlı surətdə faydalı iqtisadi, elmi və mədəni əməkdaşlığın yaradılması kimi prinsiplər dayanırdı. Bu prinsiplərə uyğun olaraq, dünya dövlətləri, o cümlədən Gürcüstanla əlaqələr genişləndi. Gürcüstanın Azərbaycanın müstəqilliyini ilk tanıyan dövlətlərdən biri olması ölkələrimiz arasında əlaqələrin inkişafına ciddi təkan verdi. Qonşu dövlətlər arasında diplomatik əlaqələr 1992-ci il noyabrın 18-də yaradılsa da, ilk dövrlərdə ölkələrimizin münasibətlərində bir sərinlik var idi. Bu dövr 1991-ci ildən 1993-cü ilə qədər olan müddəti əhatə edirdi. Z.Qamsaxurdiya dövründə yaranan gürcü millətçiliyi digər millətlərə qarşı ayrı-seçkiliyi gücləndirmişdi. O zaman azərbaycanlıların durumu çox ağır idi, yaranan qeyri-müəyyənlikdə insanların çoxu köç etmək məcburiyyətində qaldı. Belə bir dönəmdə Azərbaycanda Heydər Əliyevin, Gürcüstanda isə Eduard Şevardnadzenin hakimiyyətə gəlməsi Cənubi Qafqazda ziddiyyətlərin aradan qalxmasına kömək etdi. Müstəqillik illərində onlar öz şəxsi dostluqlarını Azərbaycan–Gürcüstan dostluğuna çevirdilər.

Bundan başqa, hər iki ölkədə gedən proseslər, müstəqilliyin ilk illərində ərazi bütövlüyünün pozulması, separatizm halları, daxili və xarici vəziyyətin oxşarlığı, geosiyasi maraqların üst-üstə düşməsi və digər amillər dövlətlərimiz arasında əməkdaşlıq münasibətlərinin yaranmasına gətirib çıxardı. Bu, Azərbaycan və Gürcüstan dövlətləri arasında siyasi, iqtisadi, mədəni və digər əlaqələrin daha da inkişaf etdirilməsinə səbəb oldu. 1995-ci ilin fevral ayında Bakıda Gürcüstan səfirliyinin,1996-cı ilin mart ayında isə Tbilisidə Azərbaycan səfirliyinin açılışı ikitərəfli əlaqələrin inkişafına əlavə stimul verdi. İstər regional, istərsə də qlobal məsələlərdə hər iki dövlət həmişə eyni mövqedən çıxış etdi.

Prezident Heydər Əliyevin 1996-cı ildə Tbilisiyə rəsmi səfəri isə iki tərəf arasında əlaqələrə yeni rəng qatdı. Həmin səfər zamanı tərəflər “Dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik” və “Qafqaz regionunda sülh, təhlükəsizlik və əməkdaşlıq” haqqında birgə bəyannamələr imzaladılar. Bu barədə Heydər Əliyev deyirdi: “Qafqaz qeyri-sabitlikdən, münaqişələrdən, bir çox millətlərarası toqquşmalardan və proseslərdən əziyyət çəkir. Ona görə də hər birimizin, xüsusən də Gürcüstan və Azərbaycan dövlət başçılarının vəzifəsi Qafqazda sülhə, təhlükəsizliyə, əməkdaşlığa yol açmaqdır”.

Hər iki xalqın qarşılıqlı təhlükəsizliyi, sabitliyi, ərazi bütövlüyü, inkişaf və rifahı bu əməkdaşlığın əsas məqsədi idi. 1997-ci ilin fevralında Prezident Eduard Şevardnadzenin Bakıya səfəri zamanı iki ölkə arasında strateji əməkdaşlığın inkişafına dair yeni bir sənədə imza atılması isə ekoloji, təhsil, rabitə və s. sahələr üzrə əməkdaşlığı genişləndirdi. Ölkələrimiz arasında ədəbi-mədəni əlaqələrdə canlanma yarandı.

Hər iki liderin rəhbərliyi ilə ölkələrimiz arasında xarici siyasət məsələləri ilə bağlı daim müxtəlif səviyyələrdə məsləhətləşmələr aparıldı və bu çox uğurlu təşəbbüs idi. BMT, Avropa Şurası, GUAM, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı və digər qurumlar daxilində Azərbaycan və Gürcüstan bir-birinə dəstək verdi. Məhz bunun nəticəsidir ki, beynəlxalq təşkilatlarda Gürcüstanın ərazi bütövlüyü məsələsində rəsmi Bakı birmənalı şəkildə Tbilisinin mövqeyini dəstəklədi. Qeyd edək ki, Gürcüstanın ərazi bütövlüyü Azərbaycan qədər heç bir ölkə tərəfindən dəstəklənməyib.



Gürcüstan da Azərbaycana qarşı eyni addımı atdı. Dağlıq Qarabağ münaqişəsinin həlli Heydər Əliyevin xarici siyasətində çox önəmli yer tuturdu. Bu baxımdan ümummilli liderin rəhbərliyi ilə respublikamız iştirakçısı olduğu bütün çoxtərəfli və ikitərəfli platformalardan Qarabağla bağlı haqlı mövqeyni dünyaya çatdırdı. BMT, İƏT, AŞPA, Aİ, NATO və digər mötəbər qurumlarda Azərbaycanın ərazi bütövlüyünün toxunulmazlığını dəstəkləyən qətnamələr, bəyannamələr qəbul olundu, mövqe ortaya qoyuldu. Xüsusilə qeyd etməliyik ki, Gürcüstan hər zaman bu istiqamətdə Azərbaycanı dəstəklədi. Bunlar ölkələrimiz arasındakı əlaqələrə müsbət təsir göstərdi, regionda təhlükəsizlik, sabitlik və əmin-amanlıq yaratmaqla yanaşı, onların dünyada mövqeyini möhkəmləndirdi, iqtisadi inkişafa da təkan verdi.

### İqtisadi əməkdaşlığın uğurlu nəticələri

Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən neft strategiyası ölkələrimizin həyatında iqtisadi uğurların əsasını qoydu. Bu strategiya özündə xarici kapitalın və təcrübənin cəlb edilməsi, çoxvariantlı nəqliyyat sisteminin yaradılması, gəlirlərin toplanması və səmərəli idarə edilməsini birləşdirirdi. 1994-cü il sentyabrın 20-də dünyanın tanınmış neft şirkətləri ilə Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında saziş (“Əsrin müqaviləsi”) imzalandı. Bu müqavilənin imzalanmasından sonra Azərbaycan öz enerji təhlükəsizliyini təmin edərək, sonradan Gürcüstan və Avropanın enerji təhlükəsizliyində etibarlı tərəfdaş kimi çıxış etməyə başladı.

Əvvəlcə Azərbaycan nefti xarici bazara yalnız Bakı–Novorossiysk neft kəmərləri ilə çıxarıldı. Sonradan Bakı–Supsa kəməri gündəmə gəldi. Bunun da səbəbləri vardı. İstisna edilmirdi ki, gələcəkdə Rusiya Bakı–Novorossiysk kəmərindən Azərbaycana təzyiq kimi istifadə edə bilərdi. İkincisi, Şimali Qafqazda gərginlik vardı, döyüşlər gedirdi. Üçüncü tərəfdən, Şimal marşrutu ilə Azərbaycan neftinin nəqli zamanı ona daha keyfiyyətsiz Rusiya nefti qarışırdı.

Neft marşrutlarının alternativliyi Azərbaycanın hər hansı bir dövlətdən iqtisadi asılılığına son qoymaqla yanaşı, ölkəmizin milli mənafeyinə cavab verirdi. Bütün bu amilləri nəzərə alan ümummilli lider Heydər Əliyev davamlı təzyiqlərə baxmayaraq, müdrik və uzaqgörən qərar qəbul etdi.

1996-cı il martın 8-də Azərbaycan Prezidenti Heydər Əliyev və Gürcüstan Prezidenti Eduard Şevardnadze Tbilisidə Bakı-Supsa neft kəmərinin çəkilməsi barədə razılığa gəldilər. Bu barədə Ümummilli lider deyirdi: “1997-ci ilin noyabrında biz "Çıraq" yatağından ilk nefti çıxardıq və onu Bakı–Novorossiysk neft kəməri ilə nəql etməyə başladıq. Bu neft kəməri Rusiya Federasiyası ilə Azərbaycan arasında imzalanmış müqavilə əsasında xüsusi olaraq, bunun üçün çəkilmişdi. Lakin biz hələ onda, neftin dünya bazarlarına ixracı marşrutlarını planlaşdırdığımız vaxtlarda Qərb marşrutu üzrə alternativ neft kəmərinə malik olmağı lazım bildik. Açığını deyim ki, bu, bəzi dairələrdə, bəzi ölkələrdə böyük narazılıqla, etirazla qarşılandı. Amma biz öz istədiyimizə nail olduq – Gürcüstan ilə Azərbaycan arasında saziş imzalayaraq Bakı–Supsa neft kəmərini layihələşdirməyə başladıq və boru kəmərinin praktiki surətdə inşası üçün işləri təşkil etdik”.

Beləliklə, Heydər Əliyevin böyük əzmkarlığı nəticəsində ikinci neft kəməri də istismara verildi. 1999-cu il aprelin 17-də Azərbaycan, Ukrayna və Gürcüstan dövlət başçılarının Bakı–Supsa neft kəmərinin və terminalının təntənəli açılışı mərasimində iştirak etmələri qarşılıqlı əlaqələrin möhkəmlənməsinə və regional əməkdaşlığın inkişafına təkan verdi. Bu marşrutun ən böyük üstünlüyü Azərbaycan neftinin təmiz halda "Azeri light" markası ilə dünya bazarına çıxarılması və neft nəqlinin ucuz başa gəlməsi idi. Xatırladaq ki, neftin Novorossiyskə nəqlinin tonu 15,67, Supsaya nəqli isə 13,14 ABŞ dollarına başa gəlirdi.

Bakı–Supsa neft kəməri Gürcüstan ilə Azərbaycan arasında dostluğa, əməkdaşlığa parlaq misaldır. Heydər Əliyev deyirdi: “Biz bu dostluğu qoruyur və yeni şəraitdə inkişaf etdirir, genişləndiririk. Bütün bu işlər, indiki halda Bakı–Supsa neft kəməri Qafqazda sabitliyin və sülhün möhkəmlənməsinə mühüm töhfədir... Qafqaz ölkələri ilə regionumuzu əhatə edən ölkələr arasında ən yaxşı və mehriban münasibətlər yaratmalıyıq. Bununla əlaqədar Bakı – Supsa neft kəməri regionumuzda sabitliyin, sülhün böyük amilidir”.

Şübhəsiz ki, Bakı–Supsa neft kəmərinin Gürcüstan üçün də siyasi, sosial- iqtisadi əhəmiyyəti vardı. Çünki Gürcüstan tranzit ölkə kimi böyük gəlir əldə etməklə yanaşı, yeni iş yerlərinin açılması ilə işsizliyin qismən aradan qaldırılmasını təmin edir, siyasi mövqeyini möhkəmləndirirdi.

### Gələcəyə hesablanmış siyasət

Xarici şirkətlərlə birlikdə hasil olunan neft və qazın ixracını təmin etmək üçün isə çoxvariantlı boru nəqliyyat infrastrukturuna ehtiyac vardı. Çünki neft hasilatı artırdı. “Çıraq” platformasından neft çıxarıldıqdan sonra, qarşıda "Azəri", "Günəşli" yataqlarının işlənməsi dururdu və hasilatın ildən-ilə artacağı yəqin idi. Odur ki, fəaliyyətdə olan Bakı–Novorossiysk və Bakı–Supsa ixrac sistemlərinin yenidən qurulmasına baxmayaraq, onların gücü get-gedə artan həcmlər üçün kifayət deyildi. Daha qlobal bir boru xəttinin tikilməsi zərurəti ortaya çıxırdı. Bununla bağlı Heydər Əliyev hələ keçən əsrin 90-cı illərinin ortalarında özünün düzgün və uzaqgörən qərarını verdi. Bu, Bakı–Tbilisi–Ceyhan əsas ixrac neft kəmərinin tikilməsi ideyası idi. Bu barədə Heydər Əliyev deyirdi: “İndi Bakı–Tbilisi–Ceyhan magistralının növbəsi gəlib çatıb. Bizi çox maneələr gözləyir. Bəziləri düşünür ki, bu magistral məqsədəuyğun deyildir, digərlərinin fikrincə, ona ehtiyac yoxdur, üçüncülər isə ümumiyyətlə hədə-qorxu gəlirlər. Amma mən inanıram ki, bu layihə də həyata keçiriləcək, çünki təkcə Azərbaycan sektorundakı olduqca böyük neft ehtiyatları var. Mən hələ Qazaxıstan və Türkmənistanın ehtiyatlarını demirəm”.

Doğrudan da bu kəmərin tikintisinə ciddi maneələr oldu. Kəmərin doldurulması üçün neftin az olduğu barədə Rusiya və İrandan müxtəlif fikirlər səsləndirildi. Bu, azmış kimi, Gürcüstan Prezidenti Eduard Şevardnadzeyə qarşı 9 fevral 1998-ci ildə sui-qəsd törədildi. 1998-ci ilin oktyabrında isə prezident Eduard Şevardnadze hökumətinə qarşı podpolkovnik Akaki Eliavanın rəhbərliyi ilə qiyam qaldırıldı. Bunların arxasında neft kəmərinin Gürcüstan ərazisindən keçməsini istəməyən qüvvələr dayanırdı. Bunu həmin dövrdə Gürcüstan Prezidenti olmuş Eduard Şevardnadze mətbuata verdiyi müsahibədə də təsdiqləyirdi. “Əlbəttə, biz hər üçümüz (Türkiyə, Azərbaycan və Gürcüstan prezidentləri) olduqca həmrəy, həmahəng bir iş qurmuşduq. Hər hansı bir iş barədə Süleyman Dəmirəl soruşardı ki, bununla bağlı Əliyev nə düşünür, Şevardnadze nə düşünür. Biz üçümüz də bir-birimizin rəyini mütləq öyrənirdik.

İstəyirəm ki, layihələr məsələsinə qayıdaq. Artıq təsdiq olundu ki, Xəzər dənizində külli miqdarda neft və qaz ehtiyatları var. Türkiyə maraqlı idi ki, bu ehtiyatlar Qərbə–Avropaya Azərbaycan–Gürcüstan–Türkiyə vasitəsilə çıxsın. Eyni zamanda Rusiya maraqlı idi ki, bu ehtiyatların ötürülməsi üçün şimal marşrutu təsdiq olunsun.” E. Şevardnadze əlavə edir ki, məlum olduğu kimi, o zaman mənə qarşı sui-qəsd təşkil edildi. Səhəri gün Svanetiyada tədbir keçirirdim. Bir də dedilər ki, Boris Yeltsin məni telefonla arayır. O, məni sağ qalmağım münasibətilə təbrik etdi və dedi: “Amma bir məsələni də qeyd etmək istəyirəm: Siz Xəzər dənizinin neft və qaz məsələlərindən əl çəkməlisiniz”. Mən Yeltsinə cavabımda dedim: “Təəssüflər olsun ki, Gürcüstanın nə nefti var, nə də qazı. Neft də, qaz da Azərbaycanındır. Neftin-qazın hansı istiqamətdə axıdılması məsələsi də onun işidir... Mən əminəm ki, Heydər Əliyevə də bir dəfə deyil, bir neçə dəfə belə zənglər olmuşdu ki, neft və qaz şimal marşrutu ilə nəql olunsun. Amma o, əlindən gələni etdi, məhz Qərb marşrutu qələbə çaldı. Bu məsələdə Amerikanın o zamankı Prezidenti Bill Klintonun da çox böyük yardımları oldu. Biz Cenevrədə əsas müqaviləyə imza atanda görün kimlər iştirak edirdi: Heydər Əliyev (əsas təşəbbüskar və əsərin müəllifi kimi), Bill Klinton, Süleyman Dəmirəl və mən. Neft kəmərinin istiqaməti strateji baxımdan çox önəmlidir, əlbəttə, böyük əhəmiyyət kəsb edir. Amma tariflər məsələsi də olduqca əhəmiyyətli idi. Elə tariflər ola bilərdi ki, dövlət uda, elə tariflər ola bilərdi ki, uduza bilərdi. Məhz Heydər Əliyevə görə elə tariflər tətbiq edildi ki, Gürcüstan yalnız uda bilərdi.

Məhz Heydər Əliyevin uzaqgörənliyi, müdrikliyi, qətiyyəti, cəsarəti sayəsində layihə uğurla reallaşdı. Bu, hər iki dövlətə – həm Azərbaycana, həm də Gürcüstana böyük uğurlar gətirdi. Ən əvvəl, Qərb neft kəməri (BTC) bütün dünyaya göstərdi ki, suveren dövlətlər kimi Azərbaycan və Gürcüstan, heç nəyə baxmayaraq, öz problemlərini müstəqil həll edir və öz məqsədlərinə çatırlar. Bu, çox böyük siyasi əhəmiyyət kəsb edir, imkanları nümayiş etdirir və bunu təsdiqləyir ki, hərbi münaqişələrlə əlaqədar Azərbaycanda və Gürcüstanda, bütövlükdə, Qafqazda vəziyyətin ağır olmasına baxmayaraq, onlar müstəqil dövlətlərdir, yaşayır, yaradır, uğurlar qazanır, planlarını həyata keçirirlər. Bu, ən başlıcasıdır! Bundan başqa, Milli Neft Strategiyası Azərbaycan və Gürcüstanın geosiyasi mövqeyinin möhkəmlənməsinə, çoxmilyardlı xarici investisiya axınına, gəlirlərinin artmasına, dünya iqtisadiyyatına inteqrasiya prosesinin sürətlənməsinə şərait yaratdı.

Neft strategiyasının uğurla həyata keçirilməsi, neft sənayesinə geniş sərmayə qoyuluşu, bu əməliyyatlarda müasir texnika və texnologiyanın tətbiqi nəticəsində isə 1999-cu ildə nəhəng “Şahdəniz” qaz-kondensat yatağı aşkar edildi. 2001-ci il sentyabrın 29-da Gürcüstan Prezidenti Eduard Şevardnadzenin Bakıya səfəri zamanı “Təbii qazın Gürcüstan Respublikası ərazisindən tranziti, nəql edilməsi və satışına dair” Azərbaycan və Gürcüstan respublikaları arasında saziş imzalandı.

Azərbaycanla Gürcüstan arasında bu siyasət sonrakı dövrlərdə də uğurla həyata keçirildi. Bakı–Tbilisi–Ceyhan neft boru və Bakı–Tbilisi–Ərzurum qaz kəmərləri istismara verildi. Nəticədə, Azərbaycan Gürcüstanla əməkdaşlığı sayəsində enerji, neft və qaz potensialının şaxələndirilməsi məsələlərini tam şəkildə həll edə bildi. Dünya bazarına birbaşa çıxışı olmayan ölkə üçün bu, həlledici məsələ idi.

Bundan başqa, Azərbaycan hər zaman, qardaş Gürcüstanın üzləşdiyi çətinliklərin həll olunmasında qətiyyətli və cəsarətli siyasət nümayiş etdirir.

***Azər SÜLEYMANOV,***
***Gürcüstan parlamentinin sabiq deputatı***

# Ermənistan kütləvi məzarlıqları hələ də gizlədir



**Ermənistan məsuliyyətdən yayınmaq üçün kütləvi məzarlıqların yeri barədə ətraflı məlumat verməkdən imtina edir. Bu barədə Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Haciyev "X"də paylaşım edib.**

"Mülki şəxslərin və hərbi əsirlərin saxlandığı, qeyri-insani rəftara və işgəncələrə məruz qaldığı, öldürüldüyü və kütləvi məzarlıqlarda basdırıldığı Şuşa həbsxanası yaxınlığında 4 min nəfər itkin düşmüş azərbaycanlının daha bir kütləvi məzarlığı müəyyən edilib", – deyə paylaşımda qeyd edilib.

# "The National Interest": "Ermənistan Cənubi Qafqazda sülhü pozmaq istəyir?"

**(əvvəli 1-ci səhifədə)**

Hazırkı baş nazir Nikol Paşinyan 2018-ci ildə vəzifəyə gələn zaman Azərbaycan gözlədi ki, o, münaqişənin sülh yolu ilə həlli üçün başqa yol tutacaq. Lakin onun cəmi bir il sonra "Qarabağ Ermənistandır və nöqtə" bəyanatı danışıqlar prosesinə olan bütün ümidləri boşa çıxardı. 2020-ci ildə müharibədən sonra bu bəyanat çətin reallıqla üzləşməli oldu və bu ilin əvvəlində Nikol Paşinyan Qarabağın Azərbaycanın ərazisi olduğunu etiraf etdi.

Kaş ki, sülh bu cür asan olardı. Lakin zaman qazanmaq üçün qarışıq kampaniyalar təşkil edərək sülhdən danışmaq Ermənistan rəhbərliyinə çox tanışdır. Beləliklə, bu həftə Ermənistan onun tabeliyində olan Qarabağdakı separatçı rejimin rəhbərliyi ilə birlikdə sülh danışıqlarını pozmaq üçün son beynəlxalq kampaniyanı başlatdı. Bu, təəccüblü deyil. Bu separatist qurumun var olma səbəbi fantaziyaları uzatmaqla çətin geosiyasi faktlardan uzaqlaşmaqdan ibarətdir.

Lakin reallıq dəyişib və Azərbaycan Qarabağ bölgəsinin erməni sakinlərini reinteqrasiya naminə açıq və səmimi dialoqa dəvət edir. Azərbaycan dəfələrlə qeyd edib ki, onların Qarabağda milli azlıq kimi hüquqları, təhlükəsizlikləri və öhdəlikləri Azərbaycan Konstitusiyasına əsasən təmin olunacaq. Buraya onların din, dil və munisipial hüquqları daxildir və bu hüquqlara hörmət olunur.

Hazırda kritik olan odur ki, istənilən reinteqrasiya prosesi bütün qeyri-qanuni hərbi qrupların demobilizasiyasını və tərk-silah olunmasını, Ermənistan silahlı qüvvələrinin qalan hissələrinin tamamilə çıxarılmasını əhatə etməlidir. Bu cür qruplara sülh danışıqları zamanı belə davam edən silah axınını dayandırmaq üçün bu yaxınlarda Ermənistanla Xankəndini birləşdirən Laçın yolu qısa müddətlik bağlandı.

Azərbaycan, həmçinin regionun qida və tibbi ləvazimatlarla təmin olunması üçün gündəlik 17 mindən çox nəqliyyat vasitəsinin hərəkətinə imkan verən daha qısa olan əlavə yol təklif etdi. Həm Avropa İttifaqı, həm də Beynəlxalq Qırmızı Xaç Komitəsi bu yolun istifadə oluna bilməsini təsdiq etdi.

Ancaq Qarabağdakı separatçılar yenidən qurulmuş dördzolaqlı Ağdam–Xankəndi yolundan istifadəni dəfələrlə rədd etdilər, hətta rəhbərlərinin göstərişi ilə yolu beton bloklarla bağladılar. Bakının yüklərin Ağdam–Xankəndi yolu vasitəsilə Azərbaycan tərəfindən deyil, Qırmızı Xaç Komitəsi tərəfindən daşınması təklifi rədd edildi. Hətta bununla bağlı dialoqun aparılması da rədd olundu. Həmin rəhbərlik şou yaradaraq yük maşınlarını "Laçın" keçid məntəqəsi istiqamətində Azərbaycan sərhədi istiqamətinə gətirib. Onlar hələ də Qarabağdakı ermənilərin Azərbaycan tərəfindən etnik təmizləmə ilə üzləşdiyini bildirirlər.

Bu yalan iddianı daha da möhkəmləndirmək üçün onların rəhbərliyi Beynəlxalq Cinayət Məhkəməsinin keçmiş prokuroru Luis Moreno Okamponu Qarabağın, guya, "blokada"da olduğunu, sakinlərinin aclıqdan öldüyünü və "soyqırımı törədildiyini" iddia edən hesabat yazması üçün tələm-tələsik cəlb edib.

Azərbaycanda belə dezinformasiyaları eşitməyə öyrəşmişik, lakin beynəlxalq ictimaiyyət və xüsusən də media üçün bu cür emosional, şok effekti yaradan terminlərin işlədilməsinin əslində baş verənlərin onların nəzərindən gizlədilməsi məqsədi daşıdığını görmək vacibdir.

Beynəlxalq ictimaiyyətin dəstəyini gücləndirmək üçün böhran yaradarkən onların təhlükə altında olduqlarını iddia etmək dünyanı azərbaycanlılarla ermənilərin bir vaxtlar birlikdə yaşadıqları kimi yaşaya bilməyəcəyinə inandırmaq məqsədi daşıyır.

Azərbaycanın təklif etdiyi ərzaqdan imtina edən əhalini ac qoyması kimi paradoksal iddia separatçıların qondarma lideri Arayik Arutyunyan tərəfindən ortaya atılıb. O qeyd edib ki, "Azərbaycan bir əlindən bizi boğmaq üçün, digər əlindən isə ərzaqla təmin etmək üçün istifadə edir". Ona görə də bunun düzgün hüquqi əsaslandırmasını aparmalıyıq: işğalçıların administrasiyası Azərbaycan hökumətinin Azərbaycan bölgəsini ərzaq və dərmanla təmin etməsinə mane olur. Okamponun hesabatının heç bir yerində bu məsələyə toxunulmur.

Bu arada Qarabağın erməni sakinlərinin çəkdiyi əziyyət davam edir. Onlar Ermənistandan (ən kasıb postsovet ölkələrindən biridir) subsidiyalar hesabına dolanmağa məcburdur. İqtisadi cəhətdən region Sovet İttifaqından sonra müstəqilliyini əldə etdiyi vaxtdakı ilə müqayisədə ümumi daxili məhsulu 100 dəfə artan Azərbaycandan geri qalır.

Ermənistan kampaniyalar və diplomatik oyunlar təşkil etmək əvəzinə, sülh danışıqlarına və ölkələrimiz arasında münasibətlərin normallaşmasına ciddi səy göstərməlidir. Bundan başqa, Ermənistanın bu həftə BMT Təhlükəsizlik Şurasına müraciət üçün etdiyi sinik və son nəticədə qeyri-məhsuldar cəhdi belə səylərə hər cəhətdən zidd olan digər bir nümunədir.

Hər bir ölkənin ərazi bütövlüyü və suverenliyi toxunulmazdır. Separatizmə selektiv yanaşma qəbuledilməzdir. Ermənistan rəhbərliyinin Azərbaycanın ərazi bütövlüyünün dəstəklənməsinə dair şifahi bəyanatları sülh müqaviləsi çərçivəsində imzalanmalıdır. Ermənistan, nəhayət, Azərbaycana qarşı ərazi iddialarına son qoymalı və silahlı qüvvələrinin bütün hissələrini Azərbaycan ərazisindən çıxarmalıdır. İrəliyə doğru başqa yol yoxdur. Azərbaycan sülhə gedən yolun xəritəsini hazırlamaq üçün ilk addımları atıb. İndi isə növbə Ermənistanın və onun siyasi rəhbərliyinindir.

***"Xalq qəzeti"***

# Milli Məclisin "humanitar böhran" şousu ilə bağlı xarici ölkə parlamentlərinə müraciəti



**Dünən Azərbaycan Respublikası Milli Məclisinin sədri Sahibə Qafarova, xarici ölkələrlə parlamentlərarası əlaqələr üzrə işçi qruplarının rəhbərləri və beynəlxalq parlament təşkilatlarında nümayəndə heyətlərinin başçıları Ermənistan tərəfindən beynəlxalq ictimaiyyəti manipulyasiya etmək və çaşdırmaq məqsədi güdən cəhdlərlə əlaqədar beynəlxalq parlament təşkilatlarının rəhbərlərinə və xarici ölkələrin parlamentlərinə müraciət ünvanlayıblar.**

Müraciətdə Azərbaycanın beynəlxalq humanitar hüquqa və insan hüquqları üzrə normalara sadiq olduğu bir daha vurğulanır, Ermənistanın "blokada" və ya "humanitar böhranlar"la bağlı səsləndirdiyi əsassız iddialar qəti şəkildə rədd edilir, bunun Ermənistanın Azərbaycana qarşı apardığı geniş təbliğat kampaniyasının bariz təzahürü olduğu diqqətə çatdırılır.

Sənəddə bildirilir ki, Qarabağ bölgəsi Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisidir, orada yaşayan etnik ermənilər isə Azərbaycan sakinləridir. Bu regionun "Dağlıq Qarabağ" adlandırılması Azərbaycanın ərazi bütövlüyünə, suverenliyinə, milli qanunvericiliyinə və coğrafi adların istifadəsi ilə bağlı BMT-nin normativ bazasına ziddir.

Azərbaycanın suveren ərazisində yerləşən, eksterritorial statusu olmayan "Laçın dəhlizi" adlanan yola gəlincə, Azərbaycan 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanatla bağlı öhdəliklərinə sadiq qalaraq, bu yol boyunca hərəkətə icazə verib.

Lakin Ermənistan yalnız humanitar məqsədlər üçün nəzərdə tutulmuş bu marşrutdan Azərbaycan ərazisində qanunsuz olaraq mövcud olan 10 minə yaxın silahlı qrupun rotasiyası, oraya silah, döyüş sursatı və minaların gətirilməsi, habelə bu ərazidən təbii sərvətlərin qanunsuz çıxarılması və ixracı kimi qeyri-qanuni hərbi və digər fəaliyyətlər üçün ardıcıl və açıq şəkildə sui-istifadə edib. Sərhəd keçid məntəqəsi yaradıldıqdan sonra isə Azərbaycanın Qarabağ regionundan Ermənistana mülki əhalinin hərəkəti xeyli artmış, cari il iyunun 15-dək bu məntəqədən 2 mindən çox şəxs keçib.

Müraciətin davamında deyilir ki, 2023-cü il aprelin 23-də Azərbaycan öz suverenliyini və təhlükəsizliyini qorumaq üçün legitim hüququnu həyata keçirərək, Ermənistan–Azərbaycan dövlət sərhədində Laçın yolunun başlanğıcında sərhəd nəzarət-buraxılış məntəqəsi qurmuşdur ki, buna da bu yoldan yuxarıda qeyd olunduğu kimi, Ermənistan tərəfindən geniş şəkildə sui-istifadə edilməsi səbəb olub.

Xüsusilə qeyd olunur ki, Ermənistanın Azərbaycanın Laçın sərhəd keçid məntəqəsini qanunsuz kimi qələmə vermək cəhdlərinin əksinə olaraq, Beynəlxalq Ədalət Məhkəməsi (BƏM) 2023-cü il 6 iyul tarixli Qərarı ilə Azərbaycanın şəxsi heyətinin Laçın yolundan çıxarılması ilə bağlı Ermənistanın müraciətini yekdilliklə və qəti şəkildə rədd edib.

Bir sıra intensiv məsləhətləşmələrdən sonra, nəhayət, humanitar yüklərin müxtəlif marşrutlar vasitəsilə Qarabağ bölgəsinə çatdırılması, eləcə də Azərbaycanın xüsusi nümayəndəsi ilə yerli erməni sakinlərinin nümayəndələri arasında görüşün təşkili ilə bağlı razılıq əldə olunub. Təəssüf ki, revanşist əhval-ruhiyyə ilə idarə olunan və normallaşma prosesi çərçivəsində öhdəliklərdən yayınan Ermənistan son anda razılaşmadan geri çəkilib, siyasi motivli və qanunsuz ilkin şərtlər, həmçinin müxtəlif bəhanələr irəli sürüb.

Müraciətin sonunda bildirilir ki, bu kritik mərhələdə beynəlxalq ictimaiyyət Ermənistanın manipulyasiya və dezinformasiya cəhdlərini rədd etməklə bağlı yüksək məsuliyyət daşıyır.

Sənəddə azərbaycanlı parlamentarilər tərəfindən xarici həmkarlarının qərəzsiz və ədalətli mövqe nümayiş etdirəcəklərinə, Ermənistanın təbliğatını rədd edəcəklərinə, obyektivliyə, həqiqətə, beynəlxalq hüquqa söykənən davranış sərgiləyəcəklərinə ümid ifadə olunur.

***"Xalq qəzeti"***

# Aİ missiyasının "ermənliləşmə" prosesi yekunlaşıb



**(əvvəli 1-ci səhifədə)**

Nazirlik vurğulayıb ki, qeyd olunan bu məqamlar 30 ilə yaxın müddət ərzində – 2020-ci ilin sentyabrınadək Ermənistana xas olan danışıqların imitasiyasını, son dəqiqələrdə əvvəlki öhdəliklərdən yayınmaq və konkret qərarlar qəbul etməkdən boyun qaçırmaq üçün prosesin hər mərhələsində siyasi, hərbi və digər təxribatlar törətməyi ehtiva edən təcrübəni xatırladır.

***

Azərbaycan XİN-in bəyanatının, necə deyərlər, mürəkkəbi qurumamış Ermənistanda yerləşən Avropa İttifaqının missiyasından cavab gəlib. Sözdə Avropa İttifaqının (Aİ) mülki müşahidə missiyası adlansa da, tərkibində çox sayda ehtiyatda olan alman və fransız zabitlərin cəmləşdiyi hərbiləşdirilmiş missiya "X" sosial şəbəkəsində bununla bağlı paylaşım edib. Aİ missiyası gündəlik patrul xidməti nəticəsində, xüsusilə, Laçın yolunun girişində qoşunların yerdəyişməsi və cəmləşməsinin qeydə alınmadığını bəyan edərək, faktiki olaraq Azərbaycanla sərhəddə qoşunların toplanması ilə bağlı Xarici İşlər Nazirliyinin bəyanatını təkzib edib. "Avropa İttifaqının missiyası Ermənistan–Azərbaycan sərhəd zonası boyunca patrul xidməti həyata keçirən 4 operativ baza vasitəsilə hərbi və təhlükəsizlik vəziyyətini gündəlik izləyir. Yerlərdəki məlumatlara əsasən, biz, xüsusilə, Laçın yolunun yaxınlığında qeyri-adi hərəkət və ya qoşun cəmləşməsi müşahidə etmirik. Biz patrul xidmətimizi davam etdiririk", – deyə monitorinq missiyasının bəyanatında bildirilir.

Azərbaycan XİN-in Ermənistanın şərti sərhədə, xüsusilə də Laçın yolu istiqamətinə qoşun toplaması ilə bağlı bəyanatına Aİ missiyasının cavab verməsi ortaya bir sıra suallar çıxarır. Soruşan gərək, siz Ermənistanın xarici işlər, yoxsa müdafiə nazirliyisiniz? Sizə Azərbaycan XİN-in bəyanatını təkzib etmək səlahiyyətini kim verib? Məgər onlar bununla obyektivliklərinə xələl gətirdiklərinin fərqində deyillərmi? Onlar bununla faktiki surətdə Ermənistanın müvafiq qurumlarının funksiyasını icra etmiş olurlar.

Ortaya digər qənaətlər də çıxır. Deyəsən, Aİ-nin missiyası bölgədə jandarmeriya rolunu oynamaqda iddialıdır. Nədənsə, onlar missiyanın adında "mülki" sözünün olduğunu da unudurlar.

Məsələ ilə bağlı dünən Qərbi Azərbaycan İcması da bəyanat yayıb. Bəyanatda Aİ missiyasının Azərbaycan XİN-in bəyanatına reaksiya olaraq, tələm-tələsik, hətta, az qala, Ermənistan XİN-i qabaqlayan açıqlama yaydığı vurğulanır. İcmadan bildirilib ki, 30 il ərzində Azərbaycan ərazilərinin işğalını, yüz minlərlə azərbaycanlının öz doğma yurdlarından qovulmasını "görməyənlər" indi revanşist hisslərlə yaşayan Ermənistana kömək etmək üçün növbəyə düzülüblər və konkret olaraq, Aİ missiyası İrəvanın ruporuna çevrilib. Bəyanatda bildirilib: "Aİ missiyasının patrul apardığı, tez-tez binoklla Azərbaycan tərəfə baxdığı ərazilərin əksəriyyəti deportasiyaya məruz qalmış Qərbi azərbaycanlıların vaxtilə yaşadıqları və zorla qovulduqları torpaqlardır. Aİ-nin Qərbi Azərbaycan İcmasının müraciətlərinə əməli reaksiya verməməsi onun beynəlxalq hüquqa, bəşəri dəyərlərə və prinsiplərə fərqli yanaşma nümayiş etdirdiyini göstərir".

"Joxovurd" qəzeti isə Azərbaycanın, guya, yaxın günlərdə Qarabağda hərbi əməliyyata başlayacağını yazıb. Qeyd olunub ki, son günlər separatçı rejimə bağlı qanunsuz silahlı dəstələrin fəaliyyəti ilə bağlı xəbərlərin gündəmə gətirilməsində məqsəd hərbi əməliyyatlara zəmin hazırlamaqdır. Qəzet bildirir ki, ümumiyyətlə, hazırda həm Ermənistanla sərhəddə, həm də Qarabağda gərginlik müşahidə edilir.

***

Aİ missiyası ilə bağlı dünən daha bir hadisə baş verib. Belə ki, Ermənistan müdafiə nazirliyi avqustun 15-də saat 12:20 radələrində Azərbaycan Silahlı Qüvvələrinin bölmələrinin Basarkeçər rayonunun Yuxarı Şorca kəndi (haylar bu qədim yurd yerimizi Vardenis rayonunun Verin Şorja sözü ilə özününküləşdirib-S.H.) istiqamətində patrul aparan Aİ müşahidəçilərini və onların avtomobilini, guya, odlu silahlardan atəşə tutduğunu bəyan edib. Qeyd olunub ki, ölən və yaralanan yoxdur.

Ancaq hayların müdafiə qurumunun bu yalanı elə Aİ-nin müşahidə missiyası tərəfindən təkzib edilib. "Aİ-nin müşahidə missiyasının heç bir patrulu atışma hədəfi olmayıb. Biz Ermənistan-Azərbaycan sərhəd rayonlarında patrul xidməti həyata keçiririk və Brüsselə hərbi inkişaflar, o cümlədən məsuliyyət daşıdığımız ərazidə atışma insidentləri barədə məlumat veririk", – deyə Aİ-nin Ermənistandakı müşahidə missiyası "X" sosial şəbəkəsində bildirib.

Müdrik atalarımız "yalan ayaq tutar, amma yeriməz" deyiblər. Ancaq bu dəfə hayların yalanı nəinki yerimədi, heç ayaq da tutmadı. Onların daha bir yalanı anındaca faş oldu. Özü də elə onlara qucaq açan, hər mənada onları dəstəkləyən Aİ missiyası tərəfindən...

***Səxavət HƏMİD,***
***"Xalq qəzeti"***

# Hərbi attaşelər üçün brifinq



**Dünən Müdafiə Nazirliyində Azərbaycana akkreditə olunmuş xarici hərbi attaşelər və beynəlxalq təşkilatların ölkəmizdəki nümayəndələri üçün brifinq keçirilib.**

Brifinqdə son günlər Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərindəki qeyri-qanuni erməni silahlı birləşmələrinin və Ermənistan silahlı qüvvələrinin qalıqlarının aktivliyinə dair faktlarla bağlı xarici ölkələrin hərbi nümayəndələrinə ətraflı məlumat verilib.

Bildirilib ki, Laçın yolunun qanunsuz hərbi daşımalar üçün istifadəsi yolverilməzdir. Azərbaycan tərəfinin alternativ olaraq təklif etdiyi Ağdam–Xankəndi yolu zəruri yüklərin Qarabağ iqtisadi rayonunda yaşayan erməni sakinlərə vaxtında çatdırılmasını, eləcə də onların Azərbaycana reinteqrasiyasını daha da sürətləndirəcəkdir.

Həmçinin Ermənistan tərəfinin yeni təxribatlara hazırlıq məqsədilə Qarabağ iqtisadi rayonunda qeyri-qanuni silahlı birləşmələrin döyüş mövqelərini gücləndirməsi, eləcə də bir neçə yaşayış məntəqəsində müxtəlif təyinatlı döyüş texnikası, xüsusilə də hava hücumundan müdafiə və radioelektron mübarizə vasitələrini yerləşdirməklə mülki əhalini kütləvi şəkildə silahlandırması faktları tərəfimizdən qeydə alınıb.

Bu kimi təhrikçi fəaliyyətlərin Ermənistanın Azərbaycanla şərti sərhədi istiqamətində döyüş texnikası və artilleriya qurğularını cəmləşdirməsi ilə müşayiət edilməsinin bölgədə gərginliyin artmasına səbəb olduğu diqqətə çatdırılıb.

Sonda brifinqdə qeyd edilən faktlarla bağlı videomateriallar nümayiş olunub və nümayəndələri maraqlandıran suallar cavablandırılıb.

***"Xalq qəzeti"***

# Separatçılara silah daşınır




**Bu gün Azərbaycanın Qarabağ iqtisadi rayonunda Rusiya sülhməramlılarının müşayiəti ilə Xankəndi–Qaybalı–Laçın torpaq yolu ilə qeyri-qanuni erməni silahlı birləşmələrinin döyüş mövqelərinə doğru hərəkət edən kolonu qeydə alınıb.**

"Caliber" xəbər verir ki, qanunsuz erməni silahlı birləşmələrinin döyüş mövqelərinə hərbi texnika, şəxsi heyət, döyüş sursatları və yanacaq daşınıb.

***"Xalq qəzeti"***

# Azərbaycan Sənaye İnqilabının ön sırasında

*8 ayda ölkədə 70 milyard 372 milyon manatlıq ÜDM istehsal olunub*

**Prezident İlham Əliyevin rəhbərliyi ilə son 20 il ərzində həyata keçirilən mükəmməl islahatlar konsepsiyası sayəsində ölkəmiz iqtisadi tərəqqiyə nail olub. Azərbaycan dünya birliyində mövqeyini köklü surətdə möhkəmləndirib, bununla da inkişaf etmiş güclü dövlətlər sırasında yer almağa zəmin yaradıb. Dövlətimizin başçısının yürütdüyü uğurlu, qətiyyətli siyasət, gerçəkləşdirilən dövlət proqramları və makroiqtisadi layihələr Azərbaycan iqtisadiyyatının daha uca zirvələrə qalxmasını reallaşdırıb.**




Respublikamız bu gün 2022–2030-cu illəri əhatə edən strateji inkişaf mərhələsini yaşayır. Bu strateji dövrdə yeni nəsil struktur və institusional islahatlar vasitəsilə iqtisadi artımın müasir və dayanıqlı mənbələrinin hərəkətə gətirilməsi, milli iqtisadiyyatın innovasiya yönümünün və maliyyə dayanıqlığının daha da gücləndirilməsi, ölkə iqtisadiyyatının qlobal dəyər zəncirinə səmərəli inteqrasiya yolu ilə Azərbaycan dövləti öz qüdrətini daha da artırmaq, yüksək rifah cəmiyyətinin qurulması istiqamətində yeni hədəfləri gerçəkləşdirmək əzmindədir. Bütün bu vəzifələr isə "Azərbaycan–2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"ə söykənən "2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda öz aydın ifadəsini tapıb. Məsələn, sənəddə 2026-cı ilin sonuna kimi iqtisadi artımın tamamilə yeni keyfiyyət amilləri bazasında formalaşdırılması, xüsusilə prioritet sahələrdə artım templərinin sürətləndirilməsi, iqtisadiyyatın və məşğulluğun dayanıqlığının daha da gücləndirilməsi mühüm məqsədlər sırasında yer alıb.

Qarşıya qoyulan vəzifələrin yüksək səviyyədə həyata keçirilməsinə isə son 10 ildə gerçəkləşdirilən genişmiqyaslı islahatların uğurlu nəticələri əsaslı təsir göstərib. Belə ki, bu müddətdə ölkə iqtisadiyyatında makroiqtisadi sabitlik və dayanıqlıq təmin edilib, sosial rifahı dəstəkləyən iqtisadi artıma nail olunub. Milli iqtisadiyyatın aparıcı sahələrində müasir texnologiyaların geniş tətbiqi və keyfiyyətli insan kapitalının cəlbi sayəsində məhsuldarlıq xeyli artıb, iqtisadiyyat sürətlə şaxələnib və daxili istehsal qlobal dəyər zəncirinə effektiv inteqrasiya edib. Azərbaycan 4-cü Sənaye İnqilabının aktiv mərkəzlərindən biri olmaqla xarici investorlar üçün böyük fürsətlər məkanına çevrilib. Bu dövrdə milli iqtisadiyyat 15 faiz böyüyüb, qeyri-neft-qaz ümumi daxili məhsul (ÜDM) isə 1,4 dəfə artıb. 2011-ci illə müqayisədə qeyri-neft-qaz ixracının 78,3 faiz yüksəlməsinə nail olunub.

Həyata keçirilən köklü struktur–institusional islahatlar nəticəsində millii qtisadiyyatın strukturu dəyişib, qeyri–neft sektorunun payı xeyli yüksəlib. 2012–2021-ci illərdə qeyri-neft-qaz ÜDM-i hər il orta hesabla 3,5 faiz artaraq 2011-ci ildəki 25,4 milyard manatdan 2021-ci ildə 57,8 milyard manata, qeyri-neft-qaz sektorunun payı isə 2011-ci ildəki 48,8 faizdən 2021-ci ildə 62,2 faizə çatıb.

ÜDM-lə bağlı yüksək dinamika bu ilin ötən aylarında da diqqət çəkib. Dövlət Statistika Komitəsindən aldığımız məlumata görə, cari ilin 8 ayında ölkədə 70 milyard 372 milyon manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 0,7 faiz çox ÜDM istehsal olunub.

İqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 2,2 faiz azalıb, qeyri-neft-qaz sektorunda isə 3,4 faiz artıb. ÜDM istehsalının 42,8 faizi sənaye, 9,4 faizi ticarət, 6,1 faizi nəqliyyat, 6 faizi kənd təsərrüfatı, 4,9 faizi tikinti, 2,3 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,6 faizi informasiya və rabitə sahələrinin, 17,7 faizi digər sahələrin payına düşüb, məhsula və idxala xalis vergilər ÜDM-in 9,2 faizini təşkil edib. Əhalinin hər nəfərinə düşən ÜDM 6 milyon 938 manata bərabər olub.

Yeri gəlmişkən, Dünya Bankının 2023-cü il üçün "Qlobal İqtisadi Perspektivlər" hesabatında Azərbaycan üzrə verilən proqnozlarda real ÜDM-in artım tempi müsbət olaraq qalır. Həmin sənəddə bu il Azərbaycan iqtisadiyyatında artımın dünya ilə müqayisədə 1,1 faiz, Avropa və Mərkəzi Asiya (ECA) regionu ilə müqayisədə isə 2,7 faiz daha yüksək olacağı gözlənilir. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin məlumatına görə, 2022-ci ilin iyun ayı proqnozlarından faiz bəndi ilə müqayisədə Azərbaycan 2023-cü il üzrə bütövlükdə ECA regionunda real ÜDM-də müsbət artım göstərməsi proqnozlaşdırılan 4 ölkədən biridir.

Yuxarıda qeyd etdik ki, cari ilin yanvar–iyul aylarında iqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 2,2 faiz azalsa da, qeyri neft-qaz sektorunda 3,4 faiz artıb. Hesabat dövründə ÜDM-in artımını qeyri-neft-qaz sektorunun inkişafı şərtləndirib. Başqa sözlə, respublikada artımın əsas mənbəyini qeyri-neft-qaz sektoru və qeyri-neft-qaz idxalı təşkil edib. Şübhəsiz ki, bu məsələdə xarici investisiyaların, qabaqcıl texnologiyaların və idarəetmə təcrübəsinin də rolu mühüm önəm daşıyıb. Ölkədə bərqərar olan siyasi və makroiqtisadi sabitlik, investorların hüquqlarının etibarlı qorunması, əlverişli coğrafi mövqe, zəngin təbii ehtiyatlar, yüksək ixtisaslı işçi qüvvəsi Azərbaycanı xarici investisiyalar üçün ən cəlbedici ölkələrdən birinə çevirib.

Onu da qeyd edək ki, ekspertlər tərəfindən qeyri-neft-qaz sektorunun inkişafı sayəsində onun ÜDM-də payının Azərbaycanın ən yaxın tarixində maksimuma çatacağı bildirilir. Məsələn, "Qazprombank"ın nümayəndəsi Gülnarə Xaydarşina Qarabağda yeni layihələr və Azərbaycanın Avrasiya regionunda artan logistik əhəmiyyəti sayəsində qeyri-neft-qaz sektorunun hazırkı inkişaf tempi saxlanılmaqla 2024-cü ilə qədər onun ÜDM-də payının 70 faizə yaxınlaşacağı vurğulayır. O, eyni zamanda, bu göstəricinin Azərbaycanın ən yeni tarixindəki maksimum səviyyəyə uyğun olacağını diqqətə çatdırır.

Bu məqamda onu da qeyd edək ki, 2026-cı ilə qədər Qarabağda layihələrə təxminən 10 milyard ABŞ dolları (ÜDM-in 18 faizi) sərmayə qoyulması planlaşdırılır, xarici investorlar (o cümlədən Türkiyə, Birləşmiş Ərəb Əmirlikləri, İtaliya, Böyük Britaniya və Rusiya) fəal şəkildə cəlb olunur.

İnfrastrukturun və sosial əhəmiyyətli obyektlərin modernləşdirilməsi ilə yanaşı, qeyri-neft-qaz məhsullarının istehsalına, habelə ixracına yönələn yeni sənaye və iqtisadi zonaların yaradılması istiqamətində həyata keçirilən uğurlu layihələr də ÜDM istehsalının artmasında önəmli rol oynayır.

Şübhəsiz ki, bu məsələdə qabaqcıl texnologiyalardan və idarəetmə təcrübəsindən səmərəli yararlanmaq da böyük əhəmiyyətə malikdir. Bundan başqa, ölkədə hökm sürən siyasi və makroiqtisadi sabitlik, investorların hüquqlarının etibarlı qorunması, əlverişli coğrafi mövqe, zəngin təbii ehtiyatlar, yüksək ixtisaslı işçi qüvvəsi Azərbaycanı xarici sərmayələr üçün ən cəlbedici dövlətlərdən biri kimi tanıdır.

***Vaqif BAYRAMOV,***
***"Xalq qəzeti"***

## Ekspert rəyi



**Nihat ƏLİYEV,**
**iqtisadçı-ekspert**

İqtisadiyyatın şaxələndirilməsi istiqamətində həyata keçirilən tədbirlərin məntiqi nəticəsi olaraq, 2010-cu ildə respublikamızın qeyri-neft sektorunda 18,4 milyon manatlıq məhsul istehsal edildiyi halda, çoxsaylı mənfi şokların təsiri ilə mübarizə aparan qlobal iqtisadiyyatın indiki həssas dövründə qeyri-neft-qaz sənayesində artım neft-qaz sənayesindəki artımı üstələyib. Mövcud sahədə əlavə dəyər 2023-cü ilin ilk yarısında 6,5 faiz artıb. Ümumi olaraq isə qeyri-neft sektorunda 3 faizdən çox artım müşahidə olunub.

Təbii ki, qeyri-neft sektorunun inkişafında şaxələndirmə siyasəti ilə yanaşı, ardıcıl və sistemli surətdə gerçəkləşdirilən sənayenin inkişafına dair Dövlət Proqramı da əhəmiyyətli rol oynayıb. Bu önəmli sənəd ənənəvi sənaye sahələri ilə yanaşı, iqtisadiyyatımız üçün yeni olan kosmik, müdafiə, gəmiqayırma, alternativ enerji və digər sahələrin, həmçinin müasir istehsal infrastrukturuna malik sənaye zonalarının inkişafını da sürətləndirib. Nəticədə respublikamızın ixrac qabiliyyəti davamlı şəkildə güclənib, idxalı əvəz edən məhsulların istehsalının artırılması reallaşıb.

Bu, statistik göstəricilərdə də öz aydın ifadəsini tapıb. Məsələn, indiyədək mövcud sahədə 10,23 milyard manat dəyərində məhsul satışı həyata keçirilib və onun 3,35 milyard manatlıq hissəsi ixrac edilib. Cari ilin ilk yarısında isə 1,4 milyard manatlıq məhsul satılıb ki, bunun da 33,6 faizi ixracın payına düşüb. Bugünədək sənaye zonalarında ümumi investisiya dəyəri 7,18 milyard manat olmaqla 131 sahibkarlıq subyektinə rezident statusu verilib və onlardan 68-i, yaxud 51,9 faizi istehsal fəaliyyətinə başlayıb. Sənaye zonalarına 6,56 milyard manat investisiya yatırılıb və 10 min 600-dən çox daimi iş yeri açılıb.

Onu da qeyd edək ki, hazırda sənaye zonaları və aqroparklarda iş adamları üçün stimullaşdırıcı biznes və investisiya mühiti yaradılıb. Sənaye parklarında qeydə alınan hər bir rezident 10 il müddətinə əmlak, torpaq, gəlir və ya mənfəət vergilərindən, istehsal məqsədilə idxal etdikləri texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı zamanı ƏDV-dən və 10 il müddətinə gömrük rüsumlarından azad olunub.

**Bu ilin yanvar–iyul ayları üzrə operativ məlumatlara əsasən, ölkədə elektrik enerjisinin istehsalı ötən ilin müvafiq dövrü ilə müqayisədə 45,4 milyon kilovat-saat, yəni 0,3 faiz artaraq 16 milyard 323,4 milyon kilovat-saat olub.**

# Elektrik enerjisi istehsalı artır



Energetika Nazirliyinin məlumatına əsasən, 7 ay ərzində elektrik enerjisi istehsalı istilik elektrik stansiyalarında (İES) 14 milyard 996 milyon kilovat-saat, su elektrik stansiyalarında (SES) 1milyard 107 milyon kilovat-saat, digər mənbələr üzrə isə 220,3 milyon kilovat-saat qeydə alınıb. Bu dövrdə külək elektrik stansiyalarında (KES) 37,6 milyon kilovat-saat, günəş elektrik stansiyalarında (GES) 39,6 milyon kilovat-saat, Bərk Məişət Tullantılarının Yandırılması Zavodunda isə 143,1 milyon kilovat-saat elektrik enerjisi istehsal edilib.

Bu dövrdə elektrik enerjisinin istehsalı "AzərEnerji" ASC üzrə 14 milyard 653 milyon kilovat-saat, İES-lərdə 13 milyard 622 milyon kilovat-saat, SES-lərdə 1 milyard 31 milyon kilovat-saat, Naxçıvan MR Dövlət Energetika Xidməti üzrə 272,1 milyon kilovat–saat (İES-lərdə 168,2 milyon kilovat-saat, SES-lərdə 67,7 milyon kilovat-saat, GES-də 36,2 milyon kilovat-saat), "Azərişıq" ASC üzrə KES-də 28,9 milyon kilovat-saat, müstəqil elektrik stansiyaları üzrə isə 1 milyard 369,6 milyon kilovat-saat təşkil edib.

Cari ilin yanvar-iyul ayları üzrə elektrik enerjisinin ixracı 1 milyard 277 milyon kilovat-saat, idxalı isə 157,6 milyon kilovat-saat olub.

Qeyd edək ki, cari ilin iyul ayında respublika üzrə elektrik enerjisinin istehsalı 2 milyard 416 kilovat-saat qeydə alınıb. İyul ayında elektrik enerjisinin idxalı 19,7 milyon kilovat-saat, ixrac isə 12,4 milyon kilovat-saat təşkil edib.

Yeri gəlmişkən, ölkəmizdə "yaşıl enerji" sahəsində də yüksək göstəricilərin əldə ediləcəyi proqnozlaşdırılır. Hazırda bu istiqamətdə genişhəcmli layihələr gerçəkləşdirilir. Respublikamızın bərpaolunan enerji istehsalı sahəsində böyük potensialının olması da bir çox təşəbbüslərin həyata keçirilməsi üçün geniş imkanlar yaradır. Onu da xatırladaq ki, Azərbaycanın hədəfi bərpaolunan enerjinin payının ümumi enerji istehsalında 2025-ci ildə 24 faizə, 2030-cu ildə isə 30 faizə çatdırmaqdır.

Bu məqsədin reallaşması üçün ölkəmizin Xəzər dənizində təsdiqlənmiş 157 QV, quruda isə 135 QV külək enerjisi potensialı, ümumilikdə 290 QV-dan çox bərpaolunan enerji ehtiyatı var. Bununla yanaşı, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları da alternativ və bərpa olunan enerji mənbələri ilə diqqət çəkir. Təsadüfi deyil ki, Azərbaycan Prezidenti İlham Əliyevin düşməndən təmizlənən yaşayış sahələri ilə bağlı müəyyənləşdirdiyi iqtisadi inkişaf kursunda həmin iqtisadi ərazilər "yaşıl enerji" zonasına çevriləcək əsas istiqamətlərdən biri hesab olunur.

Xatırladaq ki, işğaldan azad olunmuş ərazilərdə 4 min MVt-dan artıq günəş, 500 MVt-dək külək enerjisi potensialının mövcud olması əsasında aparılan quruculuq işlərində məhz "yaşıl enerji" layihələrinə üstünlük verilir. Eyni zamanda, Qarabağ Azərbaycanda yerli su ehtiyatlarının formalaşdığı əsas iqtisadi rayonlardan biridir.

Regiondakı digər mühüm enerji obyektləri Cəbrayıl rayonu ərazisində, Araz çayı üzərində inşası hazırda davam etdirilən və qoyuluş gücü 200 MVt olan "Xudafərin" və 80 MVt olan "Qız Qalası" su elektrik stansiyalarıdır. Hər iki su elektrik stansiyasının inşasının 2–2,5 il ərzində yekunlaşdırılması nəzərdə tutulur.

"AzərEnerji" ASC tərəfindən işğaldan azad edilən ərazilərdə 2020-2023-cü illər ərzində 11 yenidən qurulan və bərpa edilən kiçik su elektrik stansiyasında indiyədək, ümumilikdə, 110 milyon kilovat/saat (kVts) "yaşıl enerji" istehsal olunub. Kəlbəcər, Laçın və Zəngilan rayonlarında 7 SES-in tikintisinin yaxın aylarda yekunlaşacağı planlaşdırılıb. Yaxın günlərdə isə Kəlbəcər və Laçında daha 9 SES-in qurulmasına başlanılıb.

Mütəxəssislərin bildirdiyinə görə, hər bir SES-də çayın 50 faizinin təminatı nəzərə alınır. Başqa sözlə, ekoloji normanın saxlanılması üçün derivasiya boruları çayın axını ilə paralel quraşdırılır və həmin borulardan çıxan su da təkrar çaya buraxılır. Bütün yerlərdə su ehtiyatlarından səmərəli istifadə olunması, daşqınların qarşısının alınması və su itkisinə yol verilməməsi üçün çayın məcrasına uyğun idarə olunan su qəbuledicilər tikilir. Çayda ekoloji axını avtomatik tənzimləyən və suyun həcmi az olduqda ətraf mühitin mühafizəsi məqsədilə özünü dayandıran Avropa istehsalı olan eko-turbinlər quraşdırılır. Eyni zamanda, tikinti zamanı aidiyyəti dövlət qurumları ilə razılaşdırılmış şəkildə təbii mühitin, flora və faunanın qorunması da xüsusi diqqətdə saxlanılır.

"AzərEnerji" ASC tərəfindən indiyədək yenidən qurulan və yaxın perspektivdə tikilərək istismara veriləcək 27 SES-in ümumi gücü 200 MVt-a yaxın olacaq və nəticədə ildə 600 milyon kilovat/saat ekoloji cəhətdən təmiz "yaşıl enerji" istehsal ediləcək.

***"Xalq qəzeti"***

## Bakı–Tbilisi–Ərzurum kəməri 12,7 milyard kubmetr qaz ötürüb

***7 ay ərzində respublikamızın magistral təbii qaz kəmərləri ilə 23 milyard 978,5 milyon kubmetr təbii qaz nəql edilib və əvvəlki ilin eyni aylarına nisbətən 4,6 faiz artım müşahidə olunub.***



Dövlət Statistika Komitəsindən verilən məlumata görə, bu dövrdə qaz nəqlinin 53,1 faizi Bakı–Tbilisi–Ərzurum (Cənubi Qafqaz Boru Kəməri–CQBK) boru kəməri vasitəsilə həyata keçirilib və bu kəmərlə 12 milyard 737,9 milyon kubmetr təbii qaz ixrac edilib.

## Neft-qaz sektoruna 3 milyard 237 milyon manat investisiya yatırılıb



***Dövlət Statistika Komitəsinin məlumatına əsasən, 2023-cü ilin 7 ayı ərzində ölkənin neft-qaz sektoruna 3 milyard 237 milyon manat həcmində vəsait yönəldilib ki, bu da illik 18,8 faiz çoxdur. Ötən ilin müvafiq dövründə sözügedən göstərici 2 milyard 724 milyon manat olub.***

Xatırladaq ki, keçən il Azərbaycanın neft-qaz sektoruna 5 milyard 400 milyon manat həcmində vəsait yönəldilib ki, bu da illik müqayisədə 6,3 faiz azdır.

***"Xalq qəzeti"***

## Sahibkarlığın İnkişafı Fondu 7 ayda 64,8 milyon manat kredit verib



**İqtisadiyyat Nazirliyi yanında Sahibkarlığın İnkişafı Fondundan bildirilib ki, qurum yanvar–iyul aylarında 1295 layihənin maliyyələşdirilməsinə 64,8 milyon manat kredit verib. Həmin güzəştli kreditlər hesabına 937 yeni iş yerinin yaradılması nəzərdə tutulub.**

Xatırladaq ki, son illərdə respublikada özəl sektorun dinamik inkişafı istiqamətdə bir sıra tədbirlər həyata keçirilib, iş adamlarına güzəştli kreditlərin verilməsi, investisiya təşviqi mexanizminin tətbiqinin davam etdirilməsi, xarici ölkələrdə ticarət evlərinin açılması, sahibkarların bu prosesə yaxından cəlb olunması daim diqqətdə saxlanılıb. Eyni zamanda, sahibkarlıq sahəsində yoxlamaların, lisenziyaların sayının minimuma endirilməsi, lisenziya verilməsi qaydalarının sadələşdirilməsi və şəffaflığın təmin edilməsi, bütün bunlarla bağlı dövlət dəstəyinin daha da artırılması sahibkarların xərclərinin azalmasına səbəb olub, eyni zamanda, büdcəyə vergi ödənişlərinin həcminin artırılmasını şərtləndirib.

Sahibkarlığın inkişafına mane olan inhisarçılıq, sahibkarlıq fəaliyyəti subyektlərinin dövlət qurumları tərəfindən qanunsuz yoxlanılması və çoxsaylı əsassız lisenziyaların verilməsi, sahibkarlar qarşısında qanunazidd tələblər irəli sürülməsi kimi neqativ halların aradan qaldırılması istiqamətində daha ciddi mübarizənin aparılması vacib şərtlərdir. Ona görə də daim sahibkarların hamisi kimi qətiyyətli qərarlar qəbul edən dövlətimizin başçısının müvafiq tapşırığı əsasında həyata keçirilən tədbirlər davamlı xarakter daşıyır, dövlət strukturları, ayrı-ayrı nazirliklər fəaliyyətlərində bu məqama mühüm önəm verirlər.

***"Xalq qəzeti"***

# Hayların "yeraltı müharibəsi" davam edir

## Ərazilərimizin minalardan təmizlənməsinə 30 il vaxt və 25 milyard ABŞ dolları tələb olunur




(əvvəli 1-ci səhifədə)

### Dünya birliyi niyə susur?

Azərbaycan Prezidentinin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev ermənilərin mina terror ilə bağlı "X" sosial şəbəkəsində yazı paylaşıb. Şöbə müdiri qeyd edib ki, 2020-ci ilin noyabrından indiyədək 300-dən çox dinc azərbaycanlı məhz mina qurbanı olub. Ermənistanın Azərbaycanın işğaldan azad etdiyi ərazilərinə 1 milyondan çox mina yerləşdirdiyinə diqqəti yönəldən Prezidentin köməkçisi Azərbaycanın dünyada minalarla ən çox çirklənmiş ölkələr sırasında olduğunu bildirib. Ermənistanın ölkəmizə qarşı mina terrorunu hələ də davam etdirdiyini vurğulayan H.Hacıyev bu məsələdə beynəlxalq təşkilatların susqunluğunun qəbuledilməz olduğunu yazıb.

Beynəlxalq mütəxəssislərin hesablamalarına görə, Azərbaycana ərazilərin minalardan tam təmizlənməsi üçün təxminən 30 il və 25 milyard ABŞ dolları vəsait lazımdır. Eyni zamanda, ölkəmiz tərəfindən həyata keçirilən monitorinqlər nəticəsində aşkar edilib ki, zərərsizləşdirilən minaların böyük əksəriyyəti Ermənistanda istehsalı olunub. Piyada əleyhinə aşkar edilən 1400 mina məhz bu qəbildəndir. Həmin minalar 2021-ci ildə Laçın yolu ilə Ermənistandan Azərbaycana gətirilərək sərhədyanı ərazilərdə basdırılıb. Həmçinin Azərbaycan Ordusunun bir hərbi mövqeyindən digərinə aparan yollar da separatçılar tərəfindən minalanıb. Bütün bu faktlar Ermənistanın 44 günlük Vətən müharibəsi başa çatdıqdan sonra törətdiyi cinayət əməllərinin kiçik mənzərəsidir.

### Terror onların "milli nizamnamə"sində yazılıb

Ermənilərin "dənizdən-dənizə" utopik ideyasını irəli sürən və onu gerçəkləşdirməkdən ötrü, hətta, terror fəaliyyətini belə məqbul sayan "Daşnaksütyun" partiyasının nizamnaməsi bu gün özünü müstəqil sayan Ermənistanın dövlət siyasətinə çevrilib, – desək, səhvə yol verməzik. Haylar bunu dəfələrlə sübuta yetiriblər. XXI əsrdə hayların mina terrorunu davam etdirməsi, günahsız insanların ölümünə bais olması onun özünün terrorçu mahiyyətindən imtina etmədiyinin göstəricisidir. Bu gün Azərbaycanın Qarabağ iqtisadi rayonunda, Şərqi Zəngəzurda baş verən mina partlayışları onu sübuta yetirir ki, Ermənistan üzərinə götürdüyü öhdəlikləri yerinə yetirmək niyyətindən uzaqdır. O, yenə terror aktları, təxribatlar törətmək yolu ilə öz mənhus niyyətini həyata keçirəcəyinə inanır.

Təəccüblüsü odur ki, vəziyyətdən xəbərdar olan beynəlxalq təşkilatlar, ayrı-ayrı ölkələrin parlamentləri, insan haqlarının müdafiəsi ilə məşğul olan qurumlar Azərbaycana qarşı davam etdirilən mina terroruna biganə qalıblar. Beynəlxalq qurumlar bu məsələdə Ermənistana ciddi təzyiq göstərməli, basdırdığı minaların dəqiq xəritələrini verməsini tələb etməlidirlər.

Bölgədə söz sahibinə çevrilmiş Azərbaycan dövləti bütün diplomatik səylərini cəmləyərək, dinc yolla bölgədə sülhə, sabitliyə və təhlükəsizliyə nail olmağa, qonşuluq münasibətlərini bərpa etməyə, qan tökülməsinin qarşısını almağa çalışır. Üstəlik, məğlub Ermənistana özünün xoşniyyətli, sülhməramlı əlini uzadır. Amma görünən odur ki, düşmən məkrli niyyətindən hələ də əl çəkmək fikrində deyil. Elə mina terroru ilə mülki əhaliyə – dinc azərbaycanlılara qarşı davam etdirdiyi "yeraltı müharibə" onların vaz keçmədiyi vəhşiliklərinin əyani və dəqiq sübutudur.

*İ.HƏSƏNQALA, "Xalq qəzeti"*

# Ermənistan prosesə başqa ölkələri də cəlb etməyə çalışır

## Şuşa Bəyannaməsini necə unutmaq olar?

**Bəlkə kimsə mənə irad tutacaq ki, rəsmi dövlət qəzeti üçün hazırlanmış materialda hansısa ölkənin ( hətta, o dövlətin oyuncaq, forpost olduğu dəfələrlə qeyd edilsə belə – İ. M.) başçısını riyakarlıqda, ikiüzlülükdə, terroru, təxribatı, işğalı dəstəkləməkdə ittiham etmək doğru deyil. Əgər elə bir irad eşitsəm, deyərəm ki, Nikol Paşinyanın adına həmin "epitetləri" Ermənistan ziyalıları neçə ildir ki, az qala hər gün yapışdırırlar. Düz edirlər. Çünki Nikol təkcə yalançı, fırıldaqçı, boşboğaz deyil. O, həm də anlamaz adamdır.**



Əgər nəyisə anlaya bilsəydi 44 günlük İkinci Qarabağ müharibəsinin yekunlarından nəticə çıxarardı. İndi müxalifətçiləri ittiham etmək üçün deyir ki, İkinci Qarabağ müharibəsi zamanı kimlərsə ( Robert Koçaryan və Serj Sarkisyanı nəzərdə tutur) qaçıb gizlənmişdi. Bəs özü harada idi? Kapitulyasiya aktını harada oturub imzalamışdısa, erməni ekspertlər hələ də öyrənə bilmirlər. Fərasətsizliyinə və digər mənfi keyfiyyətlərinə, utancgətirən əməllərinə haqq qazandırmaq üçün dəfələrlə deyib ki, mən həmin üçtərəfli bəyanatı imzalamasaydım, daha 20 min əsgərimiz ölə bilərdi. Bəs indi nə oldu? İndi niyə həmin 20 min əsgərin ölümə göndərilməsinə göstəriş verirsən?

Kütləvi informasiya vasitələrinin son günlər yaydığı çoxsaylı məlumatlar açıq-aydın sübut edir ki, Ermənistan rəhbərliyi hərbi əməliyyatların yenidən başlanmasına zəmin yaratmağa çalışır. Bildirilir ki, qanunsuz erməni quldur dəstələrinin üzvləri Qarabağ iqtisadi rayonunun yaşayış məntəqələrinə müxtəlif artilleriya qurğuları və hərbi texnika toplayır və burada atəş mövqeləri hazırlayırlar. "Humanitar yük" şousu nəticə verməyinə görə, ənənəvi terror və təxribat ssenarilərini işə salmağa çalışırlar.

Məqsəd nədir? Məqsəd hərbi əməliyyatları yenidən başlamaq və münaqişəyə Rusiya, İran və ya Fransanın da qarışmasına nail olmaqdır. Unudurlar ki, Rusiya rəhbərliyi Kremli elə bir bataqlığa salıb ki, bu ölkə hələ bir neçə il həmin vəziyyətdən çıxa bilməyəcək. Ona görə də Kreml rəsmiləri İrəvana "münaqişənin həllini gələcəyə saxlayın! – komandasını verməkdən o yana keçə bilməyəcək. Üstəlik, Moskva Ukrayna məsələsinə görə çoxsaylı sanksiyalarla üzləşdiyinə görə onlar hələ hansısa forpost ölkənin çağırışlarına, yalvarışlarına məhəl qoymaq halında deyillər.

Həm işğal dövründə, həm də İkinci Qarabağ müharibəsi günlərində İrəvanın əsas himayədarlarından olan İran İslam Respublikası isə özü üçün elə bir daxili problem yaradıb ki, indi artıq İrəvanın əvəzinə, kiminləsə düşmənçilik etməyə nə marağı var, nə də gücü. Bir tərəfdən də, rəsmi Tehran Şuşa Bəyannaməsi ilə yaxşı tanış olub. İran rəsmiləri həmin sənəddə yazılanların fərqindədirlər. Yəni İrəvan tədricən bu dayaqdan da məhrum olur.

İrəvanın digər "bacısı" Paris isə Laçın nəzarət-buraxılış məntəqəsi önündə toyuq yumurta üstündə oturan kimi, sakitcə mürgü vuran "Volvo" "tır"larının yanında dayanmaq üçün bir maşın "humanitar yük" göndərməklə öz işini bitmiş hesab edib.

Dehli isə həm coğrafi baxımdan, həm də Cənubi Qafqazdakı münaqişəyə hansısa bağlılıq baxımından çox uzaqdır. Erməni mətbuatı yazır ki, Hindistan rəhbərliyi Cənubi Qafqazda sülh yaradılmasının tərəfindədir. Əvvəla, sülh tərəfdarı olan ölkə münaqişədəki tərəflərdən hansınasa silah göndərməz. Hətta, o silahlar köhnə və yararsız olsa belə. İkinci, rəsmi Dehli, həqiqətən, sülh tərəfdarıdırsa, onda nə üçün on illər boyu davam edən Kəşmir münaqişəsinin həllinə nail ola bilmir? Çünki mövqeləri ədalətli deyil. Ədalətli mövqeyi olmayan kiminsə ermənilərin dərdinə dərman tapacağı da absurd və gülüncdür.

Ona görə də iş qalır Rusiya "sülhməramlılarının" köməyi ilə Qarabağa gətirilmiş İŞİD və PKK tör-töküntülərinə. Paşinyan və ətrafındakılar anlaya bilmirlər ki, məlum Şuşa Bəyannaməsini imzalayaraq üzərinə çoxsaylı öhdəliklər götürmüş Rəcəb Tayyib Ərdoğan Türkiyə rəhbərliyinə gəldiyi gündən bəri PKK deyilən qaniçənlərin qənimə çevrilib. Onların ən zəhərlisini dünyanın o biri başından tutub İmralıya gətirən Türkiyə üçün Qarabağdakı PKK silahlılarını dənə-dənə toplayıb təhlükəsizləşdirmək nə problemdir ki? Ümumiyyətlə, Şuşa Bəyannaməsi ölkələri üçün Qarabağda heç bir problem yoxdur. Əlavə edək ki, İraq Şam İslam Dövləti də Türk Ordusunun əlinin duzunu az görməyib. Ona görə də Qarabağa gətirilmiş İŞİD və PKK qüvvələri Ermənistanın hansısa arzusunu reallaşdırmaq gücündə deyil.

> ***Tərəflərdən hər hansı birinin fikrincə, onun müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına və ya təhlükəsizliyinə qarşı üçüncü dövlət və ya dövlətlər tərəfindən təhdid və ya təcavüz edildiyi təqdirdə, Tərəflər birgə məsləhətləşmələr aparacaq və bu təhdid və ya təcavüzün aradan qaldırılması məqsədilə BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə müvafiq təşəbbüs həyata keçirəcək, bir-birinə BMT Nizamnaməsinə uyğun zəruri yardım göstərəcəklər.***
>
> **Azərbaycan və Türkiyə prezidentlərinin imzaladığı Müttəfiqlik fəaliyyəti haqqında Şuşa Bəyannaməsindən**

O ki qaldı, Ermənistan rəhbərliyinin BMT Təhlükəsizlik Şurasına ünvanladığı müraciətlərə, birmənalı olaraq deyə bilərik ki, həmin addım "saman çöpündən yapışmaq"dan başqa bir şey deyil. Çünki bu qurum ötən əsrin 90-cı illərində bir milyona yaxın azərbaycanlının hüquqlarının qorunması məqsədilə dörd qətnamə qəbul etmişdi. 30 il öz qətnamələrini icra etməyə gücü çatmayan həmin təşkilat indi yalan, uydurma, absurd məsələlərə baş qoşacaq? İnanmıram ki, BMT TŞ İrəvanın xahişlərinə görə Azərbaycan və Türkiyə kimi qüdrətli dövlətlərlə münasibətləri korlasın. Hər halda, hər şeyi zaman göstərəcək.

*İttifaq MİRZƏBƏYLİ, "Xalq qəzeti"*

# Din adına rəzalət

## Yaxud erməni din xadimi Xocalını hansı məqamda xatırladı?

**Din xadimlərinin, ümumən kilsənin erməni qövmünün avantürizminin başlıca dayağı olduğunu bilirik. Onu da bilirik ki, kilsə tarix boyu özünün anarxist baxışları ilə millətçiliyi, şovinizmi təbliğ edib, türklərə və müsəlmanlara qarşı dərin nifrət və düşmənçilik hissi aşılayıb. Bu mənada hazırda haqqında söz açacağımız məsələ bəlkə yenilik sayılmamalıdır. Hesab edə bilərik ki, bu mənada təəccüblənəcək elə bir şey də yoxdur. Amma, sən demə, onun üzərində dayanmağa ehtiyac varmış.**

***

Əvvəlcə onu bildirək ki, idman siyasətdən uzaq tutulmalıdır. Elə biz də toplum olaraq məsələyə diqqət yetirməliyik. Bəzən idmançımızın erməni idmançı üzərində qazandığı qələbəni xüsusi formada təqdim edirik. Yada salaq ki, bir müddət əvvəl karyerasının başa vurmuş güləşçimiz son görüşündə erməni idmançıya qalib gəlmişdi. O, görüşdən sonra verdiyi açıqlamada heç vaxt erməni rəqibinə uduzmadığını bildirmiş və bununla öyündüyünü dilə gətirmişdi.




Uzun sözün qısası, bu sayaq fikirlərin ictimailəşməsi doğru deyil. Ən azı, ona görə ki, indiki halda həmin güləşçinin onun özündən də populyar həmkarları var və onların karyeraları ərzində erməni rəqibinə yenildikləri anlar olub. Yəni, həm erməni atletin azərbaycanlı rəqibini, həm azərbaycanlı atletin erməni rəqibini məğlubiyyətə uğratması haradan, hansı səmtdən diqqət yetirsək, idman hadisəsidir. Normal məntiq məsələyə məhz bu səpkidə yanaşmağı diktə edir. Tam anormal məqama keçid alarkən, ön planında dayanan isə erməni din xadimidir.




***

Məlum olduğu kimi, bir müddət əvvəl Azərbaycan karateçisi erməni rəqibinə uduzmuşdu. Əslində, sonradan məlum olacaqdı ki, mövcud qaydalar çərçivəsində hərəkət etməyən, qadağan olunmuş zərbə vuran erməni idmançının özüdür. Ancaq sosial şəbəkələrdə yayılmış video görüntü var idi ki, orada erməni idmançının zərbəsindən azərbaycanlı idmançı yerə yıxılır, huşunu itirir və həkimlər onu meydandan xərəkdə aparırlar.

Mümkündür ki, bu hadisəyə hansısa sıravi erməni xüsusi pafos versin və yekun nəticə etibarilə məhz həmvətəninin yolverilməz zərbə endirdiyi üçün yarışdan uzaqlaşdırıldığının fərqinə varmasın. Amma bunu erməni din xadimi edirsə, məsələ qəlizləşir. Durumu daha da qəlizləşdirən isə həmin videonun üzərindəki qeyddir. Rusca yazılmış qeydi təxmini tərcümə ilə təqdim edirik: "Erməni azərbaycanlını xocalılaşdırdı".

***

Burada başlıca məqam məhz "xocalılaşdırdı" sözündədir. Deməli, özünü din xadimi adlandıran, sosial şəbəkə hesabında, indiki halda facebook səhifəsində dini ayin icra etdiyi səhnənin fotosunu yerləşdirən şəxs, eyni zamanda, üzərində belə qansız, təfriqəçi fikrin yazıldığı video-görüntünü də paylaşır. Yəni, ortada din, dindar adına bu qədər böyük rəzalət var!

Digər tərəfdən, Xocalı faciəsini xüsusi vurğulamalıyıq. O faciəni ki, xalqımızın qan yaddaşına son dərəcə böyük dərd kimi yazılıb. Erməni din xadimi isə sanki bu yaşantını məsxərə predmetinə çevirir, Xocalının timsalında bir xalqın öz millətinin nümayəndələri tərəfindən başına gətirilmiş soyqırımına, bir növ, həqarətli münasibətini ortaya qoyur. Dinə qulluq göstərən birinin bu qədər qeyri-insani təbiətə malik olması, həqiqətən, dəhşətdir!

***

Sonda onu da deyək ki, Ermənistan mediası və qeyri-hökumət təşkilatları hər zaman belə bir fikir yayırlar: Türkiyədə, daha doğrusu, Azərbaycan türklərində ermənilərə qarşı patoloji nifrət var və sair və ilaxır. Bir müddət öncə bununla bağlı, guya, Bakı əhalisi arasında sorğu keçirən qurum da peyda olmuşdu. "Sorğu"da respondentlərə ünvanlanmış suallardan bəlli idi ki, onu təşkil edənlər hansı məqsədə kökləniblər. Suala diqqət yetirək: rus sülhməramlıları bölgəni tərk etdikdən sonra erməni uşağı ilə qarşılaşsanız, nə edərsiniz? Hələ saxta cavablara baxın: Uşağı görsəm, kölə edərəm; doğrayaram və sair.

Göründüyü kimi, "sorğu keçirənlər" öz mahiyyətlərini ortaya qoyurlar. Məqsəd isə bəllidir – azərbaycanlılarla ermənilərin birlikdə, dinc şəkildə ömür sürmələrinin mümkünsüzlüyünü göstərmək. Beləliklə ermənilər yaşayan Qarabağda Azərbaycanın hüquqi hakimiyyətinin qurulmasını əngəlləmək.

Əslində, həm erməni mediası, həm həmin "sorğuçular", həm də haqqında söz açdığımız erməni din xadimi davranışı ilə Ermənistanın inkişafının, erməni cəmiyyətinin, belə demək mümkünsə, sivil tərtibatının qarşısını aldığının fərqində deyil. Ən pisi də elə budur. Xaricdəki erməni havadarları isə Azərbaycanı anti-humanist davranışda günahlandırırlar. Belə insani hisslərdən uzaq, başqasının ağrı-acısından həzz alan faşist xislətlilərlə necə humanist olasan? Onsuz da insani dəyərləri anlamayacaq qədər iflicdirlər. Bir toplumun ki, din xadimi, yəni ziyalısı bu cür gerizəkalıdırsa, digərlərindən nə gözləyəsən?

*R.ƏVƏZ, "Xalq qəzeti"*

**Son illərdə ölkənin ərzaq təhlükəsizliyinin gücləndirilməsi üçün yerli istehsal potensialının və infrastruktur təminatının inkişafı xüsusi diqqətdə saxlanılıb. Ölkənin mövcud torpaq, su və iqlim resursları əsasında ilkin kənd təsərrüfatı məhsullarının yerli istehsalı hesabına özünütəminetmə göstəricisi, ümumilikdə, məqbul səviyyədə qərarlaşıb.**

# 7 ayda kənddə istehsal 7 milyard 262 milyon manata çatıb

## Bu, ötən ilin eyni dövrü ilə müqayisədə 3,3 faiz çoxdur

Yerli istehsal potensialı ilə yanaşı, respublikada ərzaq məhsulları ehtiyatlarının saxlanması üçün anbar infrastrukturunun və emal sənayesinin inkişafı üçün yaradılan baza da ölkəmizin ərzaq təhlükəsizliyi baxımından müstəsna əhəmiyyət kəsb edib. Belə ki, təbii resursların çatışmazlığına görə idxaldan asılılığımızın nisbətən yüksək olduğu məhsullar üzrə yerli emal sənayesinin və infrastrukturun yaradılması respublikanın ərzaq təhlükəsizliyini sabit şəkildə təmin etməyə imkan verib.

Ərzaq təhlükəsizliyinin gücləndirilməsi istiqamətində vaxtında görülən tədbirlər hazırda öz nəticələrini verir. Bu baxımdan Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 19 iyul tarixli "Ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsinə dair bir sıra tədbirlər haqqında" Fərmanı da xüsusi qeyd olunmalıdır. Bu sənəd ölkənin ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsini və ərzaq təhlükəsizliyinin gücləndirilməsini qarşıya mühüm vəzifə kimi qoyur.

Respublikada əsas ərzaq məhsulları üzrə ehtiyatların yaradılması ilə bağlı qərarlar qəbul olunub. Minimum istehlak səbətinin tərkibində əsas ərzaq məhsullarının tədarükü və emalı ilə məşğul olan sahibkarlara güzəştli şərtlərlə kreditlər, faiz subsidiyaları və vergi-gömrük güzəştləri verilib. Təkcə ötən il ərzində kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət tərəfindən maliyyə dəstəyi olaraq ərzaq təhlükəsizliyinin təmin edilməsi ilə bağlı tədbirlərin maliyyələşdirilməsi üçün 540 milyon manat vəsait sərf edilib.

Bütün bunların məntiqi nəticəsi Dövlət Statistika Komitəsinin yaydığı göstəricilərdə də diqqət çəkib. Belə ki, cari ilin yanvar–iyul aylarında Azərbaycanda 7 milyard 262 milyon manat dəyərində kənd təsərrüfatı məhsulları istehsal edilib. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə 3,3 faiz çoxdur.

Son 1 ildə ölkədə istehsal edilən bitkiçilik məhsullarının dəyəri 3,2 faiz artaraq 3 milyard 851 milyon manat, heyvandarlıq məhsullarının dəyəri isə 3,4 faiz artaraq 3 milyard 411 milyon manat olub.

Avqustun 1-nə kimi qarğıdalı da daxil olmaqla tarlalardan 2 milyon 902 min ton və yaxud ötən ilin eyni dövrünə nisbətən 1,7 faiz çox dənli və dənli paxlalı bitkilər, 1 milyon 243 min ton (4 faiz çox) tərəvəz, 388,8 min ton (eyni səviyyədə) bostan məhsulları, 8,1 min ton (5 faiz çox) üzüm, 2,9 min ton (0,5 faiz çox) günəbaxan, 9 min ton (53,6 faiz çox) şəkər çuğunduru, 1,8 min ton (0,7 faiz çox) tütün, 717,2 ton (15,4 faiz çox) yaşıl çay yarpağı yığılıb.

Onu da qeyd edək ki, cari il 18 rayonda 28 təsərrüfatla 22,4 min hektar pivotaltı sahənin 22 min hektarında (98,1 faiz) biçin aparılaraq 111,8 min ton məhsul istehsal edilib. Hər hektardan orta məhsuldarlıq 50,1 sentner olub.

Hazırda ərzaqlıq buğdanın dövlət tədarükü prosesi həyata keçirilir. Son dəstəyinin göstərilməsi ilə əlaqədar Dövlət Ehtiyatları Agentliyinin Kənd Təsərrüfatı, İqtisadiyyat və Maliyyə nazirlikləri ilə razılaşdırılmış təklifini nəzərə alaraq "Ərzaqlıq buğdanın dövlət tədarük qiymətinin müəyyənləşdirilməsi barədə" Sərəncam qəbul edib. Həmin sənəddə yerli ərzaqlıq buğdanın bir tonunun dövlət tədarük qiyməti 2023-cü il üçün 450 manat müəyyənləşdirilib.

Qeyd edək ki, "Ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsinə dair bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası



məlumata əsasən, indiyədək tədarük məntəqələrinə 29,8 min ton ərzaqlıq buğda təhvil verilib ki, bunun da 253 tonunu 1-ci sinif, 12,2 min tonunu 2-ci sinif və 17,3 min tonunu isə 3-cü sinif ərzaqlıq buğda təşkil edir.

Qeyd edək ki, Kənd Təsərrüfatı Nazirliyi ilə bağlamış müqaviləyə əsasən müasir suvarma sistemlərinin tətbiq edildiyi təsərrüfatlarda istehsal olunmuş və Dövlət Ehtiyatları Agentliyinə, həmçinin un dəyirmanlarına təhvil verilmiş ərzaqlıq buğdanın hər tonuna görə istehsalçılara 100 manat məhsul subsidiyası ödənilməsi qərara alınıb.

Ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsi, yerli ərzaqlıq buğda istehsalçılarının fəaliyyətinin stimullaşdırılması və onlara dövlət Prezidentinin Fərmanına əsasən, Kənd Təsərrüfatı Nazirliyi ilə bağlamış müqaviləyə görə, müasir suvarma sistemlərinin tətbiq edildiyi təsərrüfatlarda istehsal olunmuş və Dövlət Ehtiyatları Agentliyinə və un dəyirmanlarına təhvil verilmiş ərzaqlıq buğdanın hər tonuna görə istehsalçılara 100 manat məhsul subsidiyası ödəniləcək.

Bütün bununla yanaşı, 2023-cü ilin yanvar-iyun ayları ərzində Azərbaycan 350 milyon 428 min dollar dəyərində 348 min 774 ton meyvə-tərəvəz ixrac edib. Dövlət Gömrük Komitəsinin hesabatı əsasında apardığı hesablamalara görə, ötən ilin müvafiq dövrü ilə müqayisədə ölkədən ixrac edilən meyvə-tərəvəzin dəyəri 6,8 faiz və ya 22 milyon 319 min dollar, həcmi isə 13,8 faiz və ya 42 min 398 ton artıb. Keçən ilin ilk 6 ayında Azərbaycandan 328 milyon 109 min dollar dəyərində 306 min 376 ton meyvə-tərəvəz ixrac edilib.

Xatırladaq ki, cari ilin yanvar-iyun aylarında meyvə-tərəvəzin ümumi ixracda xüsusi çəkisi 1,78 faizə, qeyri-neft məhsullarının ixracında olan çəkisi isə 22,51 faizə bərabər olub.

Yeri gəlmişkən, hazırda ölkəmizdə kənd təsərrüfatında məhsul istehsalının artmasına yönələn tədbirlərin həyata keçirilməsi qarşıdakı illərdə ərzaq təhlükəsizliyinin gücləndirilməsini şərtləndirir. Ötən ilin iyul ayında qəbul edilən "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda ölkədə ərzaq təhlükəsizliyinin daha da gücləndirilməsinə xidmət edən layihələr məhz həmin məqsədi daşıyır.

Hazırda ölkəmizin buğda ehtiyatının dayanıqlığı üzərində iş aparılır. Qarşıdakı illərdə 80–100 min hektar arasında torpağın əkin dövriyyəsinə cəlbi planlaşdırılır. Prezident İlham Əliyev çıxışlarının birində bununla bağlı deyib: "İndi isə işğaldan azad olunmuş Qarabağın və Şərqi Zəngəzurun böyük kənd təsərrüfatı potensialı var. Hazırda Kənd Təsərrüfatı və İqtisadiyyat nazirlikləri, həmin zonalarda Prezidentin xüsusi nümayəndələri və digər qurumlar birgə çalışırlar ki, kənd təsərrüfatına uyğun torpaqlardan maksimal səmərəliliklə istifadə edilsin. Çünki 30 il ərzində Ermənistan qanunsuz olaraq torpaqlarımızı istismar edib, lakin bu da səmərəsiz edilib. Onlar heç bir vəsait yatırmayıb, sadəcə, torpaqdan istifadə ediblər və bu səbəbdən məhsuldarlıq Azərbaycanda digər növlərlə müqayisədə üç dəfə aşağı olub. İndi isə biz azad olunmuş ərazilərə qayıdacaq fermerlərimiz üçün hansı məhsulların yetişdirilməsi ilə bağlı tövsiyələr hazırlayırıq və zənnimcə bu iş bitib. Biz onları məcbur edə bilmərik. Lakin güzəştli subsidiyalarla biz onları istiqamətləndirə bilərik ki, bəzi torpaqlar kartof, digərləri başqa tərəvəz və meyvələr üçün istifadə edilsin".

Qeyd edək ki, Qarabağda və Şərqi Zəngəzurda bitkiçiliklə yanaşı, heyvandarlıq da inkişaf etdirilir. Artıq qoyunçuluq təsərrüfatları yay aylarında Kəlbəcər və Laçın yaylaqlarına köçürülür.

***V.BİNYATOĞLU, "Xalq qəzeti"***

**Ekspert rəyi**



**Hüseynqulu QULİYEV, iqtisadçı-ekspert**

Ərzaq təhlükəsizliyinin təminatında strateji əhəmiyyəti olan taxılçılıq kənd təsərrüfatı sektorunun aparıcı sahələrindən biridir. Bitkiçilik sahəsinə aid olan taxılçılıq aqrar sektorun əsasını təşkil edərək əhalinin çörək və çörək məmulatlarına tələbatını ödəməklə yanaşı, həm də heyvandarlığın yemə ehtiyacının təminində mühüm rol oynayır. Ona görə də taxılçılıq təsərrüfatının inkişafı prioritet istiqamətdir.

Prezident İlham Əliyev çıxışlarının birində bu məsələyə toxunaraq taxılçılığın ərzaq təhlükəsizliyində mühüm əhəmiyyət daşıdığını diqqətə çatdırıb. Dövlətimizin başçısı bu istiqamətdə əsas tələbatın təmin olunmasını zəruri şərt hesab edib. Ölkə rəhbəri taxıl istehsalında 100 faiz təminatı böyük torpaq sahələrinin şərtləndirdiyini bildirib.

Fikrimcə, Ermənistanın uzun illər ərzində qanunsuz istismar etdiyi torpaqlarımız dövriyyəyə daxil edildikdən sonra dövlət başçımızın yuxarıda xatırlatdığım fikri gerçəkləşəcək. Yəni ölkəmiz taxıl istehsalında 100 faiz təminat məqsədini reallaşdıracaq.

Onu da qeyd edim ki, hazırda taxıl istehsalçıları olan fiziki və hüquqi şəxslərə dövlət büdcəsindən ayrılan subsidiya hesabına arpa və buğda toxumları, gübrə, dərman və herbisidlər alınaraq verilir.

Taxıl istehsalının artırılmasının əsas yollarına gəldikdə isə deyə bilərəm ki, burada əsas rolu qısa rotasiyalı əkin dövriyyələri, torpaq becərmələri, gübrə verilməsinin səmərəli üsulları, həmçinin optimal səpin müddəti və normalarının, yeni intensiv sortların təsərrüfatlara tətbiqi, keyfiyyətli toxum materialından istifadə edilməsi və əkinlərin xəstəlik, ziyanverici, eyni zamanda, alaqlardan mühafizə olunması kimi amillər oynayır.

Göstərilən becərmə kompleksinə daxil olan əhəmiyyətli tədbirlərdən biri də taxıl səpininin vaxtında və keyfiyyətlə aparılmasıdır. Keyfiyyətli səpin aparmaqla sağlam və kütləvi cücərtilərin alınması məhsulun yarısı deməkdir. Yüksək texnologiya əsasında fəaliyyət göstərən, müasir aqro tələblərə əməl edən təsərrüfatların əkin sahələrində yüksək göstəricilərə nail olunması məhz bunun bariz ifadəsidir.



## Hacıqərvənd taxılçılarının uğuru

**Taxıl əkini həmişə Tərtər rayonunun Hacıqərvənd kəndində diqqət mərkəzində olub. Hazırda dünyada taxılın və taxıl məhsullarının qiymətlərinin kəskin artdığı bir şəraitdə Hacıqərvənddə də taxıl əkininə qayğı ilə yanaşırlar. Belə ki, ötən ilin payızında burada 220 hektar sahədə buğda, 150 hektarda arpa əkilmişdi. Əvvəlki illərdən fərqli olaraq pay torpaq sahibləri və fermerlər suvarmada çətinliklərlə üzləşmədikləri üçün zəmilərdən bol məhsul götürmüşlər. Buğda üzrə hektarın məhsuldarlığı 55 sentner, arpa üzrə 61,8 sentner olub.**

Hacıqərvənd Bələdiyyəsinin sədri Kəmaləddin Heydərov bildirdi ki, taxılçılıqda ən yüksək göstəriciyə Bəylər Abbasov nail olub. Fermer özü bu barədə dedi:

– Taxıla, çörəyə hörmət xalqımıza xas olan gözəl xüsusiyyətdir. Son illərdə Ukraynada gedən müharibə ilə bağlı yerli taxıl istehsalını artırmağı qarşımıza məqsəd qoymuşuq.

## Əhalinin gəlirləri 15 faiz artıb

**Bu ilin yanvar–iyul aylarında Azərbaycan əhalisinin gəlirləri 44 milyard 558 milyon manat təşkil edib.**



Dövlət Statistika Komitəsinin məlumatında həmin göstəricinin ötən ilin eyni dövrü ilə müqayisədə 14,8 faiz çox olduğu bildirilib. Qeyd edək ki, son 1 ildə ölkədə adambaşına düşən nominal gəlir isə 14,1 faiz artaraq 4 min 394 manata çatıb.

***"Xalq qəzeti"***

# Bərdədə bol məhsul ilidir

**Azərbaycanın heyvandarlıq, pambıqçılıq və taxılçılıqda böyük ənənələrini yaşadan Bərdədə artıq taxıl biçini başa çatıb. Sahələrdən 60 min 385 ton buğda, 17 min 885 ton arpa toplanıb. Bundan başqa, indiyədək 1518 ton qarğıdalı yığılıb. Hər hektardan orta məhsuldarlıq buğda üzrə 45,8 sentner, arpa üzrə 41,7 sentner, qarğıdalı üzrə 81,2 sentner təşkil edib.**



Hazırda rayonda kütləvi pambıq yığımına hazırlıq gedir. Bərdə 1970–1980-ci illərdə Azərbaycanın ən çox pambıq tədarük edən rayonlarından biri idi. 1981-ci ildə burada 28 min hektar pambıq tarlasından 126 min tona yaxın məhsul tədarük edilmişdi. Lakin 1990-cı illərdən başlayaraq bu sahəyə maraq azalmışdı. Dövlətimizin başçısının tapşırıq və göstərişləri nəticəsində rayonda pambıqçılıq yenidən inkişaf dövrünə qədəm qoydu.

Prezident İlham Əliyev əmək tutumu böyük, gəlir imkanları geniş olan bu sahənin inkişafını ölkədə aqrar sektorun əsas istiqamətlərindən biri kimi müəyyənləşdirdi. Pambıqçılığa çox ciddi dövlət dəstəyi göstərildi. Görülən işlər Bərdə rayonunda pambıqçılığın inkişafına yenidən təkan verdi. Rayon sakinlərinin pambıqçılıq sahəsində təcrübəsi, bölgədə olan mövcud pambıq emalı zavodlarının potensialı pambıq istehsalını artırmaq üçün stimul yaratdı.

Bunun nəticəsidir ki, 2015-ci ildən başlayaraq Bərdədə pambıq sahələri artırıldı. İnnovativ becərmə və müasir suvarma texnologiyaları və qabaqcıl təcrübələrin tətbiqi, yüksək keyfiyyət göstəricilərinə malik pambıq sortlarının səpini məhsuldarlığı artırdı. Bundan başqa, pambıqçılıq sahəsində fəaliyyət göstərən mütəxəssislərin bilik və bacarıqlarının artırılması məqsədilə qısa müddətli təlim kursları təşkil edildi, eyni zamanda, pambıq sahələrində pestisidlərdən istifadə zamanı təhlükəsizlik qaydalarına əməl olunması üçün ciddi tədbirlər həyata keçirildi. Bunlar isə məhsuldarlığa təsir edən amillərdir. Ötən il ərzində 11 min hektar sahədən 35 min 954 ton pambıq toplanıb. Hər hektardan orta məhsuldarlıq pambıq üzrə 32,6 sentner olub. Bu il daha yüksək məhsul gözlənilir.

Bərdədə digər kənd təsərrüfatı məhsullarında da artım var. 2023-cü ilin yanvar–iyun aylarında rayonda 232 milyon 733 min manatlıq kənd təsərrüfatı məhsulları istehsal edilib ki, onun 130 milyon 831 min manatı və ya 56,2 faizi bitkiçiliyin, 101 milyon 902 min manatı və ya 48,3 faizi heyvandarlığın payına düşüb. 2022-ci ilin yanvar–iyun ayları ilə müqayisədə kənd təsərrüfatı məhsullarının istehsalı 21,2 faiz artıb. Bu il 1600 ton kartof, 86 min 541 ton tərəvəz, 34 min 820 ton bostan məhsulları, 51 min ton meyvə və giləmeyvə yığılıb.

***Pünhan ƏFƏNDİYEV, "Xalq qəzeti"***

# Xurma gəlirli məhsula çevrilir

## Ölkəmiz bu meyvənin istehsal və ixracında dünya üçüncüsüdür

**BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) məlumatında bildirilir ki, Azərbaycan dünyada xurma istehsalçıları və ixracatçıları sırasında ilk üçlüyə daxildir. Respublikamız 192,4 min metrik tonla dünyanın 3-cü əsas xurma istehsalçısıdır.**

Qlobal bazarda əsas xurma tədarükçüləri Çin (3 milyon 429,4 min metrik ton), Cənubi Koreya (200,6 min metrik ton), Azərbaycan (192,4 min metrik ton), Yaponiya (187,9 min metrik ton) və Braziliya (170,2 min metrik ton) olub.



Qlobal xurma bazarının 2023–2028-ci illərdə illik 6,16 faizlik artım tempi ilə böyüyəcəyi gözlənilir. Son nəticədə, bu bazarın həcmi 2023-cü ildə 0,84 milyard ABŞ dollarından 2028-ci ildə 1,13 milyard ABŞ dollarına yüksələcəyi proqnozlaşdırılır.

Xatırladaq ki, 2021-ci ildə xurmanın ixrac dəyəri 2018-ci illə müqayisədə 12,7 faiz artaraq 620,1 milyon ABŞ dollarına yüksəlib. Bu dövrdə İspaniya, Azərbaycan və Özbəkistan xurma meyvəsinin aparıcı ixracatçıları olub.

Qeyd edilən artımın əsas səbəbi idxalçı ölkələrdə xurmanın yüksək qiymətlərə alınması ilə bağlıdır. Almaniya, ABŞ və s. kimi istehsalı olmayan və ya az olan bir çox ölkələrdə xurma meyvələrinə tələbat yüksəkdir. Bu ölkələr Çin kimi istehsalın çox olduğu ölkələrdən idxal edirlər. Maraqlıdır ki, Çin aparıcı ixracatçı olmaqla həm də ən çox idxal edən ölkələrdən biridir.

***"Xalq qəzeti"***

Gör-götür dünyası

# Türkiyə təhsil sahəsində necə önə çıxıb?

**Hazırda Türkiyə xarici tələbələrin sayına görə dünyada ilk onluqda qərarlaşıb. Qardaş ölkənin universitetlərinə üstünlük verən əcnəbi gənclərin sayı da get-gedə artaraq 200 mini keçib. Bəs, Türkiyədə təhsil nəyə görə belə cəlbedicidir? Qazi Universitetinin doktorantı, araşdırmaçı Şəhla Aslan ilə söhbətimizdə bu suala aydınlıq gətirməyə çalışdıq.**



***– Şəhla xanım, sizcə, qardaş ölkənin təhsil uğurları nə ilə əlaqədardır?***

– Müxtəlif səbəblər var: Türkiyənin regionun lider dövlətinə çevrilməsi, dünya reytinqlərində öncüllüyü, əlverişli coğrafi şəraiti, digər dövlətlərlə səmərəli əlaqələri, təhsilin keyfiyyəti, təqaüd proqramları və s. qardaş ölkədə təhsilə marağı artırıb. Bu amillər fonunda son illərdə həm bakalavr və magistratura, həm də doktorantura təhsili almaq üçün Türkiyəyə üz tutanlar çoxalıb.

Xarici tələbələrin arasında azərbaycanlılar çoxluq təşkil edir. 2022–2023-cü tədris ili üzrə rəqəmlərə nəzər salsaq görərik ki, müxtəlif ali təhsil müəssisələrində 30 minə yaxın Azərbaycan vətəndaşı müxtəlif istiqamətlər üzrə təhsil alır.

İki ölkə arasındakı dil yaxınlığı və milli-mənəvi dəyərlərin ortaqlığı, viza tələbinin olmaması, təqaüd imkanları, yaşayış xərclərinin əlçatanlığı, sığorta sistemi hər il minlərlə azərbaycanlı gəncin Türkiyə universitetlərini seçməsini şərtləndirir. Digər tərəfdən, məsafə yaxındır, təhsil haqqının məbləği digər ölkələrə nisbətdə daha aşağıdır. Yüksək səviyyədə savadlı və peşəkar pedaqoqların tədris və təlimi müasir texnologiya və avadanlıqlar vasitəsilə aparması, inkişaf etmiş infrastruktur da önəmli amillərdir.

Onu da deyim ki, Türkiyə tələbələrə xüsusi münasibəti ilə seçilir. Universitet kampuslarında fasiləsiz internet xidməti, zəngin kitabxanalar, yeməkxanalarda xüsusi menyular, ictimai nəqliyyatda, alış-verişdə tələbə endirimləri də cəlbedicidir. Tələbələrə müxtəlif təcrübə proqramları təklif edilir. Onlar təhsil müddətində müxtəlif özəl və dövlət qurumlarında təcrübə keçib, iş həyatına hazırlanırlar. Bütün bu sadaladıqlarım xarici tələbələri Türkiyə universitetlərində təhsilə sövq edən ciddi üstünlüklərdir.

***– Qardaş ölkədə universitetlərə qəbul necədir?***

– Türkiyə universitetləri dövlət və özəl olmaqla təsnifatlanır. Ali təhsilin ilkin pilləsi olan bakalavr dərəcəsi ixtisaslarına qəbul edilmək üçün YÖS, DİM və SAT imtahan nəticələrindən heç olmasa biri vacibdir. Lakin bununla yanaşı, heç bir imtahanda iştirak etmədən və yalnız təkcə orta məktəb attestatı ilə də bir çox dövlət və ya özəl universitetə daxil olmaq mümkündür. Amma yüksək reytinqli universitetlər bu yolla tələbə qəbul etmirlər.

Adını çəkdiyim YÖS mərkəzləşdirilmiş sistem deyil, əsasən, universitetlərin daxilində keçirilən bir imtahandır. YÖS imtahanında iştirak etmək istəyən abituriyentlər birbaşa üz tutacağı universitetlə əlaqə saxlayıb qeydiyyatdan keçərək, əsas binada və ya seçilmiş mərkəzdə imtahana qatıla bilərlər. DİM – Azərbaycan Dövlət İmtahan Mərkəzinin keçirdiyi qəbul imtahanı nəticəsi ilə də Türkiyənin dövlət və ya özəl universitetlərində qəbulu ehtiva edir. SAT isə o deməkdir ki, bu sistem üzrə imtahanların nəticələri, demək olar ki, bütün universitetlər tərəfindən tanınır.

Magistratura və doktorantura üzrə qəbul şərtləri universitetlərin müvafiq institutlarına görə dəyişir. Bakalavr pilləsi üzrə məzunlar üçün akademik göstəricilər və dil bilgisinə dair beynəlxalq sertifikatlar əsas rol oynayır.

***– Dövlət səviyyəsində tələbə mübadiləsi nə yerdədir?***

– Tələbələrə Erasmus, Mevlana, İkili diplom proqramları üzrə xaricdə təhsil almaq, müxtəlif ölkələrdə təcrübə keçmək kimi imkanlar təklif edilir. Müxtəlif müəssisələr “Tələbə təcrübə proqramları” çərçivəsində də yer dəyişimi həyata keçirirlər. Bu proqramlar təhsil, yemək və yaşayış xərclərinin tam ödənilməsini təmin edir. Proqramlar vəsiləsilə tələbələr təhsillərini bir semestri oxuduqları universitetin partnyor olduğu hər hansı xarici ölkənin universitetində davam etdirə bilirlər. Bunlar tələbələr üçün olduqca əhəmiyyətli fürsətlərdir.

Yeri gəlmişkən, xaricdə təcrübə proqramında iştirak etmək tələbəyə istər iş həyatında, istərsə də şəxsi inkişaf yolunda çox sayda üstünlüklər gətirir. Beynəlxalq təhsil mühitində iştirakçı olmaq, istənilən iş müraciəti zamanı digər namizədlərdən fərqlənmək deməkdir. Eyni zamada, bu təcrübə imkanından yararlanmaq və mədəniyyətlərarası ünsiyyət bacarıqları qazanmaq, gedilən ölkənin dilini və yaşam tərzini daha yaxşı mənimsəmək produktivliyi yüksəltmiş olur. Tələbələr təhsil müddətində fürsətlərdən yaxşı faydalanmalıdırlar.

***– İmtahansız qəbul barədə nə deyə bilərsiniz? Bununla bağlı bəzi neqativlərin olması gizli deyil...***

– Azərbaycanda attestatla, yəni, imtahansız qəbulla bağlı müəyyən sayda qondarma şirkətlər meydana çıxıb. Bunların çoxu müştəri cəlbi üçün yanlış, etibarsız məlumatlar verirlər. Abituriyenlər üçün yüksək ödəniş qarşılığında universitetlərdən “qəbul alan” həmin təhsil şirkətləri çox da inanılası deyillər. Haradansa attestatla “qəbul alıb” Türkiyəyə oxumağa gələn tələbələr ciddi problemlərlə üz-üzə qalırlar. Şirkətlərin heç də hamısı doğru məlumat vermir və etibardan sui-istifadə edir, yalan vədlərlə inamı sarsıdırlar.

Şirkət tərəfindən söylənilənlərlə real şərtlər çox zaman tərs-mütənasib olur. Nəticədə isə tələbə dərslərə başlaya bilmir, arada vaxt da gedir, şirkətə ödənilən pul da batır. Texnologiyanın geniş inkişaf etdiyi hazırkı dövrdə universitetlər haqqında məlumat almaq, təhsil üçün müraciət etmək olduqca əlçatandır. Yaxşı olar ki, müraciətləri tələbələr özləri etsinlər. Rəsmi yolla, ciddi universitetlərdə təhsil alıb, uğurlu məzun olmaq lazımdır ki, sonra diplomların Azərbaycanda tanınması məsələsində də problem yaşamayasan.

Türkiyədə təhsil almağı düşünən tələbələr öncəliklə, büdcələrini dəqiq təyin etməli və oxumaq istədikləri universiteti, coğrafi şəraiti dəqiq araşdırmalıdırlar. Doğru universitet seçimi təhsil almaq üçün ən vacib qərardır. Universitetin reytinq göstəriciləri, yəni, beynəlxalq tanınma dərəcəsi və s.

***– Türkiyədə təhsil haqları necədir?***

– Təhsil haqları universitetlərə və fakültələrə görə müxtəlifdir. Özəl və dövlət universitetlərində həmin rəqəmlər nisbətində fərqlər var. Məsələn, bizim Qazi Universitetində ödəniş keçən il təhsil fakültəsində illik 350–400, mühəndislik fakültəsində 470–500, tibb fakültəsində isə 6 min manat civarında olub.

Yeri gəlmişkən onu da deyim ki, bu il Türkiyədə bütün universitetlərdə təhsil haqqının ikiqat artması gözlənilir. Bəziləri artıq yeni məbləğləri açıqlayıblar.

***– Diplomu tanınan və tanınmayan universitetləri necə ayırd etmək olar?***

– Bununla bağlı konkret bir siyahı yoxdur. Lakin Azərbaycan dövlətinin rəsmi qaydaları, müvafiq şərtləri mövcuddur. Təhsil müddətində həmin şərtləri yerinə yetirib, uğurla məzun olmuş tələbələrin aldığı diplomların Azərbaycanda rəsmi tanınmasında problem yaşanmır. Distant təhsil forması ilə məzun olan tələbələrin diplomları isə tanınmır.

***– Şəhla xanım, dövlət səviyyəsində tələbə mübadiləsi necə aparılır?***

– Dediyim kimi, tələbələrə Erasmus, Mevlana, İkili diplom proqramları üzrə xaricdə təhsil almaq, müxtəlif ölkələrdə təcrübə keçmək kimi imkanlar təklif edilir. Ayrıca, müxtəlif müəssisələr “Tələbə təcrübə proqramları” çərçivəsində də tələbə yerdəyişimi həyata keçirirlər. Bunlar olduqca əhəmiyyətli fürsətlərdir.

Xaricdə təcrübə proqramında iştirak etmək tələbəyə istər iş həyatında, istərsə də şəxsi inkişaf yolunda saysız üstünlüklər gətirir. Beynəlxalq təhsil mühitində iştirak iş üçün müraciət zamanı digər namizədlərdən fərqlənmək deməkdir. Eyni zamanda, bu, təcrübədən yararlanmaq və mədəniyyətlərarası ünsiyyət bacarıqları qazanmaq, başqa ölkənin dilini və yaşam tərzini daha yaxşı mənimsəmək imkanıdır. Tələbələr təhsil müddətində belə fürsətlərdən yaxşı faydalanmalıdırlar.

***– Tələbələr, əsasən, harada, hansı şərtlərlə qalırlar?***

– Türkiyənin bütün şəhərlərində tələbələr üçün yaxşı şəraitli, təmiz özəl və dövlət yataqxanaları mövcuddur. Yeməkxana, geniş oxu və idman zalları var. Tələbələr öz seçimi əsasında büdcəsinə görə tək və ya bir neçə nəfərlik otaqlarda yerləşdirilir. Hər kəs burada məxsusi qayda-qanuna riayət etməlidir. Giriş-çıxış saatlarına nəzarət var. Tələbə icazə almadan gecə saatlarında yataqxanaya dönürsə, valideyninə bildiriş gedir. Təbii ki, bakalavr tələbələri üçün belə nəzarət zəruridir.

Ayrıca, kirayə evdə qalmağı seçən tələbələr də az deyil. Bunlar daha çox magistrlər və doktorantlar olurlar. Onlar daha çox sərbəst yaşamağa üstünlük verirlər. Yeri gəlmişkən, əvvəlki illərdə Türkiyədə ev sahibləri daha çox uzun müddət yaşayacaq və ya ailəli adamlara ev verməyə həvəsli idilərsə, hazırda durum dəyişib. Ev sahibləri daha çox tələbələrə, xüsusilə sonuncu kurslarda oxuyanlara otaq verməkdə maraqlıdırlar. Çünki tələbə təhsilini bitirib gedəcək, ev sahibi də evi yeni (yüksək) qiymətlə başqasına kirayəyə verəcək. Kirayə qiymətləri isə getdikcə bahalaşır. Qalma şərtləri ev sahiblərinə görə dəyişir. Məsələn, bəzi ev sahibləri Türkiyə vətəndaşı olan kiminsə zamin durmasını istəyir. Bəziləri də 1–2 aylıq kirayə haqqını öncədən depozit olaraq istəyirlər və s.

**(Ardı var)**

***Hazırladı:***
***Əli NƏCƏFXANLI, “Xalq qəzeti”***

İdman

# Azərbaycan komandası II MDB Oyunlarında uğurla çıxış etdi



**(əvvəli 1-ci səhifədə)**

Mükafatların əsas hissəsi döyüş idman növləri – güləş, karate, boks, cüdo, muaytay, sambo üzrə qazanılıb. Amma atıcımız Leyli Əliyeva və ağırlıqqaldıran Dadaş Dadaşbəylinin də qızıl medallarını, bədii gimnastika üzrə isə gənclərdən ibarət komandamızın çoxnövçülük, həmçinin 5 top, 5 iplə hərəkətlərin icrasında bürünc medallarını da unutmamalıyıq. Təəssüf ki, mini futbol, çimərlik futbolu, eyni zamanda, atletika, kamandan oxatma, üzgüçülükdə medallarımız olmadı.

**Gənclər və İdman Nazirliyinin İdman şöbəsinin müdiri Elnur Məmmədov jurnalistlərlə açıqlamasında yarışın nəticələrinin, ümumilikdə, yaxşı olduğunu bildirib.** O qeyd edib ki, iki il əvvəl Rusiyanın Kazan şəhərində keçirilmiş ilk MDB Oyunlarında Azərbaycan 60 medal əldə etmişdisə, budəfəki yarışda 62 medal qazanıldı. Həmin vaxt yarışı medalların əyarına görə 4-cü, sayına görə isə 5-ci sırada başa vurmuşduq. II MDB Oyunlarında isə komandamız həm medalların əyarı, həm də sayına görə 4-cü sırada qərarlaşdı. Yığmamız əvvəlki yarışla müqayisədə daha yaxşı nəticə göstərdi.

E.Məmmədov 2025-ci ildə Azərbaycanda keçiriləcək III MDB Oyunlarında komandamızın ən yaxşı nəticə göstərməsi üçün lazımi işlərin görüləcəyini söyləyib. Onun sözlərinə görə, federasiyalarla birgə ümumi təhlil aparılacaq, uğurlarla yanaşı, hansı idman növündə uğur olmayıbsa onun da səbəbləri araşdırılacaq.

**Azərbaycan Milli Karate Federasiyasının prezidenti Yaşar Başirov Oyunlarda 22 karateçidən ibarət heyətin iştirak etdiyini vurğulayıb:** “Komandamızın heyətində 22 idmançı mübarizə aparırdı ki, onlardan da 11-i medal qazandı. Bu, o deməkdir ki, hər iki idmançıdan biri mükafat əldə etdi. Bundan əvvəlki analoji oyunlarda 1 qızıl medal qazanmışdıqsa, bu dəfə 3 idmançımız fəxri kürsünün ən yüksək pilləsinə qalxdı. Azərbaycan idman ölkəsidir. Biz bunu çıxışımızla bir daha sübut etdik”.

**Kişilərdən ibarət karate üzrə milli komandamızın baş məşqçisi Qurban Tağıyev oyunlarda yığmanın çox yaxşı çıxış etdiyini bildirib:** “Yarış yüksək səviyyədə təşkil olunmuşdu. İdmançıların öz potensiallarından istifadə etmələri üçün hər bir şərait yaradılmışdı. Komandamız onlara bəslənilən ümidləri doğrultdu. Sevinirik ki, ölkəmizi bu nüfuzlu yarışda layiqincə təmsil edə bildik”.

**Yarışda qızıl medal qazanmış karateçi Abbas Dadaşov (84 kq)** deyib ki, Kazanda keçirilən I MDB Oyunlarında bürünc medala sahib olmuşdusa, bu dəfə qalib adını qazanıb: “Belə yarışlarda asan rəqib olmur. Hamımız turnirə maksimum səviyyədə hazırlaşmışdıq. Kazan Oyunlarında bürünc medal qazanmışdım. Hədəf qızıl medal idi. Sevinirəm ki, qarşıya qoyduğum məqsədə çatdım”.

**Komandamızın digər üzvü, gümüş mükafatçı Fidan Teymurova** finalda taktiki səhvlə uduzduğunu deyib: “Qızıl medal ala bilərdim. Qarşıdakı yarışlara daha yaxşı hazırlaşacağam”.

**Muaytay üzrə Azərbaycan milli komandasının baş məşqçisi Azər Həsənsoy yarışın yüksək səviyyədə təşkil olunduğunu bildirsə də, hakimlikdən razı qalmadığını deyib.** O qeyd edib ki, idmançılardan qızıl medal gözləyiblər: “Komandamız yarışa yaxşı hazırlaşmışdı. Vətənə bir neçə qızıl medalla dönəcəyimizi düşünürdük. Təəssüf ki, hakimlərin kobud səhvi nəticəsində qızıl medal qazana bilmədik. Amma buna baxmayaraq nəticə yüksəkdir. 11 idmançımızdan 9-u medal qazanıb”.

**Oyunların bürünc medal qazanmış samboçusu Rəsul Aydəmirov (98 kq) qızıl medal üçün təcrübəsinin çatmadığını bildirib:** “Böyüklər arasında ilk yarışım idi. Bundan əvvəl gənclərin yarışlarında iştirak etmişəm. Bu yarış mənim üçün böyük təcrübə oldu. Qarşıda dünya çempionatı gəlir. Çalışacağam ki, həmin yarışa daha yaxşı hazırlaşım və qalib adını qazanım”.

Beləliklə, daha bir önəmli yarışda 10 qızıl, 17 gümüş, 35 bürünc medal qazanan komandamız öz gücünü bir daha sübut etdi. Bu yarışın ölkəmiz üçün əhəmiyyəti həm də ondan ibarətdir ki, növbəti oyunlara məhz Azərbaycan ev sahibliyi edəcək. Belə ki, III MDB Oyunları 2025-ci ildə Azərbaycanın ikinci böyük şəhəri olan Gəncədə keçiriləcək.

# Qələbəyə doğru daha bir addım

**Dünya şahmatının ən güclülərinin bir araya gəldiyi Bakıda Dünya kuboku yarışında zəka ustalarının uğurlu gedişləri onları finala bir az da yaxınlaşdırır.**

Sevindirici haldır ki, kişilərin yarışında dörddəbir finala vəsiqə əldə etmiş 1 norveçli, 2 amerikalı və 4 hindistanlı arasında 100 minləri heyran edən Azərbaycan şahmat məktəbinin yetirməsi Nicat Abasov da var. İndiyədək ən çətin maneələri aşmağa nail olan şahmatçımızın bu mərhələdə mübarizə aparması onun karyerasında yeni inamlı səhifədir.

Bu mərhələdə artıq zəif və güclü anlayışı yoxdur. Çünki hazırda məhz nümayiş etdirdikləri oyunlarla bir-birinin ardınca rəqiblərini məğlub etmiş ən güclü səkkizlik diqqət mərkəzindədir. Dörddəbir finalda amerikalı və hindistanlının duelləri olduqca maraqlı keçəcək. Hindistanın hər 4 şahmatçısı, xüsusilə R. Praqqnanandhaa indiyə qədər güclü oyun nümayiş etdirir. Hindistanın digər təmsilçisi, Nicat Abasovun rəqibi Santoş Vidit həmyerlilərinə nisbətən daha təcrübəlidir. İnanılmaz dərəcədə səbirli olan bu oyunçu 2 dəfə dünya çempionatının finalında oynamış Yan Nepomnyaşi üzərində qələbə qazanmaqla dörddəbir finala yüksəlib. Bundan əvvəlki analoji yarışda azərbaycanlı qrossmeyster Vasif Durarbəylini məğlub edərək dörddəbir finala qədər irəliləsə də, polşalı Yan Kşiştov Dudaya uduzmuşdu. Amma rəqibi üzərində qələbə qazanmaq üçün N.Abasov bütün imkanlarını səfərbər etməlidir.

Şahmatçımız bundan əvvəl daha güclü zəka göstərərək turnirin favoritlərindən biri, 2 min 775 reytinqli Aniş Girini mübarizədən kənarlaşdıra bilib. Sonrakı görüşdə o, dünyanın ən titullu şahmatçılarından biri Pyotr Svidleri də böyük ustalıqla məğlub edib. Rusiyalı idmançı bu turnirlərin ən təcrübəli iştirakçısı, 2011-ci ildə Dünya kubokunun qalibi, 2015-ci ildə finalçısı, 2002-ci ildə yarımfinalçısı olub. 3 dəfə iddiaçılar turnirində iştirak edib, 2005 və 2013-cü illərdə isə 3-cü yerə çıxıb.



Rəqibi üzərində qazandığı qələbədən sonra turnirin rəsmi saytına açıqlamasında təəssüratını bölüşən şahmatçımız avrokuboklarda “Qarabağ” və “Sabah”ın qələbələrinin ona ruh yüksəkliyi verdiyini bildirib: “Ötən gün ikinci klassik partiyamız bir qədər tez başa çatdı. Axşam vaxt taparaq stadiona getdim. “Qarabağ”–HİK görüşündə Azərbaycan çempionuna dəstək oldum. İkinci hissənin ilk dəqiqələrində hətta azarkeşlərə qoşularaq komandanı irəli səslədim. Ona görə səhər səsimin tutulduğunu hiss etdim. “Qarabağ” və “Sabah”ın avrokuboklardakı qələbələri mənə ruh yüksəkliyi verdi”.

Əlbəttə, idmanımızın zəfər sorağı hər bir vətəndaşda böyük qürur hissi, ruh yüksəkliyi yaradır. Bu gün Dünya kubokunun davam edən gərgin və maraqlı oyunlarını azərbaycanlılar həyəcanla izləyirlər. Azarkeşlərimiz Dünya kuboku yarışında Nicat Abasovun növbəti qələbəsini böyük ümidlə gözləyirlər.

Beləliklə, 17 gündür ki, davam edən zəka marafonunun bu mərhələsində mübarizəsini davam etdirən Nicat Abasov dünən Santoş Viditlə ilk oyunda heç-heçə edib.

Bu gün isə şahmatçılar cavab görüşlərində iştirak edəcəklər.

***L.SABİRQIZI, “Xalq qəzeti”***

# TÜRKSOY-un inşa müsabiqəsinin qalibləri

**Beynəlxalq Türk Mədəniyyəti Təşkilatının 30 illiyi münasibətilə “TÜRKSOY türk dünyasının qızıl körpüsüdür” mövzusunda inşa müsabiqəsinə yekun vurulub.**





Yeni nəsilin diqqətini türk xalqlarının mədəniyyətinin, adət-ənənələrinin, birliyinin qorunub saxlanılması və inkişaf etdirilməsinə yönəltmiş müsabiqə Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Türkmənistan, Türkiyə və Özbəkistanın orta ümumtəhsil məktəblərinin 13-15 yaşlı şagirdləri arasında keçirilib. Azərbaycan məktəbliləri Nərmin Məmmədli 1-ci, Yaqut Bəyova 2-ci, Fatimə Məmmədova isə 3-cü yerə layiq görülüb.

Müsabiqə zamanı anonimliyin qorunması ilə bağlı hər şagird özünə türk dunyasına aid bir təxəllüs seçib. Yazıları ilk onluğa düşənlərin adları açıqlanıb.

Nərmin Məmmədli və Fatimə Məmmədova ilə əlaqə saxlayıb onları təbrik etdik, təəssüratlarını öyrəndik.

Nərmin Məmmədli 2008-ci ildə Sumqayıtda anadan olub, burada yaşayır. Məhəmməd Füzuli adına 15 nömrəli məktəbin 10-cu sinfində oxuyur. Müsabiqəyə inşanı “Azərin” adı ilə göndərib. Yazısında tarix boyu türklərə qarşı edilən haqsızlıqlardan, millətlərimizin bütün sınaqlara sinə gərməsindən bəhs edib. İnşası ilə özünə 1-ci yeri təmin edib.

Fatimə Məmmədova da 2008-ci ildə doğulub. Xirdalan şəhəri Veysəl Musibov adına 5 nömrəli tam orta məktəbin şagirdidir. O, müsabiqəyə yazısını “Umay” təxəllüsü ilə göndərib. Həmin inşa 3-cü yeri tutub.

TÜRKSOY-un Azərbaycan üzrə nümayəndəsi Elçin Qafarlı bildirdi ki, qaliblərin mükafatları sentyabrın 15-də Türkiyənin paytaxtı Ankara şəhərində təqdim ediləcək.

***Rüfət MƏHƏRRƏMOV***

Ənvər Məmmədov – 100

# Əsri adlamış ömrün yolçusu

## Korifey jurnalist, məşhur diplomat, poliqlot, böyük azərbaycanlı Ənvər Nazim oğlu Məmmədovun 100 yaşı tamam oldu

**...Onun sadəcə adını eşitmişdik. BDU-nun jurnalistika fakültəsinin qocaman müəllimlərinin dilindən. Peşəkar diplomat, tərcüməçi-jurnalist, Sovet İttifaqının tele-radio sisteminin qurucularından biri, əfsanəvi insan. Biz tələbələr görmədən-tanımadan onun adı ilə fəxr edərdik.**

1923-cü il avqustun 15-də Bakıda anadan olan Ənvər Məmmədov 1950-ci ilə kimi SSRİ Xarici İşlər Nazirliyində müxtəlif vəzifələrdə çalışıb. Sonrakı altı ildə Radio Komitəsinin xaricə yayım redaksiyasının baş redaktoru olub. 1956-1959-cu illərdə SSRİ-nin Vaşinqtondakı məsləhətçi-səfiri, "SSRİ" jurnalının baş redaktoru vəzifələrində işləyib. 1959-1960-cı illərdə "Sovinformbüro" sədrinin birinci müavini, 1961-ci ildə Siyasi Xəbərlər Agentliyinin sədr müavini, 1962-ci ildən 1985-ci ilə kimi isə SSRİ Dövlət Televiziya və Radio Komitəsinin sədr müavini işləyib. Ə.Məmmədov həmin vəzifədə işlədiyi dövrdə sonradan məşhurlaşmış bəzi sovet filmlərinin, o cümlədən "Baharın on yeddi anı" və "Taleyin ironiyası və ya həmişə təmizlikdə" filmlərinin ekrana buraxılmasına nail olub.



İkinci Dünya müharibəsinin iştirakçısı olan Ə.Məmmədov faşist canilərinin Nürnberq Məhkəməsində Tərcümə agentliyi rəisinin müavini kimi iştirak edib. O, "intihar" xəbəri yayılmış alman generalı Fridrix Paulsu tapıb, onun gizli yollarla hərbi tribunala gətirilməsini təşkil edib. Paulsun faşistlərin törətdiyi cinayətlər barədə etiraflarını da məhz Ənvər Məmmədov tərcümə edib.

Dünən Moskvada həmkarları, dostları Ənvər müəllimin başına toplaşıb yubilyar haqqında ürək sözlərini söyləyiblər, ustad sənətkarla bağlı maraqlı xatirələrini danışıblar. Yubiley günündə tanınmış teleaparıcı Solovyev Ənvər Məmmədovun SSRİ və Rusiya televiziyasının, xəbər agentliyinin, bütövlükdə KİV-in inkişafında böyük xidmətlərini xüsusi qeyd edib.

**P.S. Biz də öz növbəmizdə qəzetimizin kollektivi, eləcə də Azərbaycan jurnalistləri adından ustad sənətkarı, dəyərli həmyerlimizi 100 yaşı münasibətilə təbrik edir, Vətəndə redaksiyamızda görüşmək ümidilə ona uzun və sağlam ömür arzulayırıq.**

*X alq qəzeti"*

# Beynəlxalq Astronavtika Konqresinə hazırlıq sürətlənib

**"74-cü Bakı Beynəlxalq Astronavtika Konqresi ölkəmiz üçün qlobal baxımdan kosmos sahəsində son illərin ən prestijli tədbiridir. Azərbaycan belə bir tədbirə bu il oktyabrın 2–6-da evsahibliyi edəcək. Tədbirin yüksək səviyyədə keçirilməsi üçün dinamik hazırlıq işləri aparılır". Bu sözlərin davamında "Azərkosmos"un ictimaiyyətlə əlaqələr və kommunikasiya qrupunun rəhbəri Fidan Behbudova bildirib:**




–74-cü Beynəlxalq Astronavtika Konqresini məhz Bakıda keçirmək üçün daha öncədən biz bir sıra işlər görmüşdük. "Azərkosmos" və Beynəlxalq Astronavtika Federasiyasının tərəfdaşlığı ilə keçiriləcək 74-cü Konqres çərçivəsində konfranslar, 190-dan çox texniki sessiya və sərgilər təşkil olunacaq. Tədbirdə kosmik agentliklərin, dövlət sektorunun, investorlar və özəl kosmik şirkətlərin nümayəndələri, yerli və beynəlxalq media qurumlarının təmsilçiləri iştirak edəcəklər.

Kosmos sahəsindən olan iri şirkətlər Bakı konqresinə böyük maraq göstərirlər. Pavilyonda iştirakla bağlı artıq 50-dən çox təşkilatla müqavilə imzalanıb. Hazırda 70-dən çox ölkədən kosmik şirkətlər və nümayəndələr artıq Bakıda keçiriləcək Beynəlxalq Astronavtika Konqresində iştirak üçün qeydiyyatdan keçiblər. Konqres tarixində bu tədbirin Bakıda keçirilməsi yeni bir səhifədir. "Qlobal çağırışlar və imkanlar: kosmosa şans verək" mövzusunda baş tutacaq beynəlxalq konqres kosmik sənayenin gələcəyini formalaşdıran yeni ideyalar və qabaqcıl həllərlə bağlı fikir mübadiləsi üçün açıq platforma olacaq.

Fidan Behbudovanın sözlərinə görə, Beynəlxalq Astronavtika Konqresi özündə böyük və maraqlı konsepti birləşdirir: həm texniki sessiyalar, həm elmi məqalələr olan hissəsi, üstəlik sərgi pavilyonu. Sərgi pavilyonu biznes imkanlara yol açır. Konqresin böyük həcmli hissəsini elmi məqalələr təşkil edir. Bu il Bakı Konqresində elmi məqalələrə böyük maraq var. Ümumilikdə, 95 ölkədən 3 min 600-dək elmi məqalə Bakı Beynəlxalq Astronavtika Konqresinə qəbul olunub. Azərbaycandan isə gənc tədqiqatçı və professorların 214 məqaləsi qeydiyyatdan keçib.

Prezident İlham Əliyev bununla bağlı 74-cü Beynəlxalq Astronavtika Konqresinin 2023-cü ildə Bakı şəhərində keçirilməsi ilə bağlı Azərbaycan Respublikasına gələcək əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi haqqında sərəncam imzalayıb. 74-cü Beynəlxalq Astronavtika Konqresinin açılışında bir sıra tanınmış insanların, kosmik sahədə öz fəaliyyəti ilə məşhur insanların iştirakı gözlənilir. Bunlardan biri məşhur yazıçı, tarixçi, professor Yuval Noah Hararidir.

Könüllülərlə xüsusi hazırlıqlar aparıldığını diqqətə çatdıran F.Behbudova deyib ki, bu ilin iyun ayında könüllülərin seçimi aparıldı və müəyyən bir qrup gənc seçilib. Konqres müddətində könüllülər çox dəyərli təcrübə qazanacaqlar. Çünki Beynəlxalq Astronavtika Konqresi 50 ildən sonra yenidən Bakıda keçiriləcək. Paytaxtımız 50 il sonra yenidən bu əlamətdar tədbirə evsahibliyi edəcək.

*"Xalq qəzeti"*

# Rublun "çöküşü" davam edir

## Bu, manatın effektiv məzənnəsini möhkəmləndirir

**Rusiya rublunun dollara nisbətən məzənnəsi psixoloji həddən aşağı düşüb. Moskva birjasında ticarət zamanı 1 dolların məzənnəsi 2022-ci ilin mart ayından bəri ilk dəfə 100 rublu ötüb və 2,22 faiz artaraq 101,64 səviyyəsinə yüksəlib. Rusiya Mərkəzi Bankının məlumatına görə, ilin əvvəlindən rublun real effektiv məzənnəsi (Rusiyanın əsas ticarət tərəfdaşlarının inflyasiyaya uyğunlaşdırılmış valyuta səbətinə nəzərən) 26,4 faiz ucuzlaşıb. Bir avronun məzənnəsi isə 111,32 rubl səviyyəsinə kimi artıb. Sonuncu dəfə Avropa İttifaqı valyutası ilə 111 rubldan yuxarı ticarət əməliyyatı 23 mart 2022-ci ildə olub. Bu ilin 7 ayı ərzində rubl avroya qarşı isə 29,9 faiz ucuzlaşıb. Bu o deməkdir ki, rubl ilə yığım edənlərin pulu real ifadədə dəyərinin üçdəbirdən çoxunu itirib.**

Bununla bağlı iqtisadçı ekspert Dmitri Babin deyib: "Xarici valyuta təklifi ilə tələbat arasında disbalans var. Bu, rubla təsir edir. İxrac gəlirlərinin azalması ilə əlaqədar daxili bazara kifayət qədər valyuta daxil olmur. Nəticədə, tələbat yüksək olsa da, təklif onu qarşılaya bilmir".

Eyni zamanda, idxal yüksək səviyyədə qalır. Bu, həm rusiyalı fiziki şəxslər, həm də ölkədəki aktivlərini tərk edən qeyri-rezidentlər tərəfindən vəsaitlərin çıxarılması ilə yanaşı, xarici valyutaya artan tələbi dəstəkləyir. Başqa bir səbəb turizm mövsümü ilə əlaqəlidir. İstirahətə gedənlər nağd xarici valyutaya üstünlük verirlər. Yəni, xarici valyutaya tələbi artırırlar.

Rusiyanın enerji gəlirlərində də kəskin azalmalar qeydə alınır. Beynəlxalq Enerji Akademiyasının məlumatına görə, bu ilin birinci yarısında Rusiyanın neft ixracatı 120,4 milyard dollardan 77,4 milyardadək azalıb. Bu o deməkdir ki, Rusiyanın neft gəlirlərində 65 faiz azalma var. Ümumi ixracatdakı azalmalar rubla təzyiqi daha da artırıb.

Dmitri Babinin sözlərinə görə, neftin qiymətinin qalxması ixrac gəlirlərinin bərpasına töhfə verə bilər. Lakin Rusiya neftinin ixracının azalması, sanksiyalar və geosiyasi məhdudiyyətlər neft qiymətlərindəki artımın təsirini zəiflədir. Rublin



dinamikasında müsbətə doğru ciddi dəyişiklikləri gözləmək lazım deyil. Prinsipcə, rublla bağlı vəziyyət dəyişməyib. Bununla belə, ayın sonuna yaxınlaşdıqca, Rusiya ixracatçıları vergi ödəməyə hazırlaşdıqları üçün rublun ucuzlaşma tempi aşağı düşə bilər. Bu, nəzərəçarpan olmayacaq. Görünən odur ki, Ukrayna ilə müharibə Rusiya iqtisadiyyatı üçün heç də ucuz başa gəlməyəcək. Müharibə xərcləri artdıqca və ixracı kəskin şəkildə azaldıqca rublun dəyərdən düşməsi sürətlənəcək. Hətta, rublun ucuzlaşmasının qarşısını almaq üçün Rusiya Mərkəzi Bankının uçot dərəcəsini 8,5 faizdən 12 faizə qaldırması da təsirsiz qalacaq.

Rublun dollara və avroya nisbətdə zəifləməsi və nəticədə gəlirlərin azalması əmək miqrantlarına da təsir edir. Bu səbəbdən onların üçdəbiri Rusiyanı tərk edə bilər. Belə bir proqnozu Moskvadakı özbək diasporunun rəhbəri Bəhrom İsmayılov verib. Özbəklər arasında keçirilən sorğunun nəticələrinə görə, onların 50 faizi dolların bahalaşması ilə əlaqədar Rusiyanı tərk etməyi düşünür.

Rublun kəskin ucuzlaşmasının Azərbaycana təsirlərinə gəldikdə isə iqtisadçı Vüqar Bayramov bildirib ki, bu ilin ilk yarısında ölkəmizin 14 milyard 755 milyon dollarlıq ixracatının cəmi 3,5 faizi Rusiyanın payına düşüb. Deməli, ixrac yolu ilə ölkəyə daxil olan valyutanın strukturunda Rusiyanın payı olduqca azdır. Azərbaycanın 22 milyard 953 milyon dollarlıq ticarət dövriyyəsinin isə cəmi 8,3 faizini Rusiya formalaşdırıb.

Bu baxımdan rublun ucuzlaşmasının Azərbaycana daxil olan valyutanın həcminə xüsusi təsiri olmasa da Rusiyadan ölkəmizə göndərilən remitensinin (bir ölkədən digərinə göndərilən vəsait) həcminə təsirsiz ötüşməyəcək. Rusiyada iqtisadi çətinliklər Azərbaycana göndərilən vəsaitin həcmini azalda bilər. Digər tərəfdən, rublun ucuzlaşmasının valyuta bazarımıza psixoloji təsirlərini də diqqətdən qaçırmaq olmaz.

Bununla belə, rubl daxil olmaqla bir sıra tərəfdaş ölkə valyutalarının zəifləməsi manatın nominal effektiv məzənnəsini daha da möhkəmləndirir. Bu da qeyri-neft ixracatımıza təsirsiz ötüşməyə bilər. Rusiyada fəaliyyətini davam etdirən azərbaycanlı iş adamlarının da həm yığımlarını, həm də sərmayə qoyuluşlarını şaxələndirmələri çox vacibdir. Rusiya iqtisadiyyatı artıq yeni mərhələyə qədəm qoyub. Bu, onun bütün qonşularından daha yaxşı hazırlıq tələb edir.

***Pünhan ƏFƏNDİYEV,***
***"Xalq qəzeti"***

# Mahaçqala: yanacaqdoldurma məntəqəsində partlayış

**Dağıstanın paytaxtı Mahaçqala şəhərindəki yanacaqdoldurma məntəqəsində baş verən partlayış nəticəsində ölənlərin sayı 35-ə çatıb. TASS xəbər verir ki, hadisə nəticəsində 80 nəfər xəsarət alıb.**



"Hazırda 63 nəfər, o cümlədən 16 uşaq stasionar müalicədədir. Xəsarət alanlardan 2-si uşaq olmaqla 11 nəfərin vəziyyəti ağır qiymətləndirilir. Daha 17 nəfərə ambulator tibbi yardım göstərilib", – deyə Səhiyyə Nazirliyinin məlumatında qeyd olunub.

***Mahmud QƏRİBOV, "Xalq qəzeti"***

# Monqolustan vəba təhlükəsi ilə üz-üzə

**Xinhua agentliyinin verdiyi xəbərə görə, Monqolustanın Xenti və Suxe-Bator əyalətlərində vəba şübhəsi ilə bağlı 3 hadisə aşkarlanıb. Ümumdünya Səhiyyə Təşkilatının rəsmiləri bildiriblər ki, Monqolustanın 21 əyalətinin 17-si vəba təhlükəsi altındadır. Avqustun 8-də ölkə əhalisinin yarısının yaşadığı Ulan-Batorda 1 nəfərdə vəba təsdiqlənib.**



Vəba, ilk növbədə, vəhşi gəmiricilərə təsir edən bakterial xəstəlik kimi bir heyvandan digərinə birə dişləməsi yolu ilə yayılır. Yoluxmuş birənin sancdığı insanlar da vəbaya yoluxurlar. Nazik bağırsağın yoluxucu xəstəliyi olan vəba sərt və şiddətli ishal ilə özünü göstərir. Müalicəyə erkən başlamayanda xəstəlik 24 saat ərzində ölümlə nəticələnir.

Xəstəliyin yaranmasına səbəb monqolların ənənəvi tarbaqan yeməsi göstərilir. Tarbaqan– marmot və ya monqol marmotu gəmiricilər dəstəsinin sincablar fəsiləsinə aid məməli heyvan növüdür. Uzunluğu 60 santimetrə çatan heyvanlar vəba daşıyıcıları hesab edilirlər.

Ölkədə gəmiricilərin, o cümlədən marmotun ovu qanunla qadağan edilsə də, monqollar onu delikates hesab edirlər. Marmotun ətini yeməyib, sadəcə, onu kəsməklə də xəstəliyə yoluxmaq mümkündür.

Hazırda özlərində narahatlıq hiss edənlərdə diaqnozun müəyyənləşdirilməsi üçün testlər aparılır.

***Z.HÜSEYNOVA,***
***"Xalq qəzeti"***

## "Azərsu" Açıq Səhmdar Cəmiyyəti

Azərbaycan Respublikasının dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) çərçivəsində "Dəniz suyunun duzsuzlaşdırılması ilə əlaqədar məsləhətçi şirkətin cəlb olunması" predmeti üzrə hüquq məsləhəti xidmətlərinin satın alınması məqsədilə

## TƏKLİFLƏR SORĞUSU ELAN EDİR

Təkliflər sorğusunda iştirak etmək istəyən iddiaçılar aşağıdakı ünvana (Bakı şəhəri, Moskva prospekti 67, "Azərsu" ASC-nin satınalmaların təşkili və müqavilələrin idarə olunması şöbəsinə (əlaqələndirici şəxs- Abışev Murad Çingiz oğluna, telefon-+ 99 412 -431- 47 67/87 – daxili 1087 E-mail: murad.abishev@azersu.az və Musayev Məmmədyar Ağa oğluna, telefon- +99412-431 -47- 67 – daxili 2288, E-mail: mammadyar.musayev@azersu.az müraciət edə bilərlər.

Təkliflər sorğusunda iştirak haqqı 500 (beş yüz) manatdır.
İştirak haqqı heç bir halda geri qaytarılmır.
Təşkilat - "Azərsu" Açıq Səhmdar Cəmiyyəti
VÖEN - 9900001751
Bank - "Kapitalbank" ASC-nin 1 saylı Nəsimi filialı
Kod - 200112
VÖEN - 9900003611
Yerli valyutada hesab nömrəsi AZ65AIIB33070019441100216111
Xarici valyutada hesab nömrəsi AZ55AIIB33170018401100216111
M/h - AZ37NABZ01350100000000001944
SWIFT - AIIBAZ2X

İddiaçılar imzalanıb möhürlənmiş təkliflərini (sənədləri) 4 sentyabr 2023-cü il saat 16.00-dan gec olmamaq şərtilə təqdim etməlidirlər. Göstərilən müddətdən gec təqdim olunan təkliflər baxılmadan geri qaytarılacaqdır.

Təkliflər "Azərsu" ASC-nin inzibati binasında, Bakı şəhəri, Moskva prospekti 67 nömrəli ünvanda 5 sentyabr 2023-cü il saat 16.00-da açılacaqdır. İddiaçılar və onların səlahiyyətli nümayəndələri zərflərin açılışı prosedurunda iştirak edə bilərlər.

***Tender komissiyası***

## "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" Qapalı Səhmdar Cəmiyyəti

İOT (The Internet of Things - Əşyaların İnterneti) laboratoriyasının qurulması üçün zəruri alət və avadanlıqların alınması və bununla əlaqədar xidmətlərin (işlərin) göstərilməsinin satın alınması məqsədilə

## MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.portofbaku.com səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Zərflərin təqdim edilməsi üçün son tarix 29 avqust 2023-cü il saat 17.00-dəkdir. Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu - +994 12 599- 00- 03 (daxili 3704).
Ünvan- AZ1010, Bakı şəhəri, Nəsimi rayonu, Ü.Hacıbəyov küçəsi 140.

SON SƏHİFƏ
# Xalq qəzeti
Xalqın qəzeti!
№ 173 (30289) 16 avqust 2023-cü il, çərşənbə
veb-sayt: www.xalqqazeti.az

İdman xəbərləri

## Bakıda atıcılıq üzrə dünya çempionatı start götürüb

**Bakıda bu ilin ən nüfuzlu turnirlərindən biri olan atıcılıq üzrə dünya çempionatı start götürüb.**



Yarışda mübarizə aparmaq üçün 101 ölkənin 1239 idmançısı qeydiyyatdan keçib. Azərbaycanı turnirdə stend atıcılığı və güllə atıcılığı üzrə 31 nəfər təmsil edəcək.

Sentyabrın 1-dək davam edəcək dünya çempionatı Paris Yay Olimpiya Oyunlarına 48 lisenziya verəcək.

## Şahmatçılarımızın növbəti qələbəsi

**Niderlandın Eyndhoven şəhərində yeniyetmələrin Ümumdünya Şahmat Olimpiadasında Azərbaycan millisi növbəti qələbəsini qazanıb.**



Yığmamız 4-cü turda "Qazaxıstan 1" komandasını 3:1 hesabla məğlub edib. Qeyd edək ki, ilk turda Paraqvay komandası üzərində qələbə qazanan, sonra "Qazaxıstan 2" komandası ilə heç-heçə oynayan millimiz sonrakı mərhələdə Bolqarıstan yığmasını məğlub edib.

Xatırladaq ki, Azərbaycan komandasında Read Səmədov, Xaqan Əhməd, Cahandar Azadəliyev və Nərmin Abdinova çıxış edir. Komandanın kapitanı Fərid Abbasovdur.

Yarışda 47 ölkədən 63 komanda mübarizə aparır.

## Komandamız Beynəlxalq Universitet İdmanı Festivalında iştirak edəcək

**Rusiyanın Yekaterinburq şəhərində keçiriləcək Beynəlxalq Universitet İdmanı Festivalına yollanacaq nümayəndə heyəti ilə görüş keçirilib.**



Gənclər və İdman Nazirliyinin akt zalında baş tutan tədbirdə bildirilib ki, Azərbaycanı yarışda Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının komandası təmsil edəcək.

Yekaterinburqun 300 illiyinə həsr olunan yarışda ümumilikdə 36 ölkə idmançıları iştirak edəcəklər. Azərbaycan 14 idman növündən 7-də təmsil olunacaq. Komanda 69 idmançı, 14 məşqçi, 2 tibb personalı və 7 nümayəndə heyəti ilə avqustun 18-də Rusiyaya yollanacaq. İdmançılardan 54-ü kişi, 15-i qadındır.

Qeyd edək ki, Beynəlxalq Universitet İdmanı Festivalı avqustun 19-dan 31-dək keçiriləcək.

*Leyla SABİRQIZI, "Xalq qəzeti"*

Texnologiya yenilikləri

## "Luna-25" Aydan məlumatlar ötürür

***Rusiyanın Aya su mənbəyi axtarmaq üçün göndərdiyi "Luna-25" kosmik gəmisində elmi cihazlar işə düşüb və Yerə ilk məlumat ötürüb. Federal Kosmik Agentliyinin (Roskosmos) verdiyi açıqlamada ölkənin 1976-cı ildən sonra Aya göndərdiyi ilk kosmik gəmi olan "Luna-25"də bütün sistemlərin normal işlədiyi qeyd edilib.***



"Luna-25" avqustun 11-də Moskvadan 5 min 500 kilometr şərqdə yerləşən "Vostoçnıy" kosmodromundan "Soyuz 2.1b" raketi ilə Aya buraxılıb. Təxminən, 1 il müddətində "Luna-25" şüaların və elektromaqnit emissiyalarının Ay səthinə təsirini araşdırmaqla yanaşı, su tapmaq üçün axtarışları da davam etdirəcək.

*Leyla İLKİNQIZI, tələbə-jurnalist*

## "WhatsApp"ın yeni qoruyucu funksiyası

***"WABetaInfo" portalı məlumat verib ki, "WhatsApp" yazışmaları qorumaq üçün yeni funksiya təqdim edib. Artıq "WhatsApp"ın veb versiyasında da ekranı kilidləmək mümkün olacaq. Bu, kənar şəxslərin messencerinizdən icazəsiz istifadəsinə imkan verməyəcək.***



Bu proses ilk dəfə 2022-ci ilin noyabrında təqdim olunub. İndi isə bu yenilik "WhatsApp Web"in çoxlu sayda "beta" testerləri üçün əlçatan olub. Bu funksiya messencerə girişi bloklamağa imkan verir və hər açılışdan sonra xüsusi parol daxil etməyi tələb edir. İstifadəçi parolu unudubsa, o, sessiyanı bitirməli, sonra isə aktiv "WhatsApp" seansı olan kompüter və smartfonun ekranında "QR" kodundan istifadə edərək yenidən avtorizasiya etməlidir.

Hazırda bloklama funksiyası sınaqdan keçirilir, buna görə də "WhatsApp Web"in sabit versiyasında hələ ki, mövcud deyil. Oxşar funksiya bütün digər platformalar, o cümlədən "Android" və "iOS"da messencer müştərisi üçün də nəzərdə tutulub.

*Leyla HADİ, tələbə-jurnalist*

Maraq dünyası

## "Kamal Talıbzadə-100" virtual sərgisi

**Bu il ölkəmizdə Əməkdar elm xadimi, professor Kamal Talıbzadənin 100 illik yubileyi qeyd olunur. Yubiley münasibətilə Azərbaycan Milli Kitabxanasının əməkdaşları tərəfindən "Kamal Talıbzadə-100" adlı virtual sərgi hazırlanıb.**




Kitabxanadan redaksiyamıza bildirilib ki, virtual sərgidə fotolar, Kamal Talıbzadə haqqında kitab və məqalələr, müəllifi, tərtibçisi və redaktoru olduğu kitablar nümayiş olunur.

*"Xalq qəzeti"*

## Türkiyənin ilk astronom qadını

**Astronomiya sahəsinə verdiyi mühüm töhfələrə görə "Google"un alternativi olan "Doodle" proqramında Türkiyənin tanınmış qadın astronomu və riyaziyyatçısı Nüzhet Gökdoğana həsr olunmuş məlumatlar yer alıb. Bu proqramı klikləməklə istifadəçilər İstanbulda anadan olmuş 113 yaşlı mərhum professor haqqında məlumat və xəbərlərin yerləşdiyi səhifəyə yönləndirilir.**




Gökdoğan 1954-cü ildə İstanbul Universitetinin elmlər fakültəsinin ilk qadın dekanı olub. Paris rəsədxanasında təcrübə keçən astronom fəaliyyətini doğma yurdunda davam etdirib.

Qeyd edək ki, "Doodle" müxtəlif ölkələr üçün əhəmiyyətli günləri və bayramları, mədəni hadisələri və tarixi şəxsiyyətlər haqqında məlumatları özündə əks etdirən proqramdır. İnternet istifadəçiləri burada bu və ya digər mövzular haqqında ətraflı məlumat əldə etmək imkanına malikdirlər.

*F. SALMANOVA, "Xalq qəzeti"*

## "İndiana Cons və tale saatı"

**80 yaşlı amerikalı aktyor Harrison Fordun baş rolda oynadığı bu film İndiana Cons barədə silsilənin ən son hissəsidir. İyunun 30-da prokata çıxmış film cəmi 142 milyon dollar qazanc əldə edib. Bu, ilk baxışdan yüksək məbləğ kimi görünsə də, filmin büdcəsinin 295 milyon dollar olduğunu unutmaq olmaz.**



2018-ci ildə çəkilmiş "İndiana Cons və büllur kəllə" filmi 185 milyon dollar büdcə ilə çəkilərək 295 milyon dollar gəlir əldə etmişdi.

Xatırladaq ki, "İndiana Cons" silsiləsindən olan ilk film isə cəmi 48 milyon dollar vəsaitlə ərsəyə gələrək xərclərini 10 qat üstələmişdi. Film o dönəmdə öz istehsalçılarına 474 milyon dollar qazandırmışdı.

*Leyla İLKİNQIZI, tələbə-jurnalist*

## "Çiyələk dəniz zanbağı"

**Alimlər Antarktida sularında dəniz heyvanlarının yeni növünü aşkar ediblər. Bu barədə "Invertebrate Systematics" xəbər verir. "Promachocrinus fragarius" adlanan yeni növün bədəninin xarakterik formasına görə onu "Çiyələk dəniz zanbağı" adlandırıblar.**



Bu canlının çiyələk formasına bənzər mərkəzi bədəndən şüalanan 20 qolu var. O, bənövşəyi və ya tünd qırmızı rəngə boyana bilir. Bu heyvanın 2 formada qolu var. Aşağıdakılar qısa, zolaqlı və elastik, yuxarıdakılar isə yumşaqdır.

"Çiyələk dəniz zanbağı" okeanın 1170 metr dərinliklərində tapılıb. Yeni növ bədən forması və DNT analizi əsasında müəyyən edilib.

*Zülfiyyə QURBANƏLİQIZI, "Xalq qəzeti"*

Sağlamlıq

## Su – necə, nə vaxt, nə qədər?

***Nəinki isti havalarda, ümumiyyətlə, heç vaxt orqanizmi susuz saxlamaq olmaz. Hətta sırf maye qəbuluna fokuslanmış pəhriz növləri də var. Suyun necə qəbulu isə bədən üçün ən önəmli amillərdən biridir.***

Türkiyənin qidalanma və pəhriz mütəxəssislərindən biri Çisem Gündüz maye qəbulu ilə bağlı doğru bildiyimiz yanlışlardan danışıb. Yalnız susayan zaman su içməyin lazım olduğunu və ya "hər kəs gündəlik 2 litr su içməlidir"- kimi fikirləri absurd hesab edir. Deyir ki, su içmək üçün susamağa ehtiyac yoxdur. Bədənin hər kiloqramı üçün 30 millilitr su içmək lazımdır.



Yəni, çəkisi 60 kiloqram olan insan gündə 1,8 litr su içməlidir.

Suyun həyat olduğunu və bədənimizin təxminən 55–60 faizinin su olduğunu xatırladan dietoloq qeyd edib ki, su bədənimizin optimal sağlamlığı üçün həyati əhəmiyyət daşıyır. Yetkin insan gün ərzində böyrəklər, həzm və tənəffüs yolları ilə 2–2,5 litr su itirir.

Gündə hər kəs standart 2 və ya 2,5 litr su içmək əvəzinə, öz bədən çəkisinə uyğun su qəbul etməlidir. Məsələn, 70 kiloqramlıq bir qadının gündəlik su tələbatı 2 litr 100 millimetr olaraq hesablanır. Ancaq gün ərzində qəbul edilən içkilər və ya idman kimi amillər bu hesablamanın dəyişməsinə səbəb ola bilər.

*Z.HÜSEYNLİ, "Xalq qəzeti"*

Proqnoz

## Aranda isti, dağlarda yağış



Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin məlumatına əsasən, avqustun 16-da Bakıda və Abşeron yarımadasında əsasən yağmursuz keçəcək. Gecə və səhər zəif duman olacaq. Cənub-şərq küləyi əsəcək. Gecə 23-26°, gündüz 35-39° isti olacaq. Atmosfer təzyiqi normadan aşağı 756 mm civə sütunu, nisbi rütubət gecə 70-80, gündüz 40-50 faiz olacaq. Abşeron çimərliklərində dəniz suyunun temperaturu: Şimal çimərliklərində: (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) 26-27°, Cənub çimərliklərində: (Türkan, Hövsan, Sahil, Şıx) 27-28° isti olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Lakin Böyük Qafqaz zonasının bəzi yerlərində arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli olacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Şərq küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 22-26°, gündüz 36-41°, dağlarda gecə 16-21°, gündüz 26-31° isti olacaq.

*Q. QASIMOV, "Xalq qəzeti"*

✓ 2009-cu il sentyabrın 25-də Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən Nagıyeva Nuranə Nuru qızının adına verilmiş sığorta brokeri fəaliyyəti üçün 000267 nömrəli lisenziya itdiyinə görə etibarsız sayılır.

✓ 2022-ci ildə Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC) tərəfindən Kərimova Mehriban Zaur qızının adına verilmiş iş vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 4863
SİFARİŞ 2062
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Əli NƏCƏFXANLI

Çapa imzalanmışdır 00:00